**Camal Zeynaloğlu**

# Baş tutmayan intihar

**"Print - S" nəşriyyatı**

**Bakı - 2015**

**Az 2**
**--------**
**2015**

# Camal Zeynaloğlu: Baş tutmayan intihar

(Azərbaycan dilində)

**Redaktor: Akif Şahverdiyev,**
yazıçı- publisist

**Bakı, "Print - S" nəşriyyatı – 2015, - 174 səh.**

Bu kitab yazıçı-publisist Camal Zeynaloğlunun oxucuları ilə sayca **on doqquzuncu** görüşüdür.Oxucuların ixtiyarına verilən bu kitabda müəllifin son dövrlərdə qələmə aldığı insanları xeyirxah əməllər görməyə səsləyən və Qarabağ savaşına həsr etdiyi yeni hekayə və esseləri toplanmışdır.

İnanırıq ki, müəllifin bu kitabı da oxucuları və onu sevənləri tərəfindən maraqla qarşılanacaq.

**4702600017**
**C ----------------------- qrifli nəşr**
**00-2015**

**İSBN: 978-99-52-441-03-2**

**© C.Zeynaloğlu – 2015**

# Ön söz

*Hörmətli oxucunun əlində tutduğu bu kitabın müəllifini on səkkiz ildir ki tanıyıram. İlk tanışlığımız "Azərbaycan" nəşriyyatında olub. O vaxtlar "Son söz" qəzetinə redaktorluq edirdi. Ciddi, işinə diqqətli, səliqə-səhmanlı cavan idi. Bizi yaxınlaşdıran, birləşdirən cəhət nə idi - bilmirəm. Amma onu bilirəm ki, elə ilk vaxtlardan onun adını etibarlı, dürüst adam kimi qəlbimə yazdım: Camal müəllim!*

*Dostluğumuzun ilk vaxtlarından öyrəndim ki, ixtisasca jurnalist olmasa da, yaradıcılığa olan marağı onu bu sahəyə gətirib. Bir vaxtlar müəllim işləyən Camal qazandığı təcrübəni iş yerində elə tətbiq edirdi ki, istər - istəməz ona həmkar kimi yox, müəllim kimi baxar, müraciət edərdik. Az-az adama nəsib olan üstün cəhəti odur ki, Camal müəllimin xarakteri ilə yaradıcılığı üst-üstə düşür. İndiyədək onun nəşr etdiyi kitabların çoxunu oxumuşam. Həmişə diqqətimi çəkən o olub ki, Camal müəllim oxucusuna ehtiramla yanaşıb və ona ehmalca müəllim tövsiyəsi verib, ibrətamiz sözləri ilə yol göstərib.*

*Sovet dövründən fərqli olaraq indi kitab çap etdirmək asanlaşıb. Senzuranın ləğvi, ədəbi tənqidin susduğu indiki zamanda saysız-hesabsız kitablar baş gicəlləndirir. Yaxşını*

*pisdən ayırmaq çətinləşib. Bir tərəfdən də internetin geniş vüsət aldığı bir vaxtda informasiya bolluğu adamları sanki girinc edib. Daha adamlarda əvvəlki vaxtlarda olduğu kimi mütaliə etməyə, qalın-qalın kitablar oxumağa hövsələ qalmayıb. Belə bir zamanda yazıçının işi çətinləşir. Haradan başlamalı? Hansı janrda yazmalı? Oxucunun marağını necə müəyyənləşdirməli? Onun qəlbinə necə yol tapmalı? İstədiyin sözü ona hansı yolla çatdırmalı? və s. kimi suallara cavab tapmadan qələmə əl uzatmaq istəmirsən.*

*Görünür Camal Zeynaloğlunu da bu suallar düşündürmüş və o, doğru olaraq böyük mətləbləri kiçik hekayələr şəkilində, bəzən qısa deyimlər formasında çatdırmağı lazım bilmişdir.*

*Əlbəttə, sizə təqdim olunan kitabı oxumadan mənimlə razılaşmaya bilərsiniz. Lakin səbrlə tanış olduğunuz hər bir hekayədə narahat bir qəlbin döyüntüsünü eşidəcək, səmimi bir insanın mehrini duyacaqsınız. Müəllifin yazıları ünvanlıdır. O yazarkən səni, onu, məni - bizi nəzərdə tutub. Bu yazılarda hərənin öz payı var. Bacaran öz payını götürəcək.*

*İnanıram ki, insanları ünsiyyətə səsləyən, onları biri-birinin dərdinə şərik olmağa çağıran, acı doğrunu şirin yalandan üstün tutan, insanları haqq yoluna səsləyən, hamının qəlbində ilahi eşq görmək istəyən Camal müəllimin bu kitabı da oxucu məhəbbəti qazanacaqdır.*

***Akif Şahverdiyev***

# *Baş tutmayan intihar*

(hekayə)

**A**ğaclar artıq çiçəkləməyə başlamışdı. Həmişə olduğu kimi, nahar fasiləsində təmiz hava almaq üçün dənizkənarı parka yollandım. Burda adam çox idi. Kimisi xanımı ilə, kimisi rəfiqi, uşaqları, sevgilisi, hətta, pişiyi, itilə gəzişirdi...

Boş oturacaqların birində əyləşib dənizin seyrinə daldım. Həftənin beş gününü bilgisayarla işlədiyimdən gözlərimdə ağrılar baş qaldırmışdı.Həkim demişdi ki, yorğunluqdan, normal yatmamaqdan irəli gələn simptondandır.Kimsə demişdi ki, dənizi seyr etmək gözə xeyirdir. Mən də hər gün nahar fasiləsində parka çıxırdım.

Beş-on dəqiqə sonra 25-30 yaşlarında bir xanım gəlib məndən bir az aralıda əyləşdi. Hiss etdim ki, xanım dodağının altında nəsə danışır.O, bulvarda gəzişən adamlara baxıb dərindən köks ötürür, tez-tez ah çəkir və öz-özünə deyirdi: “Allahım, indi mən bu axşam nə edəcəyəm? Bəxtəvərlər, elə bilirlər ki, hamı bunlar kimi dünyanın bəxtəvərləridir.İnsanlarda insaf, mürvət qalmayıb. Biganəlik o həddə çatıb ki, daha heç kimsə bir-birinin halından xəbər tutmur.Nə ziddiyyətli zamanda yaşayırıq, İlahi! Bir yanda heç bir şeydən ehtiyacı olmayan, qayğısız, firavan yaşayan insanlar, o bir yanda qayğılar, problemlər, fikir, qəm-kədər, qüssə, əzab və iztirablar içərisində çabalayan, axşama körpəsini yedizdirmək üçün yavan çörək tapa bilməyən çarəsiz ana!Sanki xeyirxahlıq, insanlıq qəbiristanlıqda dəfn olunub. Bəs, indi mən nə edim?! Başqa qadınlar kimi... Yox,

yox, lənət şeytana! Gör bir ağlıma nələr gəlir?! Əstəğfürullah!!! Əgər başqa qadınlar kimi mən də iyrənc yola düşsəydım, indi bu vəziyyətdə olmazdım.”

Onun öz-özünə danışması ötüb keçənlərin də diqqətini cəlb edir, güman ki, mənimlə danışdığını zənn edirdilər.

Bu yedə özümü saxlaya bilməyib, üzümü xanıma tutub soruşdum:

- Xanım, üzr istəyirəm. Görürəm, dərdli adama oxşayırsınız, nəsə probleminiz var?

- Fərz edək, problemim var. Məgər siz problem həll edənsiniz? - Xanım gözləmədiyim bir əda ilə sualıma sualla cavab verdi.

Əvvəlcə tutulub qaldım, ancaq tez də özümü ələ ala bildım:

- Xanım, dedim bəlkə, sizə bir köməyim dəydi. Hər halda, insanlıq ölməyib. Düzdür, indi problemsiz, dərdsiz adam tapmaq çətindir, hamının problemi var, amma baxır problemin böyüklüyünə və kiçikliyinə. Sizin probleminiz bunların hansındandır? - deyə soruşdum.

- Siz mənimlə tanış olmaq istəyirsiniz, yoxsa həqiqətən də problemimi həll etmək? Siz, kişilər hamınız bir bezin qırağısınız. Qadın gördünüzmü, özünüzü elə göstərirsiniz, guya onların halına acıyırsınız, onlara nəsə kömək etmək istəyirsiniz. Amma çox çəkmir əsl məqsədiniz aydın olur...

- Xanım, bu nə sözdür belə? Əlbəttə ki, bir insan kimi halınızdan xəbərdar olmaq istədim. Bəlkə, sizə bir köməyim dəydi.Tanımadığınız bir adamı bu tərzdə ittiham etmək heç də yaxşı hal deyil. Ola bilsin ki, kimsə sizi aldatsın, amma bu o demək deyil, bütün kişilər eynidir. Mən bu fikirlə qətiyyən razı deyiləm. Hər kəsin özünə görə mənliyi, şəxsiyyəti var. Qaldı ki, bəndənizin də mənasız söhbətlərdən xoşu gəlmir. O ki ola, tanımadığım bir xanımla.Yəqin hamısı əsəb

gərginliyindəndir. Gəzintiyə çıxmaqda düzgün seçim etmizsiniz. Dəniz insan əsəblərinin məlhəmidir.
- Mən bura, əsəblərimi sakitləşdirməyə deyil, özümü dənizə yem etməyə gəlmişəm, - Xanım üzümə tərs bir nəzər saldı.
-Xanım, özünüzü dənizə niyə atırsınız? Əgər bu fikrinizdə ciddisinizsə, deməli, bunun nəsə bir tutarlı səbəbi var. Yox, əgər problemlər üzündən özünüzü dənizə atmaq istəyirsinizsə, onda probleminizi həll etmək mümkündür. Həyatda həll edilməyən problem yoxdur, - deyə mən məsələnin nə yerdə olduğunu öyrənməyə çalışdım və onu fikrindən daşındırmağa çalışdım. - İntihar etmək Allah -təala yanında ən böyük günah hesab olunur.Özünüzü günaha batırmayın! Dərdinizi anladın, bəlkə çarə tapdıq. Ölümdən savayı hər şeyə çarə var.
- Əgər özünü öldürmək günahdırsa, bəs onda Allah-təala niyə yaratdıqlarının hamısına sahib çıxmır. Niyə insanları bir-birindən fərqləndirir? Kimisini bər-bəzəkli, cah-cəlallı saraylarda yaşadır, kimisini isə zillət içində çabaladır. Bəs deyirlər Allah adildir, rəhmlidir. Bəs hanı onun adilliyi, rəhmliliyi?! Ərim bu torpaq uğrunda şəhid oldu. Dörd yaşlı oğlumla çarəsiz qalmışam, kimsə də kömək əlini uzatmır. Əksinə, iş üçün kimə müraciət etdimsə, qarşılığında iyrənc təkliflər aldım. Budurmu insanlıq?İndi zillət içində yaşayanlardan Allahın da xəbəri yoxdur! Daha heç bir insana inamım qalmayıbdır! Sanki Allah-təala məni nəyə görəsə cəzalandırır.

Bu yerdə dözə bilməyib dilləndim:
- Xanım, küfr danışmayın! Allah hər şeyi görən və biləndir. O, lütf və kəramət sahibidir. O, yaratdığı bəndələri heç zaman darda qoymaz!
- Sözlə demək asandır. Bəs hanı Onun mərhəməti, hanı Onun lütfkarlığı? Bəs, niyə biz çarəsizə kömək etmək istəmir? Hər şeyi görəndirsə, onda niyə acından ölən

körpəyə mərhəmət göstərmir?! - Xanımı ağlamaq tutdu, onu qəhər boğdu.
- Ağlamağa gərək yoxdur, xanım. Sizin vəziyyətinizi anladım. Amma Tanrı həmişə olduğu kimi yenə haqlı çıxdı.
- Başa düşmədim. - Xanım təəccüblə gözünü döydü.
- Deyim, başa düşün: Allah-təala sizi istəməsəydi, bu oturacaqda əyləşdirməzdi. Sizin burada oturmağınız məhz Tanrının istəyi ilə olub ki, dərdinizə çarə qılan tapılsın. Bəli, şükür olsun Onun böyüklüyünə ki, hər şeyə qadirdir. Sizin probleminizi mən həll edəcəyəm. Bu Tanrının sizə göndərdiyi qismətdir. Mən sizə maddi-mənəvi dəstək olacağam. İmkansız insanlara kömək etmək hər bir müsəlmanın borcudur. Bu həm də, böyük savab iş hesab olunur. Axirət dünyasında sorğu-sual zamanı insanlardan bu dünyada gördükləri savab işlərin haqq-hesabı sorulur.
- Sizin kimilərdən çox görmüşəm. Əvvəlcə kömək edirlər, sonra da ...
- Xanım, siz niyə belə qara fikirlisiniz? Niyə bütün kişiləri eyniləşdirirsiniz?
- Eh!.. – Xanım qəfil ayağa qalxdı və iti addımlarla məndən uzaqlaşdı.

Arxadan onu nə qədər səslədimsə, dönüb heç geri belə baxmadı. Mən isə bir neçə dəqiqə bu əhvalatın təsiri altında qaldım. Sonra oturduğum yerdən qalxıb, asta addımlarla işə tərəf getməyə başladım. Yüz əlli, iki yüz metr aralanmışdım ki, qarşıda adamların toplaşdığını gördüm. Nə baş verdiyini öyrənmək üçün mən də adamların toplaşdığı yerə gəldim. Hələlik, kimsə burada nə baş verdiyini dəqiq bilmirdi. Bu arada adamların öz-özlərinə danışıqlarını eşidirdim: “Yazıq, görən, özünü niyə öldürmək istəyirmiş?..Ailə münaqişəsinə görə də ola bilər... Bəlkə, əri onu atıb... Ola bilsin ki, maddi sıxıntısı olub... Bəlkə, kimsə onu aldadıb... Borc üzündən də ola bilər... Bəlkə, ruhi xəstədir...”

Mən adamları aralayıb, bir az da irəli getdim. Gözlərimə inana bilmədim.Bir az öncə, məndən "küsüb" gedən həmin qadın idi. Təcili yardım maşını çağırmışdılar. Amma hələ gəlib çıxmamışdı.Mən nə baş verdiyini öyrənməyə çalışdım. Qadınlardan biri dedi ki, yaxında oturub körpəsi ilə dənizə baxırmış. Həmin qadın iti addımlarla gəlib, "tükünü belə darağa vermədən" özünü dənizə atıb. Yaxşı ki, yaxınlıqda bulvarın mühafizə xidmətinin əməkdaşları varmış.Qadın haray salıb.Onlar qadını xilas ediblər. İlk tibbi yardım göstəriblər. Xanım gözlərini açıb maddım-maddım ətrafına toplaşmış adamlara baxırdı. Sanki qadının bu vəziyyətində bütün insanlar ona doğmalaşmışdı. Hamı heyfsilənib təəssüf hissi keçirirdi...

Bir azdan təcili tibbi yardım maşını gəldi. Qadın ağ xalatlı həkimləri görən kimi ayağa qalxdı:

- Mən heç bir yerə getmək istəmirəm. Mən ölmək istəyirəm. Axı, məni niyə xilas etdiniz?!

Həkimlər nə qədər cəhd göstərsələr də, qadını maşına mindirə bilmədilər. O, xəstəxanaya getməkdən qəti imtina etdi. Bir qadın ondan harada yaşadığını öyrənmək istədi. O, yaşadığı ünvanı da heç kimə söyləmədi.Mən onun ünvanını soruşan qadına dedim:"Əgər, sizə zəhmət deyilsə, təcili olaraq onu sizinlə birlikdə taksi ilə yaşadığı ünvana aparaq, yoxsa soyuqdan dona bilər.Mən bu qadının özünü dənizə atmasının əsl səbəbini bilirəm.Sadəcə, bu qadının insanların köməyinə ehtiyacı var."

Qadın mənimlə razılaşdı. Mən taksi tutub, adamların köməyi ilə biçarə qadını mindirdik.Özüm keçib qabaqda, yardımçı olan qadın isə arxada oturdu. Çarəsiz qadın biixtiyar sürücüyə yaşadığı ünvanı söylədi...

Ümumi həyət idi.Həyətdəki qadınlar zavallı qonşularını görən kimi, bir ağızdan soruşdular:

- Sevda, sənə nə olub? Uşağı da evdə tək qoymusan. Biz də səndən ötrü nigaran qalmışdıq. Dedik görəsən, Sevda bu qədər vaxtı harada qaldı belə. Uşaq da sən gedəndən bəri oyanmayıb.

Sevda isə ona indi canıyananlıq göstərən qonşularının suallarına cavab vermək əvəzinə, onları nifrət dolu baxışlarla süzdü. Sonra mən birlikdə gəldiyimiz qadınla Sevdanın yaşadığı otağa girdik. Burada rütubətdən beyin çatlayırdı. Xırda, 15-18 kvadrat metr sahəsi olan kiçik bir otaq idi. Sınıq-salxaq çarpayıdakı körpə hələ də yatırdı. Otağın küncündə köhnə paltar şkafı və bir də qabaq şüşəsi qırılmış servant vardı...

Mənimlə gələn xanıma Sevdanın islanmış paltarlarının dəyişməsini xahiş edib, yarım saata qayıdacağımı bildirdim.

Yaxınlıqdakı mağazadan iki zənbil bazarlıq edib, qayıtdım. Xanım aldığım ərzağı köhnə soyuducuya qablaşdırdıqdan sonra üzünü Sevdaya tutdu:

- Darıxma, bacım, hər şey yaxşı olacaq. Mən də sənə kömək edəcəyəm.

- Bundan sonra siz heç narahat olmayın. Mən sizə hər həftə kömək edəcəyəm. Yetər ki, siz bundan sonra bir daha özünüzü öldürmək fikrinə düşməyəsiniz, evi də təmir etdirərik, münasib işə də düzəltdirərik.Biz altı qadaşıq, bacımız yoxdur, sən də bacımız olarsan, - gülərək bildirdim.- Daha ünvanınızı da öyrəndik. Bundan sonra, sizdən yalnız o, bircə balanıza qulluq göstərmək qalır. Çalışın ki, o, körpəni heç vaxt ac saxlamayasınız. Bu da mənim mobil telefonumun nömrəsi. İstədiyiniz vaxt heç nədən çəkinmədən, mənə zəng vura bilərsiniz. Hətta, gecənin hansı vaxtı olursa-olsun məni narahat edə bilərsiniz. Eşitdinizmi?

- Heç bilmirəm, sizə necə təşəkkür edim, qardaş!.. Deyirdilər ki, dünya yaxşı insanların çiyni üstündə dayanıb, inanmırdım!.. Qardaş, heç bilmirəm, sizə necə təşəkkür

edim. Bayaqları, bulvarda olarkən sizin qəlbinizə toxundum. Siz allah, məni bağışlayın! Sizin fikrinizin bu qədər ciddi olduğunu anlamadım, - deyə Sevda utancaq halda üzrxahlıq etdi.

- Siz bir-birinizi tanıyırsınız məgər? - Səhərdən bəri bu mənzərəni seyr edən, birgə gəldiyimiz qadın təəccüblə məndən soruşdu.

- İndi gedəyin, mən yolda hər şeyi sizə anladacağam, - deyə daha getmək vaxtı olduğunu xanımın nəzərinə çatdırdım.

Yolda gedərkən mən bu gün bulvarda baş vermiş hadisəni bütün təfərrüatı ilə həmin xanıma danışdım.

- Siz bu gün əsl insanlıq nümunəsi göstərmisiniz. Sönməkdə olan bir ocağı yenidən alovlandırmısınız. Hər şeydən öncə, Sevdada insanlara qarşı itmiş inam hissini yenidən ona qaytarmısınız. Gəlin, tanış olaq. Adım Zeynəbdir. Bundan sonra mən də Sevdanı tək qoymayacağıma söz verirəm. Mən də ərimlə ona tez-tez baş çəkəcəyəm, - deyə Zeynəb xanım da qürurla cavab verdi.

Həmin gündən sonra mən Sevdanı və onun uşağını maddi və mənəvi cəhətdən bir daha korluq çəkməyə qoymadım. Haqqı deyəsən, Zeynəb xanım da verdiyi sözünü tutaraq, əri ilə mütəmadi olaraq Sevdagili yoxlayır, ana-balaya hər cür maddi və mənəvi dəstək olurdular.

Mən Sevdanı həm də yaxın dostumun yanında işə də düzəltdim...

Beləliklə, həmin gündən sonra biz Sevdanın uzun illərdən bəri qarşılaşdığı və dəfələrlə üz-üzə qaldığı insan laqeydliyinə, insan soyuqluğuna bir bahar təravəti, bir ılıq insan nəfəsi qatmağa nail olduq...

Özümü həyatım boyu indiki qədər məmnun və rahat hiss etməmişdim. Və mənə elə gəldi ki, həyatda insanın Allah lütfi olan inamını özünə qaytarmaqdan şərəfli missiya yoxdur.

# *Tində dayanmış qadın*

*(hekayə)*

**İ**çərişəhərdəki ofislərin birində işləyirdim. İki ofisimiz vardı: birində işçilərimiz, digərində isə şefimiz otururdu. Yəni, Patronumuz bizdən iki tin yuxarıdakı ofisdə əyləşirdi.

…Əlimdə yazı vardı, iş yoldaşım Nərmin xanım dedi ki, patron səni çağırır. Lazım olan materialları toplayıb şefin qəbuluna tələsdim. Gedərkən Rüfət də mənə qoşuldu. Onun şefə deyəsi vacib sözü vardı. Ofisdən birlikdə çıxdıq. Birinci tindən keçərkən gördüm ki, binanın tinində 70-75 yaşlı nurani bir qadın dayanıb, əlində nəsə kağız vardı. Amma o, bizi görəndə, başını aşağı dikərək utanırmış kimi susdu. Mən gözləyirdim ki, o bizə nəsə deyəcək, ancaq qadın başını qaldırıb bizə baxmadı belə…

Yarıyolda Rüfətə dedim:

- Rüfət, o, qadının nəyəsə ehtiyacı vardı. Amma bizə deməyə utandı, görünür abırlı, qürurlu qadındır, kimdənsə kömək ummağı şəninə sığışdırmır. Qayıdanda hökmən onunla maraqlanarıq.
- Allah köməyin olsun, sən də yolda-irizdə kimi məzlum görkəmdə görəndə, deyirsən ki, hökmən ona kömək etmək lazımdır. Sən allah, Cəmil burax, bu sadəlöhvlüyünü, bu xeyirxahlığını! Özümüz dilənçidən betər gündə yaşayırıq. Necə deyərlər, hamımız Ərşənin quru bəylərindənik. Sən də deyirsən ki, o qadına kömək etməliyik. Özün də bilirsən ki, hər gün yüzlərlə bu kimi insanlarla rastlaşırıq, belə insanlara bəs o milyonçularımız niyə kömək etmir? Maşallah, elə

milyonçularımız var ki, qeyrətləri çatsa, təkbaşına bütün Bakı camaatını bir neçə il rahat dolandıra bilərlər, - deyə Rüfət həmişəki kimi yenə də mənə iradını bildirdi.

- Yaxşı, Rüfət, bəsdir donquldandın. Sən də birisinə yardım etmək məsələsi ortalığa gələndə, öz dolanışığımızı tez gözə soxursan, - deyə mən iş yoldaşımı məzəmmət etdim.

- Bəlkə, düz demirəm? Cəmil, bəyəm sən özün yaxşı yaşayırsan? Aldığın maaş ayın başına heç çatmır. Bununla belə kimlərəsə də yardım etməyə çalışırsan. Oğlunun toyu üçün bankdan götürdüyün krediti hələ ödəyib qurtarmamısan. Öz dərdin qalıb bir tərəfdə, başqalarının dərdini çəkirsən. Daha sənə deyiləsi sözüm yoxdur, - deyə Rüfət əllərini yellədi.

Mən şefimizin qəbulundan çıxandan sonra yenidən Rüfətlə birlikdə iş yerimizə qayıtdım. O, nurani simalı qadın hələ də tində dayanmışdı. Bu dəfə onun yanından saymazyana ötüb keçməyi heç cür vicdanıma sığışdıra bilmədim. Rüfətin arxadan mənə: "Cəmil, sən allah, gəl gedək. Hər küçədə dayanıb, dilənçilik edənə yardım etmək olar? Onlar çox, sənsə təksən. Bakının dilənçilərini məgər öhdənə götürmüsən? Bir də ki, tanımadığın adamlara niyə kömək etmək istəyirsən? Sən bunların belə fağır, yazıq görkəm almalarına baxma, hamısı rola giriblər. Əslinə baxsan, beləleri səndən, məndən qat-qat yaxşı dolanır. Bizim özümüzə yardım edən gərəkdir",- deməsinə baxmayaraq nurani qadına yaxınlaşdım. Ona tərəf yönəldiyimi görən qadın yenidən başını aşağı dikdi. Onun üzündəki qırışlar eynən anamın qırışlarını mənə xatırlatdı. Hiss olunurdu ki, qadın utanır. Amma nəyəsə ehtiyacı olduğu da görkəmindən, sifətindən aydınca görünürdü. Onun qarşısında dayanıb üzündəki qırışlara yenidən diqqət etdim. Bu qırışlarda kim bilir ötən illərin bizlərə məlum olmayan necə sirləri gizlənir. Gözlərini ayaqlarına dikən qadının

üzündən nur yağırdı. Məni ona yaxınlaşdıran da elə bu nur idi!

- Salam, ana! Bir az bundan öncə sizin yanınızdan tələsik keçdik. Sizin hal-əhvalınızı soruşa bilmədik. Çünki şefimiz təcili bizi yanına çağırmışdı. Sizin kimi nurani bir qadının burada dayanması məni narahat etdi. vicdanım heç cür yol vermədi. Düşündüm ki, bəlkə bir köməyə ehtiyacınız var. Ana, utanmayın, deyin görüm sizə necə kömək edə bilərik? - deyə ondan soruşdum.

- Oğlum, yoldaşınızın söylədiklərini eşidirdim. Mən dilənçi deyiləm və kimdənsə yardım almaq üçün burada dayanmamışam. Sadəcə gözləyirəm ki, qəlbində Allah xofu, imanı və inamı olan birisi mənə yaxınlaşsın. Dostunuzun dediyi sözlər qəlbimi parçaladı, utandığımdan yer aralansaydı, yerə girərdim. Hardasa onun da sözlərində həqiqət var. İndi hər kəs özünü güclə dolandırır. Kimsə kimsənin dərdindən, sərindən xəbər tutmayır. İnsanlar özlərinə qapanıb, özləri üçün yaşayırlar. Amma Allah-təala insanı bir-birinə həmdərd, sirdaş, bir-birinin halına yanmaq, harayına, köməyinə yetmək üçün yaradıb. Oğlum, dərd, kədər, kasıblıq, səfalət insanın həyatına girən çağrılmamış qonaqlardır. Bu qonaqları hər kəs öz bildiyi kimi qarşılayır. Kimisi kədəri kədərlə, kimisi kədəri sevinclə qarşılayır. Kədəri hökmən kiminləsə paylaşmaq lazımdır, oğul. O zaman insan bir az yüngülləşir, yoxsa kədər adamı bitirər. Hüzn-kədər və sıxıntıdan müalicə olunmağın ən doğru yolu həmin insanın hər şeydən öncə imanını artırması əsas şərtdir. Həmin insan Rəbbinə olan təvəkkülünü qüvvətləndirməlidir. Oğlum, Allah-təala buyurur: “Mömin olub, Allaha itaət edən, yaxşı işlər görən kişi və qadına həm bu dünyada, həm də axirətdə xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.

Nurani qadın danışdıqca qəm, qüssə, kədər, qəlbsızladıcı, acı etiraflar əlçim-əlçim ortaya tökülürdü. Xeyir, qadının dərdi güllə yağışı tək mənə doğru yağırdı. Mən bu “yağışdan” heç cür daldalana bilmirdim. Tanış kədərdi, tanış etiraflardı. Çünki buna bənzərini ayrı bir qadından əvvəllər də eşitmişdim. Amma bu nurani qadında başqalarında olmayan fərqli cəhətlər gördüm. Ona görə də ondan yenidən soruşdum:

- Anacan, əvvəlcə dostumun söylədiklərinə görə sizdən üzr istəyirəm. İndi deyin görüm, sizə necə kömək edə bilərəm?

- Oğlum, bu dəqiqələrdə on iki yaşlı qız nəvəm evdə qızdırma içində yatır. “Skoro” çağırdım, gəldi. Həkim bu resepti yazıb dedi ki, dərmanlar alınmalıdır və dərhal müalicəyə başlanmalıdır. Nəvəm möhkəm soyuqlayıb. Pensiyamın vaxtına isə hələ bir həftə qalır. Nə edəcəyimi bilmirəm. Lap başımı itirmişəm. Burada dayanmağıma baxma, utandığımdan dərdimi kiməsə söyləyə bilmirəm. Təkcə siz mənə yaxınlaşıb hal-əhvalımı sordunuz. Allah köməyiniz olsun. Ahıl bir qocayla maraqlanmağınız özü də bir savab işdir. Siz yolunuzdan qalmayın, dostunuz sizi gözləyir. Mən birtəhər başımın çarəsini qılaram. Allah sizdən razı olsun. - Nurani qadın ümidsiz halda yenidən başını aşağı dikdi. Amma onun danışığı səlis, cümlələrində heç bir qüsuru yox idi. Oxumuş qadına oxşayırdı.

Mən geri dönüb Rüfətə baxdım. O, məndən on beş - iyirmi metr aralıda dayanıb hələ də məni gözləyirdi. Cibimdə o qədər də pul yox idi. Yoldaşlarımdam borc pul almaq lazım gəlirdi. Mən üzümü o qadına tutub dedim:

- Anacan, siz məni burada beşcə dəqiqə gözləyin, mən iş yerimə dəyib həmən qayıdıram.

Mən yeyin addımlarla Rüfətə tərəf getdim. Uşaqlardan 50 manat borc pul götürüb dərhal həmən o nurani qadının

yanına tələsdim. Qadın başını aşağı dikib dayanmışdı. Mən ona çatan kimi:

- Anacan, əlindəki resepti bir mənə ver görüm, - deyə resepti qadının əlindən aldım.
- Oğul, sənə əziyyət olar. Mən birtəhər…
- Anacan, başqa heç bir sözə ehtiyac yoxdur. İndi gəl, gedək aptekə, nəvənin dərmanlarını alaq. Sonra birlikdə nəvənə baş çəkməyə gedəcəyik. Hər halda, Allah qonağı qəbul edərsiniz?! - gülümsəyərək nurani qadına baxdım.
- Bu nə sözdür, ay oğul. Allaha da qurban olum, onun qonağına da. - qadın təlaş içində dilləndi.
- Anacan, bu qədər vaxtdır söhbət edirik, ancaq adını belə bilmədim, - deyə qadının adını soruşmaq istədim.
- Adım Əminədir, oğul.
- Gözəl addır. Məncə, adınızın ərəbcə mənası, “etibarlı”, “mömin”, “etimada layiq” deməkdir! Səhv etmirəmsə, Peyğəmbərimizin (s.a.s.) anasının da adı Əminə olub.
- Düz deyirsən, oğul. Peyğəmbərimizin (bu yerdə qadın da, mən də birlikdə salavat çevirdik) anasının adı Əminə olub. Məlumatlı gəncə bənzəyirsən! Hər bir insan ona qoyulan adı həyatda hökmən doğrultmalıdır. Amma indiki dövrdə bəziləri nəinki adı doğrultmaq, bəzən heç adının mənasını belə bilmirlər. - Əminə xanım təəssüf hissilə qeyd etdi.

Reseptdə yazılan dərmanların hamısını aptekdən aldıqdan sonra birbaş Əminə xanımgilə getdik. Yaşadığı ev bir mənzildən ibarət idi. Otağın səliqə-sahmanına söz ola bilməzdi. Nəvəsi Fatimə halsız vəziyyətdə divanda uzanmışdı. Onunla salamlaşdıqdan sonra, əlimi qızın alnına qoydum. Qızcığazın doğrudan da yüksək hərarəti vardı.

- Əminə xanım, bəs həkim qızdırmanı salmaq üçün bir şey etmədimi? - deyə soruşdum.
- Həkim iynə vurdu, oğul. Amma dedi ki, iynənin təsiri keçdikdən sonra hərarət yenidən qalxacaq.

- De görüm, Fatimə bir şey yeyibmi? Çünki bu xəstə üçün əsas şərtdir.
- Səhər südlü sıyıq eləmişdim, onu yedi. Amma nahara bir şey yeməyib. Dedi ki, iştahası yoxdur. - Əminə xanım günahkar adamlar tək başını yenə aşağı dikdi.
- Bu dərmanları ancaq yeməkdən sonra içmək lazımdır. Əminə xanım, əvvəlcə Fatiməni yedizdirin - dedim.

Əminə xanım ayağını güclə sürüyərək mətbəxə keçdi. Mən də onun arxasınca mətbəxə gedib ərklə soyuducunun qapısını açdım. Soyuducuda iki yumurta, azca pendir, kiçik bir bankada tomat pastası, yarım litrlik plasmas qabın dibində maye yağ və saralmış göyərtələrdən başqa heç nə yox idi.
- Mən bu dəqiqə gəlirəm, Əminə xanım, - deyib yaxınlıqdakı dükana getdim.

Cibimdəki öz olan-qalan pulumla bazarlıq edib tez də geri qayıtdım. Çünki uşaqlardan götürdüyüm borc pulu dərmanlara vermişdim. Salafan paketləri stolun üstünə qoyanda, Əminə xanım dözə bilməyib həyəcanla dedi:
- Oğul, bu nə xacalətdir bizə verirsiniz?! Siz ki, pullarınızı dərmana vermişdiniz. Hələ üstəlik gedib bazarlıq da etmisiniz. Allah sizə, qəlbinizə görə versin. Tanrı sizi heç bir zaman darda qoymasın, ümidsiz etməsin! Rəbbim bu yaxşılığınızın əvəzini hökmən sizə verəcək! Sizə həmişə duaçı olacağam, oğul. Allah sizi pis əməllərdən, zalımın şərindən, şeytanın fitnəsindən qorusun! Tanrının nəzəri və mərhəməti heç zaman üstünüzdən əskik olmasın! Allah nə muradınız varsa, versin! Allah-təala arzu, niyyətlərinizi çin eyləsin! Amin! Oğul, siz də adınızı mənə söyləmədiniz heç.
- Adım Cəmildir, anacan! - dedim.
- Cəmil! Gözəl addır. Sizin adınızın mənası ərəbcə, "gözəl kişi" deməkdir. Həqiqətən də adınıza layiq gəncsiniz. Allah sizi saxlasın! Cəmil, oğlum siz bir əyləşin, mən bu dəqiqə

sizə bir çay dəmləyim. Bir stəkan çayımı içməmiş sizi heç yana buraxan deyiləm. - Əminə xanım oturmağım üçün təkid etdi.

- Anacan, bəs Fatimənin anası, atası haradadır?

- Danışma, oğul. Uzun hekayədir. Amma sizə qısaca da olsa söyləyəcəyəm. - Əminə xanım çaydanı qazın üstünə qoydu. - Bir oğlum, bir qızım vardı. Ərim 57 yaşında yol qəzasında həyatını itirdi. Bundan düz on il sonra, eyni aqibəti nişanlı oğlum Rauf da yaşadı. Toyuna bir həftə qalmış, o, da yol qəzasında dostu ilə birlikdə həlak oldular. Qızım Saranı uzaq bir qohumumuza ərə verdim. Amma qızımın da bəxti üzünə gülmədi. O, acı bir tale yaşadı. Amansız xəstəlik, xərçəngi nəzərdə tuturam, 30 yaşında onun ömrünə son verdi. İndi onun ətrini yeganə yadigarı Fatimədən alıram. Sara rəhmətə gedəndən sonra, əri Fərhad nəvəmi gətirib mənə verdi. Və özü baş götürüb Rusiyaya getdi. O vaxtdan bəri ondan səs-soraq yoxdur. Mən özüm də uzun illər orta məktəbdə dil-ədəbiyyat müəllimi işləmişəm, Universitetin filologiya fakültəsini bitirmişəm. Bütün bu başıma gələnlərin Rəbbim tərəfindən sınağa çəkildiyimi düşünürəm. Heç zaman Ona qarşı çıxmadım, əksinə həmişə ona şükür etdim. Çünki O, hər şeyi bilən və görəndir. Bir də ki, Özü bilən məsləhətdir, biz kimik ki. İndi mənim həyatda yeganə təsəllim qızımın yadigarı olan nəvəm Fatimədir.

İndi mənə Əminə xanımın nədən belə səlis danışması və savadlı cümlələr işlətməsi məlum oldu. Kişinin qızı ali təhsilli müəllimə imiş.

Bir azdan Əminə xanım dəmlədiyi çayı gətirib qarşıma qoydu. Kəklikotunun iyi məni vurdu.

- Əminə xanım, nə bildiniz ki, mən kəklikotu çayını çox xoşlayıram? - gülərək bəh-bəhlə stəkanı götürüb bir az da özümə yaxınlaşdırdım və hər iki əlimlə onu sıxdım.

- Oğul, kəklikotu çayının cana xeyri çoxdur. Hər halda, bunu məndən yaxşı bilərsiniz. Cəmil, oğlum, de görüm, sizin Allah kəlamları ilə aranız necədir?

- Anacan, mən bütün varlığımla Rəbbimə bağlı adamam. Özüm də namaz əhliyəm, oruc tuturam; - dedim.

- Zənnimdə yanılmamışam. Mən elə də gözləyirdim. Bu cür xeyirxah əməlləri yalnız qəlbində onu Yaradana sonsuz məhəbbəti, inamı və imanı olan adam görə bilərdi. - Əminə xanım dərindən köks ötürdü. – Oğul, Allah-təala imanını kamil etsin! İnşallah! Elə isə sizə qısa bir dini hekayə danışacağam: “Bir adam həmişəki kimi saçını-üzünü qaydaya salmaq üçün bərbərə gedir. Onunla məşğul olan bərbərlə maraqlı söhbətə başlayır. Müxtəlif mövzular barədə danışdıqdan sonra söhbət dinə gəlir. Bərbər deyir: - Bilirsən, mən sənin dediyin kimi Allahın varlığına inanmıram.

Adam deyir: - Bəs nə üçün belə düşünürsən?

Bərbər deyir: - Bunu açıqlamaq çox çətindir. Bunu görmək üçün küçəyə çıxmalısan. Xahiş edirəm, mənə deyə bilərsən, əgər Allah varsa, bu qədər problemli, xəstə insanlar, tərk edilmiş uşaqlar olardı? Allah olsaydı heç kim əzab çəkməzdi və bir-birlərini incitməzdi. Allah olsaydı, bunlara icazə verməzdi.

Adam bir an durdu və fikirləşdi, amma mübahisə etməmək üçün cavab vermədi. Bərbər işini bitirdikdən sonra adam küçəyə çıxdı. Elə o anda uzun saçlı və saqqallının tükləri bir-birinə qarışmış, baxımsız bir adam gördü. Adam əgər bu qədər baxımsız görünürsə, demək uzun müddətdir bərbərə müraciət etməyib. Adam dərhal bərbərin yanına qayıtdı və ona dedi:

- Bilirsən? Məncə, əslində heç bərbər də yoxdur.

Bərbər deyir: - Bu necə ola bilər? Gördüyün kimi mən burdayam və bərbər kimi də işləyirəm.

Adam deyir: - Xeyr, sən bərbər deyilsən. Çünki bərbər olsaydın küçədə uzun saqqallı, baxımsız insanlar olmazdı.
Bərbər deyir: - Hımm… bərbər var, amma insanlar mənim yanıma gəlmirsə, mən nə edə bilərəm?
Adam deyir: - Çox düzdür! Əsas da elə budur! Allah var və insanlar ona inam göstərib onun rəhmindən faydalanmaq istəmirlərsə, bu o insanların problemidir. Bax, dünyada bu qədər kədər və pisliklərin olmağının səbəbi budur! İnsanlar Allaha inanıb dünyada faydalı insan olmağa çalışsalar və səhv etməkdən çəkinsələr həyatda pislik qalmaz… Əməllərinə görə də həyatdan arzuladıqlarını ala bilərsən”. Oğul, eşitdiyin kimi, bu dünyada hər kəsə Allah-təala etdiyi həm yaxşı, həm də pis əməllərin mükafatını hökmən verir. Mən inanıram ki, sizin də bu gün bizə etdiyiniz yaxşılığın əvəzini sizə hökmən verəcək. Bunun üçün hər namazda sizə dua edəcəyəm. Allah sizi saxlasın və pis insanlardan, zalımın şərindən qorusun!
- Çox sağ olun, Əminə xanım. Bu çox dərin və ibrətamiz bir hekayə idi. Mən burdan özümçün nə lazımdırsa götürdüm. Fatimənin dərmanlarının verilməsini də məncə, daha sizə izah etməyə gərək yoxdur.
- Hə, oğul, buna görə siz heç narahat olmayın.Onları mən özüm həll edəcəyəm. Hətta iynələri də özüm vuracağam. Bacarıram. - Əminə xanım məni Fatimə sarıdan arxayın saldı.
- Yaxşı, onda mən qaçdım, uşaqlar məni gözləyir.
- Allah amanında, Cəmil balam! Başqalarının harayına yetdiyin üçün Rəbbim həmişə sizə yardımçı olsun!

Mən Əminə xanımın yanından çıxanda, içimdə bir rahatlıq, məmnunluq və fərəh duyğusu yaranmışdı. Quş kimi uçurdum, sanki dünyanı mənə bağışlamışdılar…

## *Quru çörək*

*(hekayə)*

**A**zad müəllim sinif otağına daxil olub, uşaqlarla salamlaşdıqdan sonra sinif jurnalı vasitəsilə şagirdlərin dərsə davamiyyətini yoxladı. Zöhrə İsmayılova bu gün də dərsə gəlməmişdi. Bu artıq üçüncü dəfə idi ki, Zöhrə onun dərsində iştirak etmirdi. Azad müəllim üzünü sinif nümayəndəsinə tutub soruşdu:

- Asəf, Zöhrə bu gün də dərsə gəlməyib, səbəbini bilirsinizmi?
- Müəllim, bilmirik.
- Necə yəni bilmirik! Zöhrə sizin sinif yoldaşınız deyilmi? Niyə onunla maraqlanmırsınız? Keçən dəfə də dərsə gəlməmişdi. Uzaq olsun, bəlkə başına nəsə gəlib?! Bəs sinif rəhbəriniz buna nə deyir?
- Müəllim, Zöhrə son zamanlar nədənsə sinif yoldaşlarından uzaq gəzməyə çalışır. O, bizə daha əvvəlki tək yaxınlıq etmir, uşaqlarla qaynayıb-qarışmır. Onun bu hərəkətinin səbəbini soruşduq, ancaq Zöhrə bizə heç nə demədi. - Asəf günahkarcasına dilləndi.
- Yaxşı, mən sinif rəhbərinizlə bu barədə söhbət edərəm. Zöhrə kimi çalışqan, tərbiyəli, ağıllı, zəkalı və nəzakətli bir şagirdin dərsə bir neçə gün gəlməməsi hamını narahat etməliydi. Belə bir şagirdin dərsdən yayınmasına əsla yol vermək olmaz. - Azad müəllim şagirdindən ötrü narahat oldu.

Həm dərslərini yaxşı oxuduğuna görə, həm də intizamlı şagird olduğu üçün Azad müəllim Zöhrənin xətrini çox istəyirdi. Dərsdən sonra o, Zöhrənin sinif rəhbəri ilə görüşdü

və onunla intizamlı şagirdi barədə söhbət etdi. Sinif rəhbəri Fərhad müəllim dedi:

- Azad müəllim, düzü Zöhrənin son günlərdəki sinif yoldaşlarına qarşı davranışı məni də narahat etməyə başlamışdı. Əvvəllər yoldaşlarından bircə dəqiqə belə ayrı qala bilməyən Zöhrə, nədənsə son vaxtlar yoldaşlarından ayrı gəzərək, özünə qapanmışdı. Onunla bir neçə dəfə fərdi söhbət apardım. Amma mənə də heç bir şey söyləmədi, səbəbini mənə də anlatmadı. Sadəcə, başını aşağı dikib susdu.

- Fərhad müəllim, Zöhrəgilin evində olmusunuzmu heç?

- Azad müəllim, düzünü deyim, olmamışam.

- Fərhad müəllim, belə olan halda siz bir sinif rəhbəri kimi şagirdinizin ailəsi ilə hökmən əlaqə saxlamalıydınız. Deməli, Zöhrənin müşkül bir problemi var ki, yoldaşlarından kənar gəzməyə çalışır. Siz Zöhrənin ev ünvanını mənə verə bilərsinizmi? Onunla özüm maraqlanacağam. Bəlkə, ona bir köməyim dəydi. Oxuyan şagirdi diqqətdən kənarda saxlamaq, onu özbaşına, problemlərlə baş-başa buraxmaq düzgün olmaz.

- Haqlısan, Azad müəllim. Mən gərək bunun səbəbini nəyin bahasına olursa-olsun ondan öyrənəydim. Zöhrənin ev ünvanını sizə verərəm, sadəcə şəxsi işinə baxmaq lazım olacaq. Bir neçə dəqiqədən sonra onun ev ünvanını sizə verəcəyəm, - deyə Fərhad müəllim Zöhrənin şəxsi işinə baxmaq üçün direktorun otağına getdi.

Azad müəllimin Zöhrəyə qarşı rəğbət hissinin artmasının kiçicik bir tarixçəsi vardı. Azad müəllim məktəbə təzə gəlmişdi. Məktəb direktoru ona "açıq dərs" salmışdı. O, hələ şagirdləri yaxından tanımırdı. Adətən bəzi məktəb direktorları təzə gələn müəllimlərin bilik səviyyəsini yoxlamaq məqsədilə bu cür "açıq dərslər" təşkil edirdilər. Həmin açıq dərslərdə məktəb direktoru, tədris işləri üzrə direktor müavini, ixtisas

müəllimi və digər fənn müəllimləri də iştirak edirdilər. Həmin vaxt Zöhrənin dərs zamanı mövzunun geniş izahı, ağıllı mühakiməsi, verilən suallara dolğun və ətraflı cavablar verməsi dərsdə iştirak edən müəllimlərin hamısını xeyli təəccübləndirmişdi. Bundan sonra Azad müəllimin dərsi yüksək qiymətləndirilmişdi. O, şagirdini gələcəkdə savadlı bir həkim görmək istəyirdi. Zöhrənin biologiya və kimyadan hazırlıqlığı sinifdəki digər yoldaşlarından çox-çox fərqlənirdi. O, orta məktəb proqramda nəzərdə tutulan materialları tam mənimsəməklə yanaşı, əlavə kitablar oxumağı daha üstün tuturdu. Ona görə də Azad müəllim institutda keçdiyi materiallardan və əlavə kitablardan Zöhrəyə verərək, onun bu fənnlərə olan həvəsini daha da artıraraq bilik dairəsinin genişlənməsinə kömək edirdi. Amma birdən-birə Zöhrənin ardıcıl dərs buraxması onu narahat etməyə bilməzdi.

- Azad müəllim, Zöhrənin ev ünvanını gətirdim, - deyə sinif rəhbəri Azad müəllimi xəyaldan ayıltdı.

- Sağ olun, Fərhad müəllim. Mən Zöhrəyə baş çəkib, dərsə niyə gəlmədiyinin səbəbini hökmən öyrənəcəyəm, - deyə Azad müəllim sinif rəhbərinin ona uzatdığı, çalışqan şagirdinin ev ünvanı olan kağız parçasını aldı.

Axşam tərəfi Azad müəllim məktəbdən çıxıb, şagirdinə baş çəkmək üçün sinif rəhbərinin ona verdiyi ünvana yollandı. Zöhrəgilin mənzili doqquzmərtəbəli binanın ikinci mərtəbəsində yerləşirdi. Azad müəllim üstündə 78 rəqəmi yazılmış mənzilin qapısını döydü. Qapını Zöhrə özü açdı və müəllimini görcək təəccüblə, titrək səslə dilləndi:

- Azad müəllim?!

- Qızım, dərsə gəlmədiyinə görə narahat oldum. Ona görə sənə baş çəkməyi qərara aldım. De görüm, dərsə niyə gəlmirsən? Bir probleminmi var? Əgər varsa, məndən çəkinmə. Sən çalışqan şagirdsən, sənin dərs buraxmağına heç cür biganə qala bilmərəm.

Zöhrə susaraq başını aşağı dikdi. Bunu görən Azad müəllim gülərək əlavə etdi:

- Müəllimini içəri dəvət etməyəcəksənmi?

- Bağışlayın, müəllim. Təəccüb və həyəcandan özümü itirdim. Buyurun, keçin içəri. Xoş gəlmisiniz. - Zöhrə əvvəlcə tutuldu, nə edəcəyini bilmədi.

Azad müəllim otağa daxil oldu. İlk nəzərinə çarpan çarpayıda uzanmış hərəkətsiz qadın oldu. Zöhrə müəliminin anasına baxdığını görüb dedi:

- Anamdır. Bir ildir yatağa möhtacdır, qılçaları tutulub. Əvvəllər də tutulmuşdu, müalicə olunandan sonra yaxşılaşdı, durub gəzirdi. Həkim demişdi ki, anam hər il müalicə olunmalıdır. Amma bu dəfə...

Zöhrə sözünün gerisini gətirə bilmədi.

- Yaxşı, siz bu bir otaqlı mənzildə elə ikiniz yaşayırsınız? Bəs atan hardadır?

- Azad müəllim, zəhmət olmasa əyləşin, - deyə Zöhrə köhnə stulu müəlliminə tərəf çəkdi. - Atam beş il bundan öncə Rusiyətə getdi. Ondan sonra o, bizimlə ancaq bir il əlaqə saxladı. Sonra atamdan daha səs-soraq çıxmadı.

- Ananın vəziyyəti məlumdur. Bəs siz bütün bu illəri necə dolanırdınız? - Azad müəllim təəccüblə soruşdu.

- Dörd il idi ki, bizə Mahizər xalam baxırdı. Bizim bütün maddi məsrəflərimizi  o, ödəyirdi. Anamın müalicəsini etdirdi və anam onun sayəsində ayağa qalxdı. Yeməyimizi, içməyimizi, pal-paltarımızın hamısını xalam alıb gətirirdi. Keçən il xalam xərçəng xəstəliyindən dünyasını dəyişdi. O, rəhmətə gedəndən sonra, daha bizə kimsə kömək əlini uzatmadı.

- Qızım, bəs bütün bu qədər vaxtı niyə bizə bu barədə bir söz deməmisiniz? Heç olmasa, ya sinif rəhbərinizə, ya da mənə söyləyəydiniz. Bunun üçün bir çarə tapardıq.

- Müəllim, kimsəyə demək istəmədim. Onsuz da indi hər kəsin öz problemi var. Kimisə problemlərimizlə narahat etmək, kimsəyə yük olmaq istəmədik.

- Qızım, bilirsən ki, sinifdə ən çox sənin xətrini istəyirəm. Ona görə ki, sən ağıllısan, çalışqansan, bacarıqlısan, istedadlısan. Sənin qeyri-adi təfəkkürün var. Bundan əlavə, sən əxlaqlı və tərbiyəli şagirdlərimdənsən. Sənin kimi şagirdlərə hökmən kömək edilməlidir. Sənin kimi şagirdin dərsdən yayınmasına əsla yol vermək olmaz. Çünki sənin işıqlı gələcəyin var. Mən sənə özüm qədər güvənirəm. - Azad müəllimin gözü stolun üstündəki bir stəkan suya, bir parça quru çörəyə və qəndqabının içərisindəki qənd qırıqlarına sataşdı. - Zöhrə, qızım bəs bu qədər zamanı siz nə yeyib-içirdiniz? Əlbəttə, bu məsələdə ən böyük günah sinif rəhbərinin üzərinə düşür. Çünki aydın görünür ki, Fərhad müəllim bu günə kimi sizinlə heç maraqlanmayıb. Bu hamımızın qəbahətidir ki, sizə qarşı laqeyd olmuşuq.

Zöhrə susdu. “Demək, evdə dişə vurulası heç bir şey yoxdur” deyə Azad müəllim düşündü. Bu zaman bayaqdan bəri dinib-danışmayan Zöhrənin anası Fatimə dilləndi:

- Müəllim, arada qonşular bizə yemək verirlər. Onları da qınamaq olmur. İndi hər kəs öz hayındadır, hər kəs öz ailəsini necə dolandırmaq barəsində düşünür. Qızımın məktəbə getməməsinə bir ana kimi ən çox mən də üzülürəm, narahat oluram. Ayaqlarım tutsaydı, onu məktəbdən bircə gün də qalmağa qoymazdım. Hər hansı bir iş olsaydı, çalışıb qızımı korluq çəkməyə imkan verməzdim. Kimsənin minnətini götürməyi sevməyən, nəyə görəsə kimsənin qarşısında əyilməyi xoşlamayan insanlarıq biz. Amma görürəm ki, aclıq və səfalət istər-istəməz insanın qürurunu, mənliyini alçaldır. Allah kimsəni yatağa möhtac eləməsin. İndi mən qızımın əlinə baxıram. Allah heç düşmənimi də bizim vəziyyətimizə salmasın. Zöhrə evdə həmişə sizdən

bəhs edir. Sizin qayğıkeşliyinizdən, xeyirxahlığınızdan, insanlığınızdan ağızdolusu danışır. O, mənə şagirdlərinizi necə sevdiyinizi də söyləyib.

Azad müəllim ayağa qalxıb stolun üstündəki çörəyi əlinə götürdü:

- Bu ki köhnə çörəkdir. Bunu yemək olmaz - dedi.
- Müəllim, bunu qızım ...
- Ana! - Zöhrə anasına sözünü tamamlamağa imkan vermədi.
- Niyə deməyim, qızım? Qoy hamı bilsin ki, bu məmləkətdə bizim kimilər az deyil. Burada utanılası nə var ki?! Qoy bizim kimilərin - aylarla ət üzünə həsrət qalanların, yavan da olsa bir parça quru çörəyə möhtac olanların əvəzinə, hər gün itinə təzə ət alıb yedizdirən harınlaşmış məmurlar, yalnız özünü düşünən insanlar görüb utansınlar, xəcalət çəksinlər! - deyə Ana səsinin tonunu azca yüksəltdi. - Müəllim, bir neçə gündür ki, qızımın ayaqqabısı cırıldığından utanır, məktəbə gələ bilmir. Neçə vaxtıydı ki, rəhmətlik xalası alan ayaqqabısını geyinib gedirdi. Əlinizə götürdüyünüz o quru çörəyi də, qızım hər gün qonşuların bloka qoyduğu köhnə çörəklərdən yığıb gətirir.

Azad müəllimin şahidi olduğu mənzərəyə inanmağı gəlmirdi, onu dəhşət bürümüşdü. O, bir müddət susdu, həqiqəti söyləyən anaya nə deyəcəyini bilmədi. Amma ani olaraq:

- Zöhrə, qızım mən bu dəqiqə gəlirəm - dedi.

O, evdən çıxarkən Zöhrənin cırılmış ayaqqabısının da ölçüsünü götürməyi unutmadı. Azad müəllim ən yaxındakı marketə özünü saldı. Yemək üçün iki-üç günlük ərzaq və bir də Zöhrəyə təzə bir ayaqqabı alaraq tez də geri döndü. O, aldığı şeyləri stolun üstünə qoyaraq üzünü şagirdinə tutub dedi:

- Zöhrə, al bunları geyin görüm, ayağına olacaqmı?

- Müəllim, bu nə zəhmətdir çəkmisiniz, - deyə o, utana-utana müəlliminin ona tərəf uzatdığı ayaqqabını alıb, ayağına geyindi. Ayaqqabı tam Zöhrənin ölçüsündə idi.

Qız təzə ayaqqabısına baxandan sonra üzündə bir təbəssüm yarandı və müəliminə təşəkkür etdi.

- Sabahdan məktəbə gəlirsən, eşitdinmi? - Azad müəllim Zöhrəyə ciddi tapşırdı.

- Yaxşı, müəllim, gələcəyəm. Onsuz da həm sizin üçün, həm də uşaqlar üçün çox darıxmışam - Zöhrə gülərək müəllimini arxayın etdi.

- Allah sizin köməyiniz olsun, Azad müəllim. Siz olmasaydınız... - qəhər Fatiməni boğdu, sözlər boğazında ilişib qaldı, göz yaşları yanağına süzüldü.

- Siz narahat olmayın. Sizin müalicə məsələnizi də həll edəcəyəm. Mənim yaxşı imkanlı dostlarım və tələbə yoldaşlarım var. Onlarla birlikdə sizi müalicə etdirəcəyik. Mən indi gedirəm, Zöhrə, sabah məktəbə hökmən gəl, gözləyəcəyəm!

- Gələcəyəm, müəllim. Sizə necə təşəkkür edəcəyimi bilmirəm. Hər şey üçün çox sağ olun. Siz bu gün anamla mənə dünyaları bəxş etdiniz, - deyə Zöhrə kövrəldi.

- Yaxşı, yaxşı bəsdir. Bax, bu olmadı. Salamat qalın. Sabah görüşənədək! - Azad müəllim Zöhrəgili tərk etdi.

Azad müəllim vaxtilə şagirdi olmuş, indi isə tanınmış bir iş adamı olan Raufla əlaqə saxladı. Onlar görüş təyin etdilər. Ertəsi gün görüşdülər. Rauf orta məktəb müəllimini səmimiyyətlə qarşıladı. Azad müəllim orta məktəb xatirələrindən söhbət etdikdən sonra əsas mətləbə keçərək, Zöhrəgilin ailəsi barədə Raufa ətraflı məlumat verdi. O, bu ailəyə kömək edəcəyinə - həm Zöhrənin məktəb, həm də anasının müalicə xərclərini öz üzərinə götürəcəyinə söz verdi. Bundan sonra Azad müəllim rahat nəfəs aldı və keçmiş şagirdinə minnətdarlığını bildirdi.

Növbəti pedaqoji şurada məktəb direktoru yenə də əsas məsələləri bir kənara qoyub, söhbəti hərlədib-fırladıb sinif rəhbərlərinə şagirdlərdən qarşıdan gələn növbəti bayram üçün pul yığmağı tapşırdı. Bu dəfə Azad müəllim daha dözə bilməyib, məktəb direktoruna belə bir sual ünvanladı:

- Firəngiz xanım, deyin görüm, hər dəfə şagirdlərdən yığılan pullar hara gedir, hara sərf olunur?!
- Necə yəni hara gedir, Azad müəllim? Guya yığılan pulların hara getdiyini bilmirsiniz. Pulların bir qismi məktəbə gələn yoxlama nümayəndələrinə, bir qismi də "yuxarılara" çatır.
- Yaxşı, sizinlə razılaşdıq. Elə isə deyə bilərsinizmi ki, məktəbimizdə nə qədər uşağın maddi köməyə ehtiyacı var? Və həmin köməyə ehtiyacı olan uşaqlara son dəfə nə vaxt yardım edilib?
- Azad müəllim, siz mənimlə müstəntiq kimi danışırsınız. Sözlərinizə diqqət edin! Siz deyəsən, sərhədi aşırsınız.
- Sərhədi aşan mən deyiləm, sərhədi aşan bu pulları sizdən tələb edən insanlardır. Çünki onlar hansı şagirdin maddi ehtiyac içində yaşadığından xəbərsizdirlər. Mənim belə bir təklifim var. Birinci təklifim ondan ibarətdir ki, bundan sonra məktəbdə şagirdlərdən pul yığılmasına birdəfəlik son qoyulsun. Yox, əgər təklifimi nəzəzrə almayıb, yenidən pul yığılarsa, onda qoy həmin yığılan pullar məktəbimizdə təhsil alan maddi cəhətdən imkansız şagirdlərə verilsin. Bununla biz onları daimi diqqətdə saxlamış və qayğılarına qalmış olarıq. Həmin şagirdlər də həyatda köməksiz, yalqız olmadıqlarını anlayarlar və daha sıxıntı çəkməzlər, diqqətlərini dərslərinə yönəldərlər. Bu cür şagirdlərə bizim tərəfimizdən ən əsası insan sevgisi, insan qayğısı, insan nəvazişi göstərilməlidir. Bu hər şeydən öncə bizim insanlıq borcumuzdur. Bu gün məktəbə geyinib gəlməyə ayaqqabısı olmayan, evində xəstə valideynləri olan, axşama yalnız bir parça quru çörəyi və suyu olan şagirdlərimiz var. Amma

bütün bunlardan heç birimizin xəbəri yoxdur. Əziz həmkarlarım, bu barədə düşünmək lazımdır! Kömək ediləsi olsa, ilk öncə belə şagirdlərə kömək edilməlidir, Firəngiz xanım. Onsuz da yeni təyin olunmuş nazirimiz də məktəblərdə pulyığma kompaniyasının əleyhinədir və buna qarşı ciddi tədbirlər görəcəyinə söz verib. Bütün bunları bilə-bilə yenə də köhnə əməllərinizdən əl çəkmək istəmirsiniz. Məncə, bunun sonu heç də yaxşı olmayacaq! - Azad müəllim sözünü bitirib, sakitcə yerində əyləşdi.

Azad müəllimin çıxışından sonra kimsə dinib-danışmadı. Çünki onun çıxışı əksər müəllimlərin ürəyindən idi. Amma məktəbin direktoru Firəngiz xanıma çırtma vursaydın qanı çıxardı. Onun deməyə sözü qalmamışdı. Firəngiz xanım əsəbindən alnını əli ilə ovuşduraraq, tərs-tərs Azad müəllimə baxmaqdan başqa çarəsi qalmamışdı. Azad müəllim isə oturduğu yerindən sanki qurbağa gölünə daş atılmış bu sakitliyi  qımışaraq seyr edirdi...

# *Qonşu tikəsi*

*(hekayə)*

**A**tam bizə həmişə dönə-dönə tapşırardı ki, heç bir vaxt başqa yerdə, hətta qonşuda belə çörək yeməyək. Kimsənin qarşısında heç bir zaman üzükölgəli olmayaq. Dörd-beş yaşında olduğumuzdan bu sözün fərqinə o qədər də varmırdıq. Bu yaşdakı uşaqlar bir-birləri ilə oynayır, birimiz digər yoldaşımızın həyətinə, evinə gedər, gizlənpaç oynayar, acanda isə fərq etməz, ya mənim anam, ya da yoldaşımın anası yeməyə bizə çörək verərdilər. Biz də ayaqüstü yeməyimizi yeyib, yenidən oyunumuza davam edərdik. Atam evdə bir qayda da qoymuşdu. Yemək vaxtı hamı birlikdə süfrə başında olmalı idi. Atam süfrəyə oturmamış, kimsə çörək yeməyə cürət etməzdi, buna həm də anam imkan verməzdi.

Bir dəfə mən qonşumuz Arazla onlarda gizlənpaç oynayırdıq. Günorta vaxtı idi. Bu vaxt Arazın anası Səriyyə xala əlində iki dürmək gətirib, hərəmizə birini verərək:

- Ac olarsınız, yeyin, sonra yenə də oynayarsınız - dedi.

Arazla mən Səriyyə xalanın bizə verdiyi dürümləri yedikdən sonra, oynumuza davam etdik. Bir də eşitdim ki, anam məni günorta yeməyinə çağırır. Mən tez evimizə qaçdım. Məndən başqa hamı süfrə başında idi. Atam da yerini tutmuşdu. Mən əllərimi yuyub, süfrə başına əyləşdim. Amma iştahım olmadığından əlimi yeməyə yavaş-yavaş, könülsüz uzadırdım. Çünki ac deyildim, Səriyyə xalanın verdiyi dürüm məni yamanca tutmuşdu. Mənim zəif yediyimi görən atam ucadan üstümə qışqırdı:

- Rəsul, bu necə yeməkdir? Səhərdən fikrim səndədir, sanki sən yeməyi deyil, yemək səni yeyir.

- Ata, iştahım yoxdur, ona görə belə yeyirəm - dedim. - Necə bəyəm?!

- Günorta yeməyini yemisən?! - Atam təəccüblə soruşdu.

- Xeyr, ata. Mən nahar yeməyini yeməmişəm. Amma bir az bundan öncə, Arazgildə oynayarkən Səriyyə xala hər birimizə dürmək verdi.

- Sən də həmin dürməyi yedin, eləmi?! - Atam əsəbi halda qışqırdı.

- Bəli, yedim, ata, - deyə günahkar adam kimi başımı aşağı dikdim.

- Bəs mən sizə söyləməmişdim ki, heç bir vaxt kənar yerdə çörək yeməyin! Demək, atanızın dediyi sözü qulaqardına vurursunuz, eləmi? İndi zəhmət çəkib, ayağa qalxırsan, həyətə düşüb qonşuda yediyin yeməyi geri qaytarırsan! Cəld ol! - Atam yenə də ucadan üstümə qışqırdı.

Mən dinməz-söyləməz yerimdən qalxıb həyətə düşdüm. Sonra əlimi boğazıma salıb, Arazgildə yediyim dürməyi geri qaytardım...

Həyatım boyu atamın mənə vermiş olduğu bu dərsi heç unutmadım.

## *Tövbə*

*(hekayə)*

**B**ir gün qaynım mənə zəng edib dedi ki, ailəsi ilə birlikdə Mir Mövsüm Ağanın qəbrini ziyarətə gedirlər, orada qurban kəsəcəklər. Mənim də onlarla gəlməyimi təklif edirlər. Mən dedim ki, bu lap yaxşı oldu. Mən də Ağanın qəbri önündə içkini tövbə edərəm.

Hamama girib qüsul verdim, sonra qaynımgilə getdim. Qaynım Rauf da möhkəm içən idi. O, dini məsələlərə həmişə laqeyd yanaşırdı. Onun yanında islamdan söhbət açanda sıxılırdı. Raufa ateist də demək olmazdı. Çünki o, Yaradanı heç zaman inkar etmirdi...

Qadınlar hazırlaşana qədər, qaynımla balkonda nərd oynadıq. Oyuna təzə başlamışdıq ki, Rauf gülərək dedi:

- Deməli, sən indi içkini tövbə edəcəksən?! Heç cür inanmıram. Bir də ki, sən içkini tövbə etsən də, bir gün səni "kruqun" yenidən içməyə məcbur edəcək. Bu zaman sən isətəsən də, istəməsən də içəcəksən. Gəl, sən arağı tövbə etmə, hələ tezdir, - deyə qaynım məni fikrimdən daşındırmağa çalışdı.

- Xeyr, içkini tərgitməyi qəti qərara almışam. Bir neçə dəfə mənə yuxuda da içkini tərgitməyimi deyiblər.

- Bax, budu sənə deyirəm, əgər bu gün içkini tərgitsən, sabahkı günü peşman olacaqsan. Çünki sabah elə bir mötəbər məclisə düşəcəksən ki, içməyə məcbur olacaqsan. İçməsən, tutduğun vəzifən sual altında qala bilər. - Rauf

dedi. -Yaxşısı budur ki, sən içkini hələlik tövbə etmə! Qoy Allah-təala sənin bu günahını mənə yazsın!

Nəsə, həmin gün Ağanın qurbanını kəsməyimizə baxmayaraq, Raufun təkidi ilə mən içki tövbəsindən vaz keçdim. Bu dəfə də Şeytan mənə qalib gəldi. İradəmin zəifliyindənmi, yoxsa vəzifəpərəstliyin qulu olmağımdanmı bilmirəm, həmin anda nəfsimlə cihad etməyi bacarmadım.

Həmin hadisədən təxminən bir ay keçmişdi. İşdən arğın-yorğun evə gəlmişdim. Həyat yoldaşım süfrə hazırlayarkən:

- Raufu bu gün həkimə aparmışdılar - dedi.
- Raufa nə olub ki? - təəccüblə soruşdum.
- Birdən-birə alnının ortasından şiş əmələ gəlib.
- Bəs həkim nə deyib?
- Həkim bir şey anlamayıb. Səid Moskvaya aparacaq, orada yaxşı həkim dostu var.
- Raufu Moskvaya aparsalar, mən də onunla gedəcəyəm - dedim.

Gənclik illərimiz Raufla birgə keçmişdi. O, Moskvada M.V.Lomonosov adına Universitetdə oxuduğu zaman tez-tez ona baş çəkməyə gedirdim. Rauf məndən üç yaş kiçik idi. Mən isə o zaman Bakıda APİ -nin sonuncu kursunda oxuyurdum. Tələbəlik illərində boksla məşğul olurdum, yarışlarda iştirak edirdim. Qış tətili günlərdə Moskvaya, Raufun yanına gedirdim.

Bir dəfə restoranda yeyib-içəndən sonra musiqiçilərə Azərbaycan mahnısını sifariş etdik və oynamağa başladıq. Oyunun şıdırığı yerində musiqi kəsildi. Dönüb musiqiçilərə tərs-tərs baxdıq. Gördük ki, iki nəfər bazburutlu erməni dığası onların yanında dayanıb. Dərhal anladıq ki, musiqini bu, erməni dığaları dayandırıb. Biz astaca onlara yaxınlaşıb dedik: “Restoranda dava-dalaş salmağa əxlaqımız yol vermir. Sizinlə söhbətimizi restorandan çıxandan sonra edərik. İndisə, hələlik gedib yerinizdə əyləşin.” Ədalət

naminə desək, erməni dığaları bu xəbərdarlıqdan sonra, heç bir söz demədən keçib yerlərində əyləşdilər. Biz hallanmışdıq. Daha bir milli musiqi sifariş verdik... Artıq gec idi, haradsa gecə saat 12-yə işləyirdi. Fikrimizdə evə avtobusla deyil, taksi ilə getməyi planlaşdırmışdıq. Bu zaman qarşımızı üç nəfər kəsdi. Restorandakı “dostlarımızı” tanıdıq. Anladıq ki, bizimlə haqq-hesab çəkmək istəyirlər. Onlar bizim sərxoş olduğumuzu görüb daha da ürəklənmişdilər: “Biz içəridə olarkən sözümüzü tutduq. Deyəsən, sizin sözünüzü tutmaq fikriniz yoxdur. Nə tez unutdunuz, bizə verdiyiniz sözü. İçəridə olarkən bizə borclu qaldınız.İndi borcunuzu qaytarma zamanıdır,”- deyə onlardan ucaboylusu qəfildən Raufun sifətinə bir yumruq vurdu. Rauf zərbədən səntirlədi, amma yıxılmadı. Hər ikimiz dalaşmağı sevərdik. “Piyan” olduğuma baxmayaraq, dərhal ayıldım. Mənə yaxın dayanmış “dığa”nın iki ayağının arasından bir təpik ilişdirdim. O, “uy mama!” deyib, əlləri ilə paçasını tutub yerə uzandı. Üstümə şığıyan ikinci erməni dığasını da çənəsindən vurduğum zərbəylə yerə sərdim. Bu zaman Rauf da özünə gəldi və ikimiz ona yumruq zərbəsi vuran  “dığa”nın üstünə düşüb, o ki var əzişdirdik. Bu zaman arxadan kiminsə ana dilimizdə: “ Əlləriniz var olsun! Halaldır sizə Vətən çörəyi! Əclafların “dərs”ini yaxşı verdiniz. Daha mənim sizə kömək etməyimə ehtiyac qalmadı. İndi aradan çıxın, milis gəlir,” - deyə bizi xəbərdar etməsini eşitdik. Mən arxaya qanrıldım.. Bir oğlan idi, yanında da bir qız. O, yenidən gülərək bizə: “ Çıxın aradan, milis gəlir, başınızı bəlaya salmayın!” - deyə hadisə yerindən uşaqlaşmağı məsləhət bildi. Mən bu zaman yanımızdan ötüb keçən taksini saxlatdırdım...

Bu bizim Raufla Moskva macəralarımızdan yalnız kiçik bir epizod idi.

Raufu Moskvaya tanınmış həkimlərdən birinin yanına apardıq. Bir aya qədər Moskvada qaldı, həkim şişi əməliyyat

elədi. Dedi ki, bir az da gözləməliyik. O bizə hər şeyin əməliyyatdan sonrakı analizlərin cavabından asılı olduğunu söylədi... Dörd gündən sonra bilinən analizlərin cavabı ürəkaçan deyildi. Həkim dedi ki, bu şişin fəsadları xəstənin gözlərinin tutulması ilə nəticələnəcək. Amma həkimin bizə söylədiklərini Raufa bildirmədik. Ona dedik ki, əməliyyat uğurlu keçib.

Raufu evə gətirəndən sonra, hər axşam işdən qayıdanda, ona baş çəkirdim. O, hər dəfə mənə onunla birlikdə içməyi təkid edirdi. Mən də onun sözünü yerə salmaq istəmirdim. Artıq Raufun sol gözü tutulmaq üzrə idi. Həkimin bizə dedikləri düz çıxırdı. Həkim demişdi ki, Raufun əvvəlcə sol gözü, sonra isə sağ gözü tutulacaq.

Bir gün işdən sonra yenə Raufun yanındaydım. O, balkonda oturmağımızı məsləhət bildi. Sonra həyat yoldaşına şam hazırlamağı tapşırdı. Onsuz da hər gün Raufla yeyib-içirdik. Artıq Raufun sağ gözü də tutulurdu. Mən Raufa dedim:

- Rauf, bəlkə bu gün içməyək.

- Sən nə danışırsan, Rəşid?! Mən özümə söz vermişəm ki, son nəfəsim ağzımdan çıxana kimi içəcəyəm. Onsuz da Allah-təala mənim günahlarımı bağışlamayacaq. Mən sənə qarşı da böyük günah işlətdim. Gərəkdi ki, o zaman sənin tövbə etməyinə qarşı çıxmayaydım. İndi anlayıram ki, başıma gələnlərin hamısı o gündən sonra başladı. Mən çox böyük günah etdim, Rəşid. İndi onun cəzasını çəkirəm. Mənim sənə son sözüm budur ki, bu gündən sonra bir daha dilinə spirtli içki vurmayasan. Mən öləndən sonra tövbə edib, haqqın yoluna qayıdarsan. Mənimçün isə artıq gecdir. - Rauf dərindən köks ötürdü.

- Yanlışsan, Rauf! Allahın tövbə qapıları bəndələrinin üzünə həmişə açıqdır. İstəsən elə indicə tövbə edə bilərsən. Allah

rəhmlidir, inşallah sənin də tövbəni qəbul edər.Gəl, ümidini üzmə. Allah adildir, bağışlayandır.
- Artıq gecdir! İndi tövbə etsəm də, O məni bağışlamayacaq. Çünki bu qədər günahı olan bəndəsini heç kəs bağışlamaz.
- Sən hardan bilirsən ki, Allah səni bağışlamayacaq? Bizi Yaradan böyük lütf, səbr və kəramət sahibidir. Əgər onun yaratdığı bəndəsi nə qədər günah işlətmiş olsa belə, tövbə edərsə, yenə də onun günahlarını bağışlayar. Bilirəm, içindəki İblis sənə tövbə etməyə izn vermir. Gəl, sən içindəki iblisin dediklərinə fikir vermə! “Lənət şeytana!” deyib onu qəlbindən çıxarmağa çalış. O zaman Allaha tərəf bir addım atmış olarsan, - Raufda Yaradana qarşı inam hissi oyatmağa çalışdım.
- Daha mənimki bağışlanmaqdan keçib. Sən də bilirsən ki, mənim belə şeylərə o qədər də inamım yoxdur.
- Küfr danışma, Rauf! Bu dünyadan imansız köçmək... Biz hamımız müsəlmanıq. Hamımızın inandığı və etiqad etdiyi bir Varlıq var. O da bizim Rəbbimizdir, bizi Xəlq edəndir. Hər bir müsəlman son nəfəsində belə inamını, imanını və ümidini Allahdan üzməməli, Tanrıdan onun günahlarının bağışlanmasını və Haqqın dərgahına xətasız qovuşmasını istəməlidir.
- Rəşid, elə isə sən mənim də əvəzimə dua edərsən. Daha bu söhbətə nöqtə qoysaq yaxşıdır, - deyə bütün səylərimə baxmayaraq, Rauf dediyindən dönmədi.

Ertəsi gün işim çox olduğundan Raufa baş çəkə bilmədim. Həmin axşam evə də gec gəldim. Evə təzəcə çatmışdım ki, telefon zəng çaldı. Dəstəyi uşaqların anası qaldırdı: “Nə?!” deyib dəstəyi əlindən yerə saldı və hönkürtü vurub ağladı..
- Nə oldu, Gülşən?! - həyəcanla soruşdum.
- Rauf...
- Raufa nə oldu? Yoxsa...

Raufu itirməyim mənə çox təsir etmişdi. Sanki bəlalar ard-arda gəlirdi. Rəhmətlik Raufun qırxı çıxmamış mən də vəzifəmlə vidalaşdım. Hər gün aramsız çalınan telefon zəngləri artıq susmuşdu. Daha məni kimsə itirib-axtarmırdı. Günlərlə evdə oturub xəyallara dalırdım. Darıxmağa başladım. Amma yenə ömür-gün yoldaşım Gülşənin bu sözləri məni sanki yuxudan ayıltdı: "Vəzifədən çıxarılan təkcə sən deyilsən ki. Niyə özünə bu qədər əzab verirsən? Niyə evə qapanmısan?. Bir bayıra çıx, gəz-dolan, fikrin dağılsın. Vəzifə deyilən şey müvəqqətidir, vəzifə indiyə kimi kimsəyə vəfa qılmayıb ki."

Həmin gün axşam tərəfi həm təmiz hava almaq, həm də fikrimi dağıtmaq üçün bulvara getdim. Amma bunun da bir faydası olmadı. Beynimdəki fikir və düşüncələrdən heç cür qurtula bilmirdim. Birdən-birə bədənimdə ağrılar başladı. Əvvəlcə buna əhəmiyyət vermədim. Düşündüm ki, mənə soyuq olub. Ancaq gördüm ki, ağrılar günü-gündən şiddətlənir. Ayaqlarım və qollarımdakı oynaqlarda kəskin ağrılar baş qaldırmışdı. Həkimə getmək məcburiyyətində qaldım. Həkim məni hərtərəfli müayinə edib dərmanlar yazdı. Məsləhət gördü ki, bir həftədən sonra ona yenidən baş çəkim. Dərmanları qəbul etdim. Amma ağrılarım keçmədi... Həkimin yanına getdim, məni bir neçə aparata saldı və sonda üzünü mənə tutub dedi:

- Sizdə elə də ciddi bir şey yoxdur. Sizə yazdığım dərmanlar bu ağrıların qarşısını almalı idi. Bəlkə, siz yenidən analiz verəsiniz?

- Həkim, bəs keçən dəfə verdiyim analizlər necə oldu?

- Hər halda yenidən analiz versəniz, yaxşı olar, - deyə həkim israr etdi.

Həmin gün yenə də analiz verdim. Analizlərin nəticəsi eyni oldu. Yoldaşıma dedim ki, daha bu həkimə inanmıram. Evə gəldim. Hiss edirdim ki, gündən-günə arıqlayıram.

Oynaqlardakı ağrılar isə daha da dözülməz olmuşdu. Bütün qohum-əqrəba yığışıb gəldi. Hərəsi bir həkimi məsləhət görürdü. Çarəsiz qalıb hamısına bir-bir baş vururdum. Nə dövlət, nə də ki özəl klinikalardakı həkimlər dərdimə çarə tapa bilmədilər. Nəhayət, Türkiyədə təhsil almış gənc bir həkim dedi ki, sən onurğa sütunundan əməliyyat olunmalısan. O mənə həm də bu əməliyyatın ağır və çox riskli olduğunu söylədi.İlk dəfə olaraq ölümdən qorxdum. Evə gələrkən elektron tərəzidə özümü çəkdirdim. İyirmi bir kiloqram arıqlamışdım. Bədənimdə iynə vurmaq üçün daha salamat yer tapılmırdı. Ətim tökülmüşdü, bir dəri, bir sümük idim. Düşündüm ki, daha mənim də həyatla vidalaşmaq vaxtımdır. Pilləkənləri düşüb-çıxmaq böyük işgəncəyə çevrilmişdi, yeriyəndə, ayaqlarımı güclə arxamca sürüyürdüm. Oturanda kimsənin köməyi olmadan, ayağa qalxmağa taqətim olmurdu. İştaham qaçmışdı, əvvəlki tək yemək yemirdim. Ağrılardan axşamlar yata bilmirdim. Daha yuxu iynələri də işə yarımırdı. Evdə yoldaşıma tapşırmışdım ki, xəstəliyimdən anam xəbər tutmasın. Amma...

Bir gün axşam ağrılarımın şiddətli yerində rayondan zəng gəldi. Anam idi:

- Oğlum, eşitmişəm xəstələnmisən. Allah sənin canına qıymasın! Ölüm mənimdir. Sənə gələn qada-bəla mənə gəlsin, oğul! Onsuz da mən günümü görüb, dövranımı sürmüşəm. Sən heç darıxma! Allahın köməyilə sağalacaqsan!

Anamın sözlərindən kövrəldim, qəhər boğazımı tutdu, danışa bilmədim, gözlərimdən yaş axdı. Yoldaşım bunu görüb, telefonu əlimdən alıb anamla özü danışdı.

Ertəsi gün baldızım bizə gələrək, mənim hökmən əməliyyat olunmağımı təkid etdi. Bir söz demədim. Onlar məni yenə də özəl klinikalardan birinə gətirdilər. Yenidən müayinə, yenidən analizlər...

Bir gün sonra həkim tibb bacılarına məni əməliyyata hazırlamağı tapşırdı. Ağrılar şiddətləndiyindən tibb bacısından mənə azacıq da olsa, yatmaq üçün bir iynə vurmasını xahiş etdim. İynə vurulandan sonra məni yuxu aparıb. Yuxuda gördüm ki, möhkəm külək əsdi, palatanın pəncərələri taybatay açıldı və qarşımda nurani Qoca göründü. O, üzünü mənə tutub dedi:

- Oğlum, sən burada niyə uzanmısan?

Dedim:

- Əmi, mən ağır xəstəyəm. Bir azdan əməliyyat olunacağam.

- Dur ayağa, get burdan! Sən əməliyyat olunmayacaqsan! Sənin azarın həkimlik deyil, oğul! Sən sağalacaqsan, amma üzünü səni Yaradana tutub tövbə etməlisən. Sənə zərbənin haradan dəydiyini özün yaxşı bilirsən!

Mən oyandım. Otaqda kimsə yox idi. İçimə bir əminlik, rahatlıq duyğusu yayıldı. Bildim ki, daha əməliyyat olunmayacağam. Bu nurani Qoca əvvəllər də mənim yuxuma girmişdi. O, nə deyirdisə, o da olurdu. Bu zaman yoldaşım palataya girib dedi ki, hazırlaşım. Mən məsələni anlatdıqda, heyrətdən matı-qutu qurudu.

Bu əsnada həkim içəri girdi. O mənim təzyiqimi və hərarətimi yoxladı. Həkimi təəccüb bürüdü. O, başını yırğalayıb dedi:

- Qəribədir, sənin həm təzyiqin artıb, həm də hərarətin yüksəlib. Belə bir vəziyyətdə səni əməliyyata ala bilmərəm. Ola bilsin ki, bu həyəcandan baş verib.

Həkim gedən kimi, mən yoldaşıma yır-yığış etməyi və dərhal burdan getməyi göstəriş verdim. Həkimə bildirmədən evə gəldik.

Ertəsi gün tezdən tualetə getmək üçün yoldaşımı səsləmək istədim. Amma hiss etdim ki, ayaqlarımı çarpayıdan qaldırıb, yerə qoya bilirəm. Ayağa qalxdım.

Halbuki, yoldaşımın köməyi olmadan ayağa qalxa bilmirdim. Yavaş-yavaş addımlamağa başladım. Heç bir kömək olmadan, özüm-özümü idarə etdim. Bu zaman mətbəxdən yoldaşımın ağlamaq səsini eşitdim. Bildim ki, sevincindən ağlayır.

Günü-gündən özümdə irəliləyiş olduğunu hiss edirdim; iştaham açılmışdı, artıq nə gəldi yeyirdim, ağrılarım get-gedə azalırdı, bədənimə sanki güc-qüvvət gəlmişdi.

Bu qeyri-adi hadisədən bir həftə keçmişdi. Artıq yaxşılaşırdım. Həmin axşam hamamda niyyət edib, qüsul verdim. Sonra dəstəmaz alıb, iki rikət namaz qıldım və günahlarımın bağışlanması, bir daha dilimə spirtli içki dəyməyəcəyi və namaz qılacağım barədə Allahımın hüzurunda sidqi-ürəkdən tövbə etdim

Mən artıq sağalmışdım. Bir gün qardaşım mənə zəng edib anamın rəhmətə getdiyini söylədi. Anamın ölüm xəbəri məni sarsıtdı. Yoldaşım eşitməsin deyə, otağıma girib, için-için ağladım. Rayona gedərkən yolboyu: “Demək, anam canını mənə görə qurban verdi. Dünyanın ən fədakar insanlarıdır analar. Övladlarından ötrü canlarını əsirgəmirlər. Tanrım səni mənim üçün yerdə yaşayan bir mələk olaraq göndərib. Qayğın üçün, mehriban səsin üçün, mərhəmətli baxışların üçün, saçlarıma sığal çəkən o, şəfqətli əllərin üçün çox darıxmışam, ana! Nə yaxşı ki, siz varsınız, analar! Yoxsa, öladların dərd-sərini, acısını, nazını, şıltaqlığını bu qədər kim çəkərdi?!” - deyə düşüncələr burulğanında çabalayırdım...

Tövbə və onun Allah tərəfindən qəbul edilməsi Allahın insanlara verdiyi ən böyük qiymət və nemətlərdəndir. Tövbə və onun qəbul olunması Allahın insana qarşı böyük rəhmət və mehribanlığının əlamətidir.

## *Haram tikə*

*(hekayə)*

İnstitutu bitirdikdən sonra Rusiyanın Lipetsk şəhərinə əsgərliyə getdim. Mənimlə eyni hissədə dörd azərbaycanlı da xidmət edirdi. Onlardan Kamil adlı nəhəng cüssəli oğlanın heç nədən, heç kimdən qorxusu-hürküsü yox idi. Bizim güclə qaldırdığımız ştanqları o, bir əli ilə birdəfəyə qaldırıb kənara atırdı.Kamil bizim vuran əlimiz, atan damarımız idi. Amma hər gözəlin bir eybi olduğu kimi, Kamilin də bir eybi vardı. Komandirin və bizim öyüd-nəsihətlərimiz onun başına girmirdi. Deyirdi, mən "ustav-mustav" hərləmirəm. Nə düşünürdüsə, onu da edirdi. Hətta tribunalın özünü də milçək vızıltısı hesab edirdi.

Hərbi hissənin komandiri Kamilin əlindən cana doyduğundan məcbur qalıb, onun atasına teleqram vurdu. Rəhim kişi komandirin teleqramını alan kimi özünü yetirdi. Onun komandirlə nə danışdığından sonralar xəbər tutduq.

Amma ertəsi gün Rəhim kişi bizi yanına çağırıb dedi:

- Sizi də öz övladlarım sayıram. Sizi Kamildən ayrı tutmuram. Bu qərib yerdə bir-birinizə həyan olun, bir-birinizə arxa durun. Ancaq bir ata kimi sizdən bircə xahişim var. Kamilə o qədər də ciddi fikir verməyin. O sizə qarşı kobudluq belə etsə də, onunla mülayim davranın. Çünki Kamil bəzən özündə olmur: nə dediyini, necə hərəkət etdiyini bilmir. Bütün bunlar onun özündən asılı olmayan səbəblər üzündən baş verir. Bu gün günorta yeməyindən sonra şəhərə çıxmaq üçün komandirdən sizə də icazə almışam. Şəhərdə olarkən

sizə cavanlıqda başıma gələn bir əhvalatı danışacağam. Cavanlıqda buraxdığım bir xətanın acısını bu gün də çəkirəm...

Rəhim kişi şəhərdəki restoranların birində bizə yaxşıca qonaqlıq verdi. Qonaqlıqdan sonra Rəhim kişiyə dedim:

- Rəhim əmi, siz bizə cavanlıqda başınıza gələn hansısa bir əhvalatı danışacaqdınız.

- Hə, oğul, yaxşı yadıma saldın. Gedəyin parka. Orada bir oturacaqda əyləşib rahatca həmin əhvalatı sizə söyləyəcəyəm, - deyə Rəhim kişi bizə yaxınlıqdakı parka getməyi məsləhət bildi.

Biz oturacaqda əyləşəndən sonra nəzərlərimizi Rəhim kişiyə dikdik. Rəhim kişi ona baxdığımızı görüb söhbətə başladı: “Cavanlıqda mən də boylu-buxunlu, pəhləvan cüssəli, yaraşıqlı bir gənc idim. Amma sizin kimi ali təhsil ala bilməmişdim. “Zil” maşını sürürdüm. Güzdək daş karxanasından kubik daşıyırdım. Evlənmək istəyirdim, amma pulum yox idi. Pul qazanmaq üçün gizli daş aparıb satmalı olurduq. Bir gün Şamaxıdan bir nəfər mənə ev tikmək üçün 5 min ədəd daş lazım olduğunu bildirdi. Bu barədə yoldaşlarıma söylədim. Yoldaşlarımdan üç nəfəri işə qol qoydu. Əlbəttə, biz bu daşı Şamaxıya xəlvəti torpaq yolla elə bir vaxtda aparmalıydıq ki, kimsə görməsin. Həmin zamanlar gizli daş aparmaq qorxulu idi. Mənə isə evlənmək lazım idi...

Biz üç yoldaş gecə saat 2-3 arası Şamaxıya yola düşdük. Birimizin maşınının işığı yanmadığı üçün ortaya salmışdıq. Mən arxadan gəlirdim. Getdiyimiz yerlərdə heç bir ins-cins yox idi. Hər tərəf dağlıq, təpəlikdi, insan yaşamırdı.

Yolu yarı etmişdik ki, qabakı maşın dayandı. Məlum oldu ki, cinlər maşını sürməyə imkan vermir, maşının qabağında əcaib məxluqlar atılıb-düşür. Biz gülüşdük. Dedik ki, a kişi, yuxulu olduğun üçün gözünə cin-şeytan görünür, tərpən görək. Yoldaşımız ona inanmadığımızı görüb, and-aman

elədi ki, söylədikləri doğrudur. Ona inanmadığımı görüb dedi ki, elə isə qabaqda mən gedim. Razı oldum. Nə qədər getdiksə, maşınımın qabağına heç bir cin-şeytan çıxmadı. Ancaq bir az da getdikdən sonra maşının işığında gördüm ki, bir əlində çəlik, o biri əlində bağlama tutmuş qoca kişi mənə əl elədi. Mən də yaşlını maşına mindirmək üçün saxladım. Əyilib sağ tərəfdən qapını açdım və qoca qalxıb maşına mindi. Onun üzündən nur yağırdı. Maşına minər-minməz soruşdum:

- Əmi, xeyir ola gecənin bu vaxtı, hara belə?
- Yaxına gedirəm, oğul. Bax, qabaqdakı o təpənin yanında düşəcəyəm - Nurani adam dilləndi.
- Əmi, məncə, bu yerlərdə yaşayış-filan yoxdur - dedim.
- Yaşayış var, oğul, siz bilmirsiniz. Sizin haraya getdiyinizi də bilirəm - Nurani adam gülərək üzümə baxdı.
- Necə, yəni! - təəccüblə ona baxdım.
- Siz Şamaxıya, Səlimgilə daş aparırsınız. Narahat olmayın, daşları sağ-salamat aparıb mənzil başına çatdıracaqsınız. Səlimgilə çatanda onlar şirin yuxuda olacaqlar.Siz taxta darvazanı açıb, ev sahibini oyatmadan daşları həyətə boşaldarsınız, sonra çıxıb gələrsiniz - dedi.- Hə, siz həyətə çatanda ev sahibinin iti ətrafınıza fırlanıb yalmanacaq, ancaq it sizə hürməyəcək.

Mən ağzımı açıb ona demək istəyirdim ki... Amma o nə demək istədiyimi dərhal anlayıb dedi::

- Daşın pulundan ötrü siz narahat olmayın. Səlim həmin pulu sizə tezliklə çatdıracaq.

Nurani adam nişan verdiyi təpəyə çatanda, maşını saxlamağımı bildirdi.Maşını saxladım və qoca sağollaşıb maşından düşdü. Bir az getmişdim ki, gözüm oturacaqdakı qocanın unutduğu bağlamasına sataşdı. “Aman Allah, bağlamasını unudub! İndi nə edim?!” İstər-istəməz üst tərəfdən əlimi bağlamaya sürtdüm. Bağlamanın içindəkilər

kağız idi. Maraq məni bürüdü. Tez bağlamanı açdım. Gözlərimə inanmadım. Bağlama hamısı pul idi. Ətrafıma boylandım. Kimsə gözə dəymirdi. Bağlamanı oturacağın altında gizlətdim. İkinci dəfə maşını saxladığımı görən yoldaşlarım gəlib niyə dayandığımı soruşdular. Və gülərək dedilər ki, mən də hökmən cin-şeytan görmüşəm.Əhvalatı onlara danışdım, ancaq bağlama barəsində bircə kəlmə də söyləmədim. Onlar da dedilər ki, bu yerlərdə heç bir yaşayış yoxdur. Mən isə özümdən uydurdum: "Qoca dedi ki, təpənin arxasında onlar mal-heyvan saxlayırlar." Biz yenidən yolumuza davam etdik. Sağ-salamat Şamaxıya, Səlimgilə gəlib çıxdıq. Doğrudan da, qocanın dediyi kimi onlar yatmışdılar. Həm də gecənin bu vaxtı kim oyaq qalar ki. Taxta darvazını açdıq. Bu zaman bir it gəldi və bizə hürmədən ətrafımızda fırlandı, yalmandı. Biz gətirdiyimiz daşları həyətə boşaltdıq və geri qayıtmaq istərkən yoldaşlarım məndən soruşdular:

- Bəs, daşların pulunu almayacağıq?

- Pul barəsində heç narahat olmayın. Səlim pulu axşama kimi bizə çatdıracaq, - deyə yoldaşlarımı arxayın etdim.

Həmin gün günortadan sonra həqiqətən də Səlim ona apardığımız daşın pulunu gətirdi. Mən isə bağlamadakı həmin pullarla kasıbçılığın daşını birdəfəlik atdım. Qocanın mənimçün qoyub getdiyi bağlamadakı pullarla əvvəlcə bir ev tikdirdim, sonra evləndim. Qalan pulları isə istədiyim kimi sağa-sola xərclədim; yoldaşlarımla hər gün restoranlarda yeyib-içmək, eyş-işrətlər, sanatoriyalar... Bir sözlə, həmin pulların hesabına ancaq özümçün yaşadım, həyatdan istədiyim kimi zövq aldım, əyləndim. İlk öncə iki qızım oldu. Amma onlar çox yaşamadılar. Daha sonra üç qızım da oldu. Onlar sağ qalsalar da, anormal oldular. Sonra son ümidim, oğlum Kamil dünyaya gəldi. O da ki, gördüyünüz kimi yarımçıq...

Sonradan ailədəki bu uğursuzluğum barədə ağsaqqalların yanına məsləhətə getdim. Onlar dedilər ki, çox cahillik etmişəm. Allahın mənə bəxş etdiyi o var-dövlətdən kimsəyə bir qəpik belə sədəqə verməmişəm. Mən həmin pulları təmizə və halala çıxartmaq üçün yetimləri, imkansızları, əlsiz-ayaqsızları, kimsəsiz uşaqları, qocaları sevindirməliydim. Amma bunların heç birisini etmədim. Bizi Yaradana qarşı nankorlük etmişəm. Buna görə də, sonda Allah-Təala  övlad acısıyla məni imtahan etdi, cəzalandırdı. Çünki haram tikədən əmələ gəlmiş övladlar hökmən qüsurlu olurlar...

Komandirlə Kamil barəsində söhbət etdim. Yəni, istədim oğlumu “komsovat” elətdirim, ancaq komandir bunun mümkün olmadığını bildirdi. Uşaqlar, indi sizdən bir ricam olacaq. Kamildən muğayat olun! Onun əlindən bir xəta çıxmasına izn verməyin! Bir sözlə, Kamil sizə əmanət! Çalışın gəncliyinizdə mənim kimi xətaya yol verməyəsiniz. Bacardıqca haram tikə yeməkdən uzaq olun! Mən anladım ki, haram tikədən əmələ gəlmiş övlad heç bir zaman nə ruhi cəhətdən, nə də ki. fiziki cəhətdən sağlam ola bilməz! Halal-haram unudulan yerdə xeyir-bərəkət olmaz! Xeyir-bərəkətin olmadığı yerdə böyük-kiçiklik, mənəviyyat yox olub gedər. Bir günlük xəlifəlik kimi. Harama tutulmaq da müvəqqəti “xoşbəxtlik”dir...

# *Xəcalət təri*

*(hekayə)*

**S**ovet dövrü idi. Pedaqoji Dillər İnstitutunu bitirəndən sonra təyinatımı aldığım cənub bölgəsindəki rayon kəndlərinin birində həvəslə ingilis dili müəllimi kimi dərs deməyə başlamışdım. Şagirdlərin ingilis dilinə marağı artmışdı. Amma bu məktəbin çatışmayan cəhəti o idi ki, yuxarı sinifdə oxuyan qızlar məktəbə gəlmirdilər. Yəni valideynlər qız uşaqlarının oxumasını istəmirdilər. Aşağı siniflərdə qızlar yaxşı oxuyurdular. Necə ki, yeddinci sinifdən yuxarı qalxdılar, qızlar məktəbin yolunu unudurdular. Onların adları sinif jurnallarında olduğu halda, valideynlərinin əvəzində sovxoza işləməyə gedirdilər. Yalnız məktəbə yoxlama gələndən-gələnə sinif rəhbərləri əl-ayağa düşüb, qızları məktəbə gətirirdilər…

Məktəbə gəlməyən qızlara yoxlama yazı işi yazdırmaq da müşkül işə çevrilirdi. İngilis dilindən rübdə cəmi bir yoxlama yazı işi olurdu. Dərs dediyim şagidlərin sinif rəhbərlərinə qabaqcadan xəbərdarlıq etdim ki, rüb ərzində ingilis dilindən yoxlama yazı işini yazmayan şagirdə rüblük qiymət yazmayacağam. Xəbərdarlıqdan sonra sinif rəhbərləri şagirdləri məktəbə gətirdilər. Mən də bundan istifadə edib həmin şagirdlərə, yəni dərsə gəlməyən qızlara yoxlama yazı işini yazdırmağa başladım.

Həmin vaxt şahidi olduğum bir hadisə uzun illərdir ki, yaddaşımdan silinmir. Onuncu sinifdə oxuyan qıza yoxlama dəftərini verdim ki, yazı işini yazsın. Bu vaxt sinif nümayəndəsi dedi ki, həmin qız yazı yaza bilmir. Məni heyrət bürüdü.

- Bəs bu onuncu sinfə qədər necə gəlib çıxıb?! - deyə təəccüblə sinif nümayəndəsinə baxdım.

Sinif nümayəndəsi dedi ki, onun yoxlama yazı işlərini müəllimlər başqasına yazdırırlar.

- Bu ola bilməz - dedim. - Mən bu cür hərəkət edə bilmərəm. Şagird nəyin bahasıına olursa-olsun, yoxlama yazı işini özü yazmalıdır.

Başqa çarəm qalmamışdı. Mən aşağı sinifdə oxuyan bir qızı sinfə dəvət etdim. Qız onuncu sinifdə oxuyan qızın əlindən tutaraq yoxlama yazı işini yazmağına kömək etməyə başladı. Arabir hiss edilməz dərəcədə onuncu sinifdə oxuyan qıza baxırdım. Onun yanaqlarından tər damcıları süzülürdü. Başını bircə dəfə də olsun, qaldırıb nə sinif yoldaşlarına, nə də mənə baxdı. O, bütün iradəsini ondan beş yaş kiçik olan qıza tabe etmişdi. Kiçik qız əlini hansı istiqamətə aparırdasa, onun da əli özündən asılı olmayaraq həmin istiqamətə gedirdi. Hiss olunurdu ki, qız xəcalət çəkir, yanaqlarından axan tər isə əlbəttə ki, xəcalət təri idi.

Mən dərsi izah edə-edə asta addımlarla onlara yaxınlaşdım. Aşağı əyilib, yavaşca Sevincdən soruşdum:

- İşlər necə gedir? Yaza bilirsinizmi?

- Müəllim, indi başa düşdüm ki, dərsə gəlməməkdə və oxumamaqda böyük səhv etmişəm. Bugünkü hərəkət mənimçün ölümdən də betər oldu. Bütün iradəmi özümdən yaşca kiçik bir qıza etibar etmişəm. Bu gündən sonra heç olmazsa yazıb-oxumağı öyrənəcəyəm, yoxsa bu xəcalət yükünü ömrüm boyu daşıya bilmərəm, - deyə Sevinc astadan dilləndi.

Həmin gündən sonra Sevinc bircə gün də olsun dərsdən qalmadı və tez bir zamanda yazıb-oxumağı da öyrəndi...

O dövrdə saxta statistika rəqəmləri bütün sahələrdə olduğu kimi, təhsil ocaqlarını da ağuşuna almışdı. “Sosializm cəmiyyətində savadsız insan olmamalıdır!” şüarı bütün insanların həyat devizinə çevrilmişdi. Əslində isə...

**23.10.2015**

## *Пахыллыг*

*(щекайя)*

Gülüsüm хала ярини итиряндя, оьланлары - Рауфун 12, Анарын ися 9 йашы варды. Бундан сонра о, эянълийини вя бцтцн юмрцнц яринин она гойуб эетдийи йадиэарларына щяср етмишди. Necə deyərlər, gənc ana saçlarını övladlarının yolunda süpürgə etmişdi. Эеъясини эцндцзцня гатан Gülüsüm хала истямирди ки, ювладлары нядянся корлуг чяксин, атасыз олдугларыны щисс етсинляр.Илляг isə ганадлы гуш кими ютцб кечирди...

Артыг гардашларын əlləri çörəyə çatmış, щяр икиси евляниб, ев-ешик сащиби олмушду. Бюйцк гардаш Рауфун ики оьлу варды. Кичик гардаш Анарын ися həkimlərə "ətək-ətək" pul tökməsinə baxmayaraq ювлады олмурду. Буна эюря дя Анарэилдя щяр эцн yerli-yersiz söz-söhbətlər, дава-далаш baş alıb gedirdi. Анарын йолдашынын дили zəhər tuluğuydu, щамыны аъылайырды. О, щям дя чох пахыл иди. Рауфун йолдашы, Ряна ися чох мещрибан, гайьыкеш, сямими, мярифятли, яхлаглы, гонагпярвяр, истиганлы, хошхасиййят эялин иди. О, həm də ailəsinə bağlı, uşaqlarının qayğısına qalan, onlar üçün canından belə keçməyə hazır olan cəfakeş bir ana idi.

Щяр ики гардаш бир щяйятдя, ата йурдунда йашайырдылар. Gülüsüm хала эялинляриня гайынаналыг дейил, ясл аналыг нявазиши эюстярирди. Индийя кими о, эялинляринин хятриня дяйяъяк бирья кялмя беля пис

сюз ишлятмямишди. Onun gəlinlərinə xitab etdiyi сюзляр ancaq бунлар иди: «ана гурбан, гызым, евимин диряйи, ай оьлумун baş таъы, эюзцмцн ишыьы, евимин йарашыьы вя с.»

Gülüsüm хала кичик эялинини дя баша дцшцрдц. Düşünürdü ки, ювлады олмадыьына эюря беля ясябидир. Онунла эяряк мещрибан доланасан, хятриня дяймяйясян. Анъаг буна бахмайараг, кичик эялин danışanda аьзындан од-алов пцскцрцрдц. Евдякилярин щамысыны аъылайырды, кимсяуə хош üz göstərмирди. Яри дяфялярля ону бу щярякятляриня эюря данламыш, мязяммят етмишди. Амма дейясян, Айнур дцзяляня heç охшамырды. Артыг Анар да Айнурун yersiz mübahisələrindən, dedi-qodusundan, haqsız sözlərindən тянэя эялмишди. Анар сящярдян ахшама кими ишляйирди, йахшы да пул газанырды, dоланышыглары да пис дейилди. Айнур пал-палтар, qır-qızıl щявяскары иди. Евдар гадын олмасына бахмайараг, ялляри, бойун-боьазы щамысы гызыл иди. Эцн ярзиндя ики дяфя палтарыны дяйиширди. Бунунла о, sanki кимяся йанмышлыг верирди. Буна бахмайараг, Айнур еля щей яринин аз мааш алдыьындан, ona yaxşı baxmadığından эилейлянир, Allahına naşükürlük edirdi. Анар ися щялялик Айнурун “чалдыьы щава иля ойнамаq” məcburiyyətində qalmışdı.

Рауф ися алдыьы ямяк щаггыны ушагларына, евя вя анасына хяръляйирди. Чцнки евин бцтцн аьырлыьы онун цстцндя иди. О, истямирди ки, евдя nədənsə inciklik, söz-söhbət yaransın. Еля Ряна да, Gülüsüm хала да belə şeyləri heç sevməзди. Амма Айнур щяр эцн бир бящаня тапыб, щяйятдя сясинин тонуну галдырыг, гоншулара ешитдирмяк истяйирди ки, эуйа ону yola vermirlər, инъидирляр. Щаггы дейясян, Gülüsüm хала бир нечя

дяфя бунун цстцндя Айнуру яркйана, гызы кими мязяммят дя етмишди. Айнур isə Gülüsüm халанын нясищятамиз сюзлярини бир гулаьындан алыб, о бири гулаьындан бурахмышды. Яркюйцн эялин щеч ъцр ипя-сапа йатмаг истямирди. Онун Анардан истядикляри шейляри щеч милйончунун гызлары беля истямирди. Belə olan halda Анарын йеэаня чаряси qalmışdı; Айнуру бошамаг. Анъаг анасы бу фикри оьлундан ешидяндя, юзцня ял гатды:"Оьул, щеч ня данышдыьыны билирсянми?! Бизи ел ичиндя рцсвай етмяк истяйирсян? Беля щярякят бизим нясля йарашмаз. Сябрин олсун, гадынды да данышыб-данышыб, йорулаъаг. Аталар дейиб ки, щирсли башда аьыл олмаз. Исти оъаьына ялинля су тюküb söndürmə, бала. Бир аз сябр et. Айнурун аьлы башына эяляр. Ъаван эялиндир, исти-сойуьа дцшмяйиб щяля. Мян эялинимля бир дя данышарам."

Анар бу дяфя дя анасынын сюзцндян чыхмады, arvadının "kaprizlərinə" dözmək zorunda qaldı. Айнур щяр эцн яри евя эяляндя, гайны арвадынын архасынъа о ki var гейбят edирди. Анар da бундан ясябіляширди. Чцнки о, гардашы арвадынын хятрини чох истяйирди. Ряна бу евя эялин эяляндян бяри бирья дяфя дя олса, онун ня йерсиз данышыьыны, nə də йерсиз щярякятини эюрмüşди. Rəna hamının hörmətini saxlayır, hamıyla mehriban rəftar edirdi. O, ərinin bir sözünü heç zaman iki etməzdi. Она эюря дя Анар ону özünə доьмаъа баъысы санырды. Еля Айнуру да йандыран Анарын Рянайа бу ъцр сямими вя исти мцнасибят бяслямяси иди. Бу гысганълыг дейил, ясл пахыллыг иди. Чцнки Рянанын xətir-щюрмяти щяр ики евдя чох иди. Bu səbəbdən də Айнур фцрсят дцшян кими, Рянаны ийняли сюзляриля санъмаqdan zövq alırdı.

Айнур дяфялярля Рянанын эейиминя ришхянд етмишди. Ряна ися бцтцн бунлары ешитмямязлийя вурмушду. Rəna ağıllı gəlin olduğundan başa düşürdü ki, ərinin qazancı beş nəfər külfətə yetmir. Amma yenə də səsini çıxarmırdı. Bircə dəfə də olsun, Raufa “mənə filan şey al” deməmişdi. Rəna fikirləşirdi ki, onunçün pal-paltar o qədər də önəmli deyil. Onun üçün önəmli olan ailə daxilində səmimiyyət və mehribançılıqdı. Gülüsüm xala da gəlininin bu xasiyyətinə görə Rənaya daha çox ana nəvazişi göstərirdi. O, Aynurun daxilindəki paxıllıq hisslərinin, xudpəsəndliyin, şöhrətpərəstliyin olmasını, onlara qarşı doğru-dürüst olmadığını, ara qarışdırmağını, söz gəzdirməyini çox gözəl bilirdi. Amma Gülüsüm xala bunu bircə dəfə də olsun Aynurun üzünə vurmamışdı, oğluna görə susmuşdu. Ailədə söz-söhbət, narazıçılıq, giley-güzar olmasını istəməmişdi. Aynur isə çalışırdı ki, hər gün heç nədən evdə dava-dalaş salsın. Buna baxmayaraq, Gülüsüm xala Aynura qarşı hələ ki, səbr və dözüm nümayiş etdirirdi. Aynur Anarın qazancını həm Gülüsüm xaladan, həm də qayını Raufdan gizlədirdi. Raufun aldığı maaşı isə ailədə hər kəs bilirdi. Çünki o, maaşı alan kimi gətirib anasına verirdi. Rauf anasını evin böyüyü bilirdi. Amma son zamanlar Raufun işi getmirdi, dolanışıq günü-gündən çətinləşirdi.

Bir gün Rauf evə çox fikirli gəldi. Anası bunu dərhal sezdi və süfrə başında Raufdan bunun səbəbini soruşdu:

- Oğlum, bu gün gözümə nədənsə yaxşı görünmürsən? İşdə bir şeymi olub?
- Ana, daha nəyini gizlədim, iş yerimdə ixtisara düşdüm. İndi gərək özümə başqa bir iş axtarıb, tapım.

O zaman hamı məyus olmuşdu. “İndi biz necə dolanacağıq, İlahi?” deyə ən çox da Rəna narahat olmuşdu. Amma Gülüsüm xala onlara fikir çəkməməyi, sıxılmamağa,

Allahın qüdrətinə, mərhəmətinə sığınmağa məsləhət görmüşdü...

Ailədəki söz-söhbətlər Rənanın ücüncü oğlan övladı dünyaya gələndən sonra daha da artdı. Aynur açıq-aydın övladı olmadığına görə, Allah-təalaya qarşı küfr danışmağa başladı:

- Allah-təala övad qədri bilməyənlərə oğulu oğul dalınca verir, ancaq övlad həsrətində olanlara isə qəm, kədər qismət edir. Allahım, niyə taleyimi puç, bəxtimi qara yazmısan? Mən sənə nə etmişəm ki, mənə övlad vermirsən? İlahi, Sənin ədalətli və mərhəmətli olduğuna inanmıram!

- Qızım, sən nə danışırsan? Niyə küfr edirsən? Niyə səni Yaradana qarşı asi olursan?! Bəs, bilmirsən ki, Tanrı küfr danışan bəndələrini sevməz, onları bağışlamaz?! Aynur, qızım, küfr etmək Allahın əmrindən çıxmaq, ona qarşı olmaq deməkdir. Allah-təala belə insanlara xeyir və yaxşılıq nəsib etməz. Qızım, sən Rəbbinin lütf və mərhəmətinə sığın, onun sənə bəxş etdiyi nemətlərinə şükr et! Ona nankorluq etmə! O, bəndələrini həmişə sınağa çəkər. O, kimsəyə möhtac deyil. Bizlər isə hər zaman Onun kərəminə, nicatına, şəfahətinə, lütfünə və mərhəmətinə möhtacıq. Sən Allahın işinə əl atma! Allah -təala özü bilən məsləhətdir! Dediyin sözlərə görə dərhal tövbə et, qızım! Allah adil, rəhmdil və mərhəmətlidir. O, tövbə edənləri bağışlar, - deyə Gülüsüm xala təlaş içərisində Aynura xəbərdarlıq etdi.

- Gülüsüm xala, yalan danışıram məgər? Allah-təala bəs mənə niyə heç olmasa, bircə övlad vermir? Mən Ona nə etmişəm ki?!

- Qızım, bizi Yaradana həmişə şükür etmək lazımdır. Allaha şükür olsun ki, pis dolanmırsan, sənin ki, heç bir şeydən də ehtiyacın yoxdur, nədənsə korluq çəkmirsən. Nə istəyirsən, Anar onu səninçün əldə edir. Amma bütün bunlara rəğmən mən indiyə kimi, sənin dilindən bircə dəfə də olsun bu

nemətləri, ruzi-bərəkəti bizlərə bəxş edən Rəbbinə şükür etməyini eşitmədim. Gün gələr, Allah sənə də övlad qismət edər. Ancaq bunun üçün sən də Rəbbinə dua edib, onun verdiyi nemətlərinə şükür etməlisən, qəlbindəki şübhələri, pis niyyətləri oradan çıxarıb atmalısan, içindəki şeytani hisslərdən uzaq olmalısan, onların yerinə qəlbindəki boşluqları iman, inam, xeyirxahlıq, mərhəmət hissləriIə doldurmalısan.

- Siz gündə min dəfələrlə Allaha şükür edib, dualar edirsiniz. Nəticəsi nə olur? Məgər işləriniz yağ kimi gedir? Heç bir şeydən korluq çəkmirsiniz? Sizin ki, dolanışığınız o qədər də yaxşı deyil, bilirəm ki, ailə büdcənizdə də "qara gün"ə heç bir qara qəpik də pul yoxdur. Bəs, Allah-təala sizə niyə görə istədiklərinizi vermir? Siz ki, Ondan yerdən göyədək razılıq edirsiniz, hər gün Ona dualar edib, şükür edirsiniz. Belə olan halda, sizin daha heç bir şeydən ehtiyacınız olmamalıdır ki. Deməli, Allah-təala insanları düzgün qiymətləndirmir, - deyə Aynur yenidən Tanrıya asi kəsildi.

- Səsini kəs, ay qız! Əstəğfurullah!!! Azğınlaşdın ha! Bu qızın deyəsən, vələdi dönüb. Ay qız, sən Şeytana uymusan! Sən nə danışdığını bilirsənmi heç?! Bu danışıqlarınla nəinki özünü, elə bizim hamımızı böyük bir bəlaya salacaqsan. İlahi, o, cahillik etdi, Sən onun dediklərini bağışla! Onu əfv et, ya Rəbbim! İlahi, onun bu cahilliyini Fatimeyi - Zəhraya bağışla!

Gülüsüm xala nə qədər yalvardı ki, gəlini tövbə etsin, amma gəlin inadından dönmədi. Həmin gündən sonra Gülüsüm xalanın içindəki Aynura qarşı qalmış azca sevgi və istək də tamam yox olub getdi. İndi Gülüsüm xala Aynura tam başqa bir gözlə baxırdı və qəlbində düşünürdü ki, "bu gəlindən nə desən gözləmək olar." Bundan sonra Gülüsüm xala onunla çox ehtiyatlı davranmağı və müəyyən işlərdə ona güvənməməyi, etibar etməməyi qərara aldı.

Raufgilin maddi sıxıntı keçirməsini Anar da bilirdi. O, bir neçə dəfə qardaşına və anasına maddi kömək etmək istəmişdi, amma arvadı Aynur buna imkan verməmişdi:

- Onlar özlərini yalandan belə göstərirlər. Raufun pulu qurtaran deyil. Nə qədər istəsən qardaşının pulu var, amma bizə göstərmək istəyirlər ki, guya maddi cəhətdən korluq çəkirlər. Bunlar hamısı sənin o, çoxbilmiş, gülməşəkər gəlinbacının hiylələridir. Ailənin maddi sıxıntı söz-söhbətlərini Rəna yaradır, bütün bunların hamısı onun başının altından çıxır, - deyə Aynur Anarı qardaşına qarşı doldurmağa çalışırdı.

- Sən necə bir insansan, Aynur? Görmürsənmi Rauf aldığı maaşı qəpiyinə qədər gətirib anama verir? Biz iki nəfərik, onlar isə altı nəfərdilər. Qardaşımın artıq pulu haradan olacaq? Sən ömründə heç olmasa bircə dəfə də olsun, doğru-dürüst söz söyləyəcəksən, ya yox?! Suyunu, çörəyini götürüb, düşmüsən yazıq Rənanın üstünə. De görüm, Rənadan nə istəyirsən? Niyə onu rahat buraxmırsan? Bəsdir daha! Sənin də onun kimi bir şirin dilin olsun da! Bezdim daha sənin bu iynəli, atmacalı sözlərindən! Bu həyatdə hamını bezdirmisən! - Anar əsəbi halda dilləndi.

- Xeyir ola?! Hər dəfə Rənadan söz düşəndə, niyə onu bu qədər canfəşanlıqla müdafiə edirsən? Bəli, mənim sözlərim sənin xətrinə dəyər də! Çünki mən onun kimi sənə küçüklər doğmuram. Bunu hər dəfə mənim başıma çırpırsan, - deyə Aynur qabaqdangəlmişlik etdi.

- Heç hənanın yeridir. Mən nə danışıram, sən nə danışırsan. Gör bir söhbəti haraya aparıb çıxartdın. Aynur, sən çox paxıl qadınsan. İndi mənə gün kimi aydın oldu ki, qardaşım uşaqlarını gözün götürmür. İnsana övlad qismət etmək Allah-təalanın məsləhətidir. O, istədiyinə verər, istəmədiyinə verməz. Biz, bəndələr Tanrının işinə əl uzatmamalıyıq. Hər şey bizi Yaradanın əlindədir. Yetər ki, qəlbin Tanrıyla olsun,

Onun mərhəmətinə sığınasan. Çünki Allah-təala lütf və kəramət sahibidir. - Anar dedi.

Evdəki sıxıntılara görə, bir axşam Rəna Raufa dedi ki, qoy o da işləsin. Amma Rauf buna razı olmadı:

- Sənin körpə uşağın olduğu halda, işləmək hardan çıxdı? Sən evdə uşaqlarla məşğul olmalısan. İşləmək sənin işin deyil.

- Rauf, evimizin yaxınlığındakı şirniyyat sexində işləmək istəyirəm. Qonşumuz Tənzilə də orada işləyir. Uşaqlara isə evdə Gülüsüm xala baxar. Sən gəl, inad etmə. Azca da olsa, evə yenə bir köməyim dəyər, - deyə Rəna icazə almaq üçün üzünü Gülüsüm xalaya çevirdi.

- Oğul, Rəna düz deyir, qoy işləsin. İş yeri uzaq deyil ki. Evimizin yanındadır da. Uşaqlara mən baxaram. - Gülüsüm xala Raufu razı salmağa çalışdı.

Rauf anasının sözündən heç vaxt çıxmazdı. Onun sözünün qabağına söz deməzdi. Odur ki, Rauf Rənanın işləməsinə daha bir söz demədi...

Бир эцн Gülüsüm xala bazardan gəlincəyə qədər, bir saatlığına yaş yarımlıq körpəni Aynura tapşırmaq məcburiyyətində qaldı.

Bu zaman paxıl gəlinin daxilindəki həsəd, qısqanclıq, nifrət hissi və imansızlığı Aynuru yaranmış fürsətdən istifadə etməyə sövq etdi. Bu zaman пахыл эялин мясум, эцнащсыз кюрпяйя qarşı uzun müddət qəlbində gizlətdiyi insana yaraşmayan, alçaq və çirkin niyyətini həyata keçirmək qərarına gəlir. Aynur ona əmanət olunan Rənanın körpəsinə сиркя ичирдib юлдцрмяк istəyir.O, сиркя şüşəsinin тыхаъыны чыхардараг щеч nядян горxub-чякинмядян, bir çay qaşığı sirkəni кюрпя ушаьын боьазына тюкdü. Кюрпя аьзынын вя боьазынын йандыьыны hiss edən kimi, bərkdən qışqırmağa başladı. Бу заман Gülüsüm xala əlində bazarlıq zənbili ilə щяйятя дахил олdu вя эялиндян

ушаьын нийя qışqırdığını сорушdu. Юзцнц итирян пахыл эялин dedi ки, башы йемяк биширмяйя гарышдыьындан uşaq əl atıb, pəncərənin qabağında qoyulmuş сиркя şüşəsini ня вахт эютцрцб ичдийини эюрмяйиб. Gülüsüm xala ъялд кюрпянин аьзыны сойуг су иля йуdu вя эеъикдирмядян щякимя qaçdı. Хюшбяхтликдян кюрпя сиркяни удмамышdı. Она эюря дя сиркя кюрпянин анъаг аьзыны vя боьазыны йандырмышды. Кюрпянин боьазы чох йандыьындан она bir ай йемяйи бору васитясиля вердиляр.

Gülüsüm xala Aynurun bu işi qəsdən etdiyini başa düşmüşdü, amma bunu evdəkilərə bilindirmədi. Ana bilirdi ki, yaş yarımlıq uşaq sirkə şüşəsinin ağzını heç cür aça bilməzdi. Həm də sirkə mətbəxdə əl çatmayan bir yerdə idi. Bu işin üstü açılsaydı, kim bilir nələr olardı?! Gülüsüm xala Aynuru müdafiə etmək üçün dedi ki, uşaq isti çay içib, ona görə boğazını yandırıb.

Bir axşam Rauf anasına və Rənaya iş dalınca Rusiyaya gedəcəyini bildirdi. O, dedi ki, Rusiyaya tək getməyəcək, buradakı iş yoldaşları ilə birlikdə gedəcək. Bakıda iş tapmaq artıq problemə çevrilmişdi.

Gülüsüm xala Raufun əksinə getmədi. O, oğluna: “Yolun həmişə açıq olsun, oğul. Arzuna, muradına çatasan. Allah - təala bu yolda sənin daim yardımçın olsun!”- deyə uğurlar arzuladı. Amma Gülüsüm xala qəlbində bilirdi ki, Raufsuz burada onlar üçün çox çətin olacaq. Amma oğlunun yanında özünü o yerə qoymadı. Rauf Rənaya dönə-dönə anasını tapşırdı...

Raufun Rusiyaya getməsindən iki ay ötürdü. Rəna qonşuları Tənzilə ilə hər gün şirniyyat sexinə gedirdi. Onlar on iki saat işləyirdilər. Uşaqları isə evdə Gülüsüm xala saxlayırdı. Məlum hadisədən sonra Gülüsüm xala uşaqları bir də Aynura etibar etmədi. Əksinə, o, həmişə uşaqları paxıl

qayınarvadından uzaq tutmağa çalışırdı.Rəna evə axşam saat 9-da gəlirdi.

Qış ayları idi. Hava qarlı olduğundan həmin gecə işçiləri müdir öz maşınında bir-bir evlərinə gətirmişdi. Rəna evin qarşısında maşından düşəndə, təsadüfən Aynur bunu görmüşdü. “Aha, mənimçün bundan gözəl fürsət ola bilməz!” - deyə Aynur Rənaya qarşı çoxdan fikirləşdiyi çirkin niyyətinin həyata keçirməyin vaxtı olduğunu düşündü.

Elə həmin axşam şam yeməyi zamanı eyhamla ərinə dedi:

- Anar, xəbərin varmı? Sənin o, ismətli, qeyrətli qardaşın arvadı gecələr naməlum adamların xarici maşınlarında gəzir.

- Kəs səsini! Bəsdir həyasızlıq etdin! Rəna haqqında bu cür danışma! Yoxsa...

- Yoxsa, nə? Məni o, fahişəyə görə döyəcəksənmi? Gözlərimlə gördüm. Nəyə deyirsən and içə bilərəm. Allah haqqı, bu gecə küçədə xarici maşından düşəndə gördüm, - deyə Aynur necə olursa-olsun əri Anarı inandırmağa çalışdı.- Əlbəttə, gəzəcək. Nə ər var yanında, nə də hardan gəlib, haraya getdiyini soran birisi! Necə deyərlər: “Dərə xəlvət, tülkü bəy!”

- Ağzını yum! - Anar əsəbilərini cilovlaya bilməyib, yumruğunu stola vurdu. Stolun üstündəki stəkandakı çay aşıb dağıldı.- Sənin paxıllığın axırda hamımızı məhv edəcək. Sən xarakterindəki naqisliyi görmək istəmirsən, başqalarının həyatda qazandığı uğurlar səni narahat edir, içini yandırır. Sən öz uğursuzluqlarının səbəbini başqalarında axtarırsan. Bu səbəbdən də, başqalarını sancmaqdan, incitməkdən, onlara böhtan atmaqdan belə çəkinmirsən. Əksinə, bunlardan zövq alırsan. Sən mənəvi cəhətdən şikəst bir insansan. Sənin görən gözlərin də kor olub. Çalış ki, içindəki o, iblisi özündən uzaqlaşdırasan, yoxsa, cəhənnəm atəşində yananlardan olarsan. Kiməsə

nahaqdan böhtan, şər atmağın cəzası Allah tərəfindən daha ağır olacaq. Bax, budur sənə deyirəm, əgər bir də Rənanın adına nəsə desən, səni bu evdən iti qovan kimi qovaram. Eşitdinmi?!

- Bah, balam, Rəna nə vaxtdan bu evin gülmə-şəkər gəlini oldu? Burada hamı onu müdafiə edir. Burada deyiblər: “Adamın gərək bəxti olsun.”

Aynur ərini yalanlarına inandırmadığını görüb, üz tutdu Gülüsüm xalagilə. Qayınanası Aynurun Rəna haqqındakı dediklərinə o qədər də əhəmiyyət vermədi, ona inanmadı. Çünki Gülüsüm xala Rənaya özünə güvəndiyi kimi güvənirdi, onun əxlaqına, tərbiyəsinə bələd idi. Çünki indiyə qədər gəlininin heç bir eyibini, qüsurunu, ədəbsizliyini, görməmişdi. Əksinə, Rəna həm ailə daxilində, həm qonum-qonşular arasında, həm qohum-əqraba arasında, həm də iş yoldaşları arasında tez bir zamanda böyük hörmət qazanmışdı...

Rauf evdəkilər korluq çəkməsin deyə, hər ay evə pul göndərirdi. O, telefonla Rəna ilə danışanda bildirmişdi ki, daha çalışmasın, evdə uşaqlara və anasına baxsın. Rəna da ərinin sözünə əməl edərək, ərizə yazıb işdən çıxdı. Düzü, müdir onu buraxmaq istəmirdi. Çünki o, çətin ki, bir də Rəna kimi işgüzar, işində dəqiq, məsuliyyətli, iş yoldaşlarına qarşı mehriban, səmimi, doğru-dürüst olan, ədəb-ərkanlı, danışığını və yerini bilən bir işçi tapa bilsin.

Rəna iş yoldaşlarından ayrılarkən hamı onu mehribanlıqla yola saldılar. O, gedərkən iş yoldaşları ona: “Rəna xanım, bizləri unutmayın! İstədiyin vaxt bizə gələ bilərsiniz, gözümüzün üstündə yeriniz var. Amma etiraf edək ki, sizdən ötrü çox darıxacağıq. İlk dəfədir ki, sizin kimi işçini itiririk. Burada sizin yeriniz həmişə görünəcək. Allah-təala sizin kimi insanların ürəklərinə görə versin! Tanrı sizi heç zaman darda qoymasın!” deyə Rənaya uğurlar dilədilər. Hətta, bəziləri də göz yaşlarına hakim ola bilmədilər...

Artıq bir neçə gün idi ki, Rəna uşaqlarla və ev işləri ilə məşğul olurdu. Bu Aynurun nəzərindən qaçmadı. O, Rənanın daha işə getmədiyini görüb soruşdu:

- Rəna, xeyir ola, bir neçə gündür ki, işə getmirsən?
- Daha işə getməyəcəyəm, öz xahişimlə işdən çıxdım. Rauf belə məsləhət gördü. Telefonda uşaqlarla, ev işləriylə məşğul olmağımı tapşırdı. Mən də ərizə yazıb işdən çıxdım. Şükür olsun Allaha ki, Rauf özünə daha yaxşı iş tapıb. Qazancı da pis deyil. - Rəna qaynı arvadına "hesabat" verdi.
- A...a... Deyirəm axı. Daha sizi tutmaq olmaz ki!. Bəxtəvər başına, bundan sonra daha günortaya qədər yatarsan. İş yox, güc yox. İstədiyin kimi, sağa-sola gəzərsən özünçün, - deyə Aynur yenə də Rənanı sancmaqdan çəkinmədi.
- Niyə günortaya qədər yatmalıyam, Aynur? Bəs, evin işləri, uşaqlar? İndi Gülüsüm xala istirahət etməlidir. Bunun ona haqqı daha çoxdur. Çünki mən işləyəndə, evin bütün işləri, uşaqlara baxmaq hamısı onun üstündə idi. Allah onun ölənlərini qəni-qəni rəhmət eləsin. O, olmasaydı, mən işləyə bilməzdim. Haqqı deyəsən, Gülüsüm xalanın üzərimdə əməyi çoxdur, nə qədər çalışsam da onu ödəyə bilmərəm.
- Hə, düz deyirsən. Elə bir-birinizi tərifləyib durursunuz. Nə yaman qayın-qədim olmusunuz, balam. Allah mənə də bir övlad versəydi, indi mənim də qayınanamın yanında xətir-hörmətim olardı.
- Aynur, sən allah, başlama görək. İnşallah sənin də övladın olar. Ancaq bunun üçün gərəkdir ki, hər zaman Allaha dua edib, onun rəhminə, kəramətinə, bizlərə bəxş etdiyi naz-nemətlərə görə şükür edəsən. - Rəna Aynuru yenə də haqqın yoluna dəvət etmək istədi.
- Hansı günümə şükür edəcəyəm, ağəz?! Sən də tutmusan, şükür elə. Nəyə şükür etməliyəm ki, həm də nə üçün şükür etməliyəm? - Aynur Rənanın sözlərindən əsəbiləşdi.

- Aynur, sən düz danışmırsan. Necə yəni, nəyə və nə üçün şükür etməlisən? Sən ona şükür etməlisən ki, evin-eşiyin var. Şükür etməlisən ki, Anar kimi ailəcanlı, işgüzar, mehriban, alicənab ərin var. Şükür etməlisən ki, Anarın işi var və ailəsini halal zəhməti ilə dolandırır. Kimsəyə əl açmır, kimsənin qarşısında əyilmir. Sən ona şükür etməlisən ki, istədiyin paltarı alıb geyinirsən, könlün istədiyi yeməkləri yeyirsən, istədiyin yerə getmək istəyəndə, Anar sənə heç zaman etiraz etmir, həmişə çalışır ki, sənin istəklərini yerinə yetirsin, sənin qəlbini qırmasın. Allaha şükür et ki, həm ərinin, həm də sənin canın sağlamdır. Daha bundan artıq insana nə lazımdır? Sən ilk növbədə sağlamlığına görə, ərinin işi olduğuna görə, ev-eşik sahibi olduğuna görə Allah-təalaya şükür etməlisən. Əgər sən Yaradana sidqi ürəkdən dua etsən, namaz qılıb, oruc tutsan, qəlbini ona bağlasan, onun qüdrətinə və mərhəmətinə sığınsan, o zaman Allah istədiyini sənə hökmən verər. Çünki O, hər şeyə qadirdir. Yetər ki, qəlbindəki şeytani hisslərdən uzaq olasan! Bizlər həm də ona şükür etməliyik ki, bizi Yaradan bizə bu gözəl dünyanı və gözəllikləri seyr etmək üçün bir cüt sağlam göz, Allah kəlamlarını, ürəklərə sərinlik verən, onu rövnəqləndirən xoş və xeyirli sözlər eşitmək üçün iki qulaq, Allahın varlığını təsdiq edən, Məhəmməd Peyğəmbəri (s) tanıyan, Qurani-Kərimi oxuya bilən, doğru-dürüst danışa bilən, insan könüllərini fəth edə bilən sözlər söyləyən, həmişə haqqı söyləyən, insanları bir-birinə dost, yoldaş, həmsirdaş edən, qırılmış, incik düşmüş qəlbləri barışdıran şirin dil, dünyanı dərk etmək, dünya elmlərinə sahib olmaq, doğru yol seçmək, gələcək həyatını müəyyən etmək, onu necə qurmağı düşünən, çətinliklərdən çıxış yolları aramaq üçün, yaxşını pisdən ayırd etmək üçün bizə düşünən sağlam təfəkkür, haqq yoluna, xeyir işlərə getmək, yüyürmək üçün bir cüt sağlam ayaq, xeyir işlər görmək, hər cür bəladan səni hifz

edən iki əl, haqqı-nahaqdan ayıran, hər bir şeyi ayırd etməyi bacara bilən, axirət üçün daim xeyir əməllər görməyə səsləyən, şeytanı yaxına buraxmayan, daimi onu özündən uzaqlaşdırmağa çalışan, mərhəmətli, saf, təmiz və imanlı bir qəlb vermişdir. Məgər bütün bu dediklərim şükür etmək üçün səncə, yetərli deyilmi?! Ancaq indi elə insanlar var ki, nə evi-eşiyi var, nə gündəlik işi var, nə də ki, yeməyə bir tikə çörəyi. Yaman günləri xatırlayıb, xoş günlərə şükür etmək lazımdır, Aynur.

- Ağəz, bəsdir görək, sən allah. Sözlə qarın doymur, ay Rəna xanım. Sən özünü ağıllı hesab edirsən? Ancaq mənim fikrimcə, sən həyatda heç bir şey bilmirsən, dünyagörüşün də məhduddur. Sən ətrafında baş verənləri doğru-dürüst görə bilmirsən. Bəs harda qaldı sənin o bir cüt baxar gözlərin? İnsanlar fərqlidir, hamı eyni cür düşünə bilməz. Məsələn, səninlə mən ayrı-ayrı adamlarıq, biz bir-birimizlə fərqli dünyanın insanlarıyıq. Mən heç bir zaman istəməzdim ki, sənin kimi düşünüm. - Aynur əda ilə dilləndi.

- Əlbəttə, mən bunu inkar etmirəm. Biz səninlə ayrı-ayrı düşüncə tərzinə malik insanlarıq - Rəna dedi.

- Yaxşı, gedim, şam yeməyi hazırlayım. "K stati", Rəna keçən həftə, axşam səni maşınla qapımızın ağzında düşürən adam kim idi?

- Müdirimiz Rizvan idi. Bizim küçənin sonunda onun tələbə dostu yaşayır. Onlara gəlirdi, məni də maşını ilə bura kimi gətirdi. Necə bəyəm ki?

- Heç elə belə soruşdum. Dedim görəsən, Rəna xanım yad bir kişinin maşınında gecə vaxtı nə gəzir.

- Aynur, nə danışdığına fikir ver! Elə bir bu qalmışdı adıma çıxarasan. Ayıb deyilmi, o cür düşünürsən? Biz qayınarvadıyıq axı. Sən o sualı mənə verməklə qəsdən qəlbimi bulandırmaq istədin. Daha sənə deyiləsi heç bir sözüm yoxdur, Aynur. Nəyə görə bu qədər qəlbiqarasan?

Axı, bu cür yanlış düşüncələr böyük günah hesab edilir. Nəyə görə özünü günaha batırırsan?!
- Yaxşı, yaxşı bir sözdür də soruşdum. Sizdən son zamanlar söz də soruşmaq olmur daha! - Aynur fors edib evinə getdi.

Bir gün Anar işdən çıxıb evə gələndə, yolda onu maşın vurur. Onu xəstəxanaya aparırlar. Bu bəd xəbəri eşidən Gülüsüm xala xəstəxanaya yüyürdü. Onun dalınca Aynur, sonra da Rəna uşaqları qonşuya tapşırıb, Anarın hayına tələsdilər.

Həkimlərin dediyinə görə, Anarın hər iki ayağı möhkəm əzilib, ayaq sümükləri çilə-çilə olub, damarları qırılıb. Yeganə çarə Anarın ayaqlarını dizdən kəsmək idi. Gülüsüm xala bunu eşidəndə özündən getdi. Həkimlər tez onu ayıltdılar. Gülüsüm xala özünə gələr-gəlməz, üzünü Aynura tutub dedi:
- Oğlumun evini sən yıxdın! Onu sən məhv etdin! Sənin dığdığın, naşükürlüyün oğlumun başına düşdü. İndi bundan sonra sənin gününü görəcəyəm. Həyatda acı çəkməyin nə demək olduğunu bundan sonra görəcəksən. Bundan belə Anar sənə möhtacdır. İndiyə qədər o səni saxlayırdı, bu gündən sonra canın çıxacaq, sən oğlumu saxlayacaqsan. O zaman həyatda əzab-əziyyətin nə demək olduğunu anlayacaqsan. Sənin pis niyyətin axır ki, başımıza düşdü. Allah-təala bizi bundan sonrakı bəlalarından saxlasın, inşallah!

Aynur ilk dəfəydi ki, Gülüsüm xalanı bu sifətdə görürdü. Gəlin ona bircə kəlmə də söz demədi. Nə deyəcəkdi ki. Qayınanası haqlı idi. Aynur doğrudan da, bundan sonrakı günləri barədə düşünmək məcburiyyətində qaldı. İndi o, yataq xəstəsi olacaq ərinə necə baxacağı barədə fikirləşirdi.

Müalicənin heç bir nəticə vermədiyini görən həkimlər ilkin fikirlərində qalmalı oldular və Anarın hər iki ayağını dizdən aşağı kəsməli oldular. Xəstəxana məsrəflərini Anarı maşınla vuran adam ödədi. Gülüsüm xala üçün oğlunu bu vəziyyətdə

görmək çox ağır idi. Buna baxmayaraq o, sürücüdən şikayətçi olmadı. Bunu Allahın qəzası adlandırdı və bütün adamların yanında bu bəlanın onların başına haradan gəldiyini bildirdi.

Rauf qardaşının başına gələn qəza hadisəsini eşidən kimi, Bakıya uçdu. Qardaşını yataqda pərişan halda görəndə, Rauf dözə bilməyib, Anarı qucaqladı və hönkür vurub ağladı:

- Can qardaş, kaş gözüm kor olaydı, səni bu halda görməyəydim!
- Rauf, sən nə danışırsan? Qardaşın sənin gözlərinə qurban olsun! Niyə özünə qarğış edirsən?! Bu Allahın qəzasıdır. Nə etmək olar, bu da mənim qismətim, mənim alın yazım imiş. Allahdan gələn qəzanın qarşısını kimsə ala bilməz. Allah bilən məsləhətdir. Buna da şükür etmək lazımdır. Çünki həyatdayam, salamat qurtardım. Amma o qəzada ölə də bilərdim. Buna görə də mən Allahıma şükür edirəm.
- Düz deyirsən, qardaş. Ancaq bu sənin başına gəlməməli idi. - Rauf göz yaşlarını əllərinin arxası ilə sildi.
- Başımıza gələnlərə bir baxın da. İndi bundan sonra biz necə dolanacağıq? - deyə Aynurun dili yenə də dinc durmadı.
- Bəsdir, iyli-iyli danışdın! Nə demək istəyirsən? Sənin dərdin, azarın nədir? Daha Anarın da başını yedin. İndi nə istəyirsən? Qardaşımın bu günə düşməsinin əsas səbəbkarı sənsən, Aynur! Sənin naşükürlüyün, tamahkarlığın, paxıllığın, yersiz dedi-qoduların, qeybətlərin, haqsız danışıqlarının axır nəticəsi bax, budur! Nə ər sözünə qulaq asdın, nə də ağbirçək məsləhəti dinlədin. Haqqın yoluna qayıtmaq əvəzinə, yenə də bəd əməllərindən çəkinmədin. Allah-təala da qardaşımı cəzalandırmaqla sənə haqq yoluna qayıtmağa işarə edir. Sən isə hələ də qanmazlıq edirsən. Bunu bil ki, Tanrı gec-tez səni də cəzalandıracaq! - Rauf

özünü heç cür saxlaya bilməyib Aynurun üstünə səsini qaldırdı.

- Rauf, sən allah ona fikir vermə. O, daha düzələn deyil. Neçə illərdir düzəlməyən insan, bundan sonra necə düzələ bilər? Atalar yaxşı deyib: “Qozbeli qəbir düzəldər.” Dili onun başına bəla olacaq. - Anar qardaşını sakitləşdirməyə çalışdı.

Rauf bir neçə gün qardaşına görə qalmalı oldu, onun lazım olan ehtiyaclarını ödədi. Dördüncü gün Anar Raufu yanına çağırtdırıb dedi:

- Qardaş, daha buralarda qaldığın bəsdir, işindən qalma. Bizdən ötrü narahat olma. Biz başımızın çarəsinə baxarıq. Amma sən günü sabah hökmən iş yerinə qayıtmalısan!
- Qardaş, getsəm də, sizdən nigaran qalacağam.
- Niyə nigaran qalırsan ki? Şükür olsun Rəbbimizə ki, dolanışığımız pis deyil, yaşamaq üçün də hələlik pulumuz var. Bizə daha nə lazımdır ki? Sən işini əlindən buraxma. Sabaha hazırlaş, qayıt Moskvaya. - Anar qardaşına təkid etdi.
- Yaxşı, sən deyən olsun, qardaş. Amma buradakılar əvvəlcə Allaha, sonra da sənə əmanət, - deyə Rauf getmək qərarını vermiş oldu.

Qardaşlar arsındakı danışığı Aynur da eşidirdi. O, kimsənin eşitmədiyi bir tonda ironiya və rişxəndlə dedi: “Gör bir ailəsini, evini-eşiyini kimə tapşırır? Şikəst birisinə. Anar heç özünə baxa bilmir, səninkilərə necə baxacaq, onlara necə həyan duracaq?! Hələ Anarın dediyi sözə bir bax: “Dolanışıq üçün pulumuz var.” Ay, sən öləsən. Görərsən o, pulları! O, pulları sizə yedirtməyəcəyəm! Daha burada qalıb, şikəstin, bundan sonra heç nəyə yaramayan bir adama baxıcılıq edən deyiləm. Tezliklə başımın çarəsinə baxmalıyam.”

Rauf Moskvaya gedəndən iki gün sonra, Aynur ərinə dedi ki, atasıgilə getmək istəyir, xeyli müddətdir onları

görmür. Anar da Aynura bir günlük icazə verdi. O, haradan biləydi ki, bu gediş Aynurun son gedişi olacaq.

Aynur gedərkən Anarın “qara gün” üçün yığdığı ehtiyat pulları da ərindən xəbərsiz götürüb özüylə apardı. İki gün keçdi Aynur geri qayıtmadı, üç gün keçdi Aynurdan xəbər çıxmadı. Arvadının geri qayıtmadığını görən Anar narahat olmağa başladı. Aynur gedəndən sonra Anara Rəna baxırdı. Hətta, Anarı o öz evlərinə gətirmişdi. Gəlininin geri dönməməsinə görə, Gülüsüm xala da nigaran oldu və Aynurun valideynlərinin yanına getməyi qərara aldı.

Aynur isə atasıgilə gedəndən sonra,  özünü xəstəliyə vurdu və valideynlərini də inandırmağa çalışdı ki, o, çoxdan idi ki, xəstə imiş. Amma əri evində onun xəstə olduğuna kimsə inanmırmış. Sanki o, ər evində atılmış, artıq adam imiş. Bu sözlərə inanan valideynlər: “Biz qızımızı küçədən tapmamışıq, o, sahibsiz deyil. Elə isə səni o, evə bir də buraxan deyilik” deyə həm Anarın, həm də Gülüsüm xalanın dalısıyca o ki var danışdılar.

Gülüsüm xala qudalarına gələndə, onu çox soyuq qarşıladılar. Amma Gülüsüm xala özünü bilməməzliyə vurub, onlara qarşı xoş münasibət sərgilədi. Və gəlini Aynuru yataqda görəndə, xeyli təəccübləndi:

- Qızım, sənə nə oldu belə?
- Hə, qızım?! İndi Aynur qızınız oldu? Bəs, ana da qızına bu cür baxar?! Necə nə olub? Xəstələnib! Balam sizin evinizdən gələndən bəri xəstə yatır. Elə xəstə olduğuna görə gəlibdir də! Bir soruşmamısınız ki, bu qızın dərdi nədir, harası ağrıyır, - deyə Aynurun anası Kifayət arvad nəfəs almadan dil-dil ötməyə başladı.
- Necə, yəni Aynur xəstədir! Aynur sap-sağlam idi. İndi bu xəstəlik hardan çıxdı belə?! - Gülüsüm xala Kifayətin dediklərinə inanmadı. - Aynur ərindən sizə baş çəkmək üçün birgünlük icazə almışdı. Gəlmədiyini görüb, hamımız ondan

ötrü nigaran qaldıq. Ona görə də düşündüm ki, sizə bir baş çəkim. Amma gördüyümə peşman oldum.
- Gülüsüm xanım, qayınana olanda nə olar, gəlindən heç soruşmazlar ki, a balam, haran ağrıyır, dərdin nədir. Hə də, səni ancaq o gülməşəkər, qayın-qədim, sevimli gəlinin Rəna xanım maraqlandırır da. O, olan yerdə daha Aynur hardan yadınıza düşəcək?
- Kifayət, bəsdir sən allah iynəli-iynəli danışdın. Dedim ki, Aynurun heç bir şeyi yox idi, sap-sağlam idi. Nə olubsa, bura gələndən sonra olub. Bir də ki, adam xəstələnər də, bunun səbəbini kimsədə axtarmağa nə gərək var? - Gülüsüm xala bu dəfə səsinin tonunu qaldırdı.
- Gülüsüm xanım, insana mehribanlıq, qayğı, diqqət, nəvaziş, sevgi gərəkdir. Qızım bunların heç birisini sizin evdə görməyib.
- Bunlar hamısı ağ yalandır! Bir olan Allah şahiddir ki, mən gəlinlərimi heç zaman bir-birindən fərqləndirməmişəm. Mən onlara qayınana deyil, ana olmuşam. Əgər qızınız bunu inkar edirsə, bunun ancaq bir adı var: Nankorluq! Mən bir ana olaraq qızınızın ailə daxilində yerli-yersiz yaratdığı söz-söhbətlərin, dedi-qoduların, Rənaya qarşı etdiyi haqsız hərəkətlərin, paxıllığın, onun barəsində yaydığı iftiraların, ərinə qarşı səmimi olmadığının, ona dəfələrlə yalan söylədiyinin şahidi olmuşam. Amma bütün bunları görməməzliyə vurdum. Aynura dəfələrlə bir ana kimi, öyüd-nəsihətlər vermişəm. Mən ailədə həmişə sülh yaratmağa çalışmışam. Məncə, qızınızda azca da olsa, insaf, mürvət, ya da ki, vicdan varsa, bunları inkar edə bilməz. Hətta, iş o yerə çatdı ki, qızınız nəvəmi, Rənanın kiçik oğlunu zəhərləyib öldürmək istədi. Mən bunu bildim, amma ailədə kimsəyə zərər gəlməsin, qonum-qonşu bunları eşidib, duymasın deyə susdum. Mən bu sirri hər kəsdən gizlətdim, hətta doğma oğlumdan belə. Məni buna deməyə indi siz məcbur etdiniz.

- Söylədikləriniz ağ yalandır! Siz qızıma bohtan atırsınız! Mənim qızım elə iş tutmaz! - Kifayət arvad səsini Gülüsüm xalanın üstünə qaldırdı.

- Ana, görürsən bunları, indi məni qatil olmaqda suçlayırlar. Mən sənə deyirdim. Bunlar mənim başıma açmadığı oyunlar qalmadı. O evdə yaşadığım hər gün mənə cəhənnəm əzabı olub. Övladım olmur deyə, mənə gün verib, işıq vermirdilər. Bax, budur hamınızın yanında deyirəm, mən bir də o evə qayıtmayacağam! Bundan sonrakı ömrümü orada çürüdə bilmərəm. Mən şikəstə baxıcılıq, qulluqçuluq etməyəcəyəm! Sizinlə birdəfəlik qurtardım. Məhkəməyə ərizə verib, Anardan boşanacağam! Sizinki ilə bizimki qurtardı! - Aynur çəkinmədən, utanıb-qızarmadan Gülüsüm xalanın üzünə söylədi.

- Qızım, sən nə danışırsan? Nə boşanmaq?! Ağlını başına topla! Belə sözü bir də dilinə gətirmə! - Gülüsüm xalanı təəccüb bürüdü.

- Mənim qərarım qətidir. Boşanacağam, vəssalam! Gedin, oğlunuza elə beləcə də söyləyin! Sizin oğlunuzla bir də məhkəmədə qarşılaşacağıq! - Aynur son sözünü dedi.

- Bundan sonra mənim sənə daha söyləyəcək bir sözüm qalmadı. Sənin necə qırmızısifət, həyasızın birisi olduğunu indi daha aydın gördüm. Allah bizi sənin bundan sonrakı şər-xətalarından qorusun! - Gülüsüm xala daha heç bir söz demədən, oradan birbaş evə gəldi.

Və Aynurun dediklərini oğluna söylədi. Anasının bu xəbərindən Anar çox pərişan oldu. Xeyli fikrə getdi. Susdu. İçində indiyə qədər tanımadığı, on ildən artıq bir yastığa baş qoyduğu Aynura qarşı güclü bir nifrət vulkanı qaynamağa başladı. Amma bu vulkanın nə vaxt bayıra püskürəcəyi kimsəyə bəlli deyildi. İki gün Anar çörək yemədi. Rəna uşaqlarını da öyrətdi ki, gedib əmilərindən çörək yeməsini xahiş etsinlər. Yenə də olmadı. Anar kimsəni dinləmək belə

istəmirdi. Anası da dəfələrlə təkid etdi. Amma bütün səylər nəticəsiz qaldı.

Üçüncü gün Rəna daha dözə bilməyib qaynına dedi:

- Anar, əgər sən çörək yeməsən, mən də bu evdə heç kimə yemək verməyəcəyəm. Uşaqları da ac saxlayacağam. İndi özün bil. Bəs qardaşın gedəndə, bizi sənə əmanət etmişdi. Əmanətə beləmi sahib çıxırlar? Anar, son dəfə sənə yalvarıram. Sən mənim canım, yeməyini ye! Haqsız yerə özünü həlak etmə! Sənin kimi adamın qədrini bilməyənin, sən niyə bilməlisən ki?!

- Gəlinbacı, niyə canına and verdin mənə. Bilirsən ki, indi sənin canının sağlığı bu evdə hamımız üçün çox dəyərlidir. Mən o cana xətər gəlməsini əsla istəmərəm. Sənin xətrini nə qədər istədiyimi bir olan Allah bilir. İnan ki, bu anddan keçə bilmərəm. İndi nəyin varsa, gətir yeyim, - deyə Anar gülərək qardaşının kiçik oğlunu çağırıb, qucağında oturtdu.

Bir aydan sonra məhkəmədən Anara boşanma haqqında bildiriş gəldi. O, əvvəlcə məhkəməyə getməməyi qərara almışdı, ancaq heç olmasa, son dəfə Aynura deyəcək sözləri xatırlayıb, əvvəlki fikrindən daşındı.

Məhkəmə boyunca Anar dinib, danışmadı. Amma sonda hakim üzünü Anara tutub soruşdu:

- Anar Fərəc oğlu Həsənov, son olaraq siz də nəsə demək istəyirsinizmi?

- Bəli, möhtərəm hakim. Son olaraq mənim də Aynura deyəcək son sözlərim var. Aynur, çox təəssüf edirəm ki, bu on ildə mən sənin kimi bir əfi ilanı tanımamışam. Sən bundan sonra həyatda heç zaman xoşbəxt olmayacaqsan! Çünki sən məni ən ağır günümdə yalqız buraxıb gedirsən. Məni belə bir gündə buraxdığın üçün Allah sənə lənət eləsin! Sən onu da bilməzsən ki, lənət dünyada ən ağır sözdür. Amma sən həqiqətən də bu sözə layiqsən. Sən xoş günlərin adamı imişsən. Səni o bizi Yaradana tapşırıram! Get, Allah cəzanı

versin! İnşallah! Yaxınımda olsaydın, üzünə də tüpürərdim.- Anar əsəbilərini güclə cilovlaya bildi.

Boşanma məhkəməsindən iki ay ötmüşdü. Bir axşam Anargil xəbərlərə baxırdılar. Xəbərçi Nabran yolunda iki minik maşınının toquşması nəticəsində ağır yol qəza hadisəsi baş verdiyini söylədi. Qəza nəticəsində iki nəfərin öldüyünü, iki nəfərin də ağır yaralandığını bildirdi. O, ölənlərin haradan olduqlarını və adlarını dedikdə, evdəkilərinin bir andaca nitqi tutuldu. Ölənlərdən biri Aynur Rəşid qızı Muradova idi. O birinin də adı və familiyası Anara tanış gəlirdi. Hə, bu o idi, Aynurun həkimi. Aynurun uşağı olması üçün onu müalicə edən həkim.

Aynur Anardan boşandıqdan sonra, onu müalicə edən həkimi ilə münasibət yaradaraq, onunla mütəmadi görüşürlərmiş. Onlar bir həftəliyə Nabrana istirahətə gedirmişlər.

- Ey, hər şeyə qadir olan, Rəbbim! Sən həqiqətən də böyük qüdrət və kəramət sahibisən. Sən kimsənin haqqını kimsədə qoymursan. Min şükürlər olsun Sənin rəhminə!Ey məzlumların himayədarı, Rəbbim. Biçarə bəndənin səsini eşitdiyin üçün Sənə şükürlər olsun! Sən həqiqətən də zalımların, yolunu azmışların, pis niyyətli insanların, fitnə-fəsad törədənlərin, küfr və böyük günah sahibi olanların elə bu dünyada da layiqli cəzalarını verirsən. Amma bu bəzi bədxah insanlara ibrət dərsi olmur. Sən bütün yolunu azmışları haqqın yoluna hidayət et, ya Rəbbim! - deyə xeyli müddət Anarın qəlbini yandıran atəşin yerində, bir sərinlik, yüngüllük, rahatlıq və bir məmnunluq hissi yarandı.

## *Snayperçi qız*

*(hekayə)*

***O*** qız çox qəribəydi. Batalyona gələndən bəri onun kiminləsə kəlmə kəsdiyini görən olmamışdı. O, xaraktercə ciddi, iti baxışlı, qəmgin, qısa saçlı, orta boylu, sarışın, qəhvəyi gözlü, bu qızın qadına xas olmayan kobud əlləri vardı. Səhər erkəndən yuxudan qalxaraq, harasa gedir və bir də gecə yarısı keçəndən sonra kazarmaya qayıdırdı. Bəzən də günlərlə gözə dəymirdi. O, yalnız batalyon komandiri Şahin Bağırovla qısaca söhbət edirdi. Yəni, batalyona yenicə təşrif buyurmuş bu gənc xanım bütün döyüşçülər üçün hələlik müəmmalı və sirli şəxs olaraq qalırdı. Komandir tapşırmışdı ki, batalyonun bu bircə gülündən hamı bacardıqca uzaq durmalı, kimsə onun xətrinə

dəyəsi bir söz belə dilinə gətirməməlidir. Komandirin özü də bu qız haqqında o qədər məlumatlı deyildi. Şahin təkcə onun snayperçi olduğunu və tüfəngini kazarmada deyil, başqa bir yerdə gizlətdiyini bilirdi. Batalyon komandiri, hələlik, bu sirri uşaqlardan gizlədirdi. O, qız üçün kazarmada ayrıca otaq ayırmışdı. Batalyonun uşaqları qızın ancaq adını öyrənmişdilər, onu da komandir söyləmişdi onlara. Adı Rəhilə idi.

Bir gün ratsiyada batalyon komandirini bir erməni dığası təhqir etdi. Məlum oldu ki, bu erməni zabiti Samvel Qriqoryan adlı birisidir.. Şahin komandir bundan bərk qəzəbləndi. O da ratsiyayla dişinin dibindən çıxanı erməni dığasına dedi. Komandir onu yaxşı tanıyırdı. O, əclaf mülki soydaşlarımıza işgəncə verməkdən xüsusi həzz alan manyakın təki idi. Həmin axşam Rəhilə nədənsə kazarmaya gəlmədi. Uşaqlar ondan ötrü çox narahat oldular.

Ertəsi gün o, günortaya yaxın batalyona qayıtdı. Gözlərindən yuxu tökülürdü, görünür, bütün gecəni yatmamışdı. Rəhilə kimsəyə bir söz demədən, kazarmada onunçün ayrılmış otağa getdi. Bir azdan batalyon komandiri də gəldi. Uşaqlar Rəhilənin qayıtdığını ona söylədilər. Bu zaman ratsiyada işləyən Ələkbər dedi ki, “erməni komandiri Samvel Qriqoryan dünən axşam başından aldığı güllə yarası ilə öldürülüb.” Hamı təəccüb içində idi. Nazim adlı döyüşçü bu xəbəri eşidən kimi ucadan qışqırdı:

- Ax bu, Samveli vuranın əlinə qurban olum! Halal olsun ona!Bu erməni dığasının gəbərməsi çox yaxşı oldu. İndi ermənilər quduz iti dönəcəklər...

- Bu gündən etibarən ermənilər hələ çox zabitlərinin gəbərdiyinin şahidi olacaqlar! - deyə batalyon komandiri fəxrlə dilləndi.

- Komandir, bunun kimin işi olduğunu bilirsinizmi? - Nazim fərəh dolu xüsusi bir maraqla Şahindən soruşdu.

- Bilməsəm də, həmin adama halal olsun bu Vətənin çörəyi! Bu, bizim şəhidlərin intiqamı, ermənilərin isə böyük itkisidir.Uşaqlara deyin ki, çox diqqətli və ayıq-sayıq olsunlar.
- Bu sözləri deyərkən komandirin çöhrəsində təbəssüm işartıları aydın sezilirdi.

İki gündən sonra batalyonun uşaqları ratsiyada daha bir erməni zabitinin və əsgərinin snayper atəşinə tuş gəldiyi xəbərini eşitdilər. Bu dığaları Rəhilə gəbərtmişdi. Batalyon komandiri bunu hələlik kimsəyə bildirmək istəmirdi...

***

Rəhilə ilə Azad bir məhəllədə, bir həyətdə yaşayırdılar. Rəhilə konservatoriyada, Azad isə Neft Akademiyasında oxuyurdular. Onlar bir məhəllədə yaşasalar da, bir-birləriylə yaxından tanış deyildilər. Bir gün dayanacaqda instituta getmək üçün Azad avtobus gözləyirdi. Bu vaxt Rəhilə də əlində futliyarlı skripkayla gəlib ondan bir az aralı dayandı. Ətrafda adam çoxdu. Azad gözaltı Rəhiləyə baxırdı, qız isə bunu sezmirdi. Çünki o, başqa səmtə baxırdı. Bayaqdan dayanacaqda üç cavan oğlan ağızlarına nə gəldi, gic-gic üyüdüb tökürdülər, ətrafdakılara baxıb şit-şit hırıldayırdılar. Sanki dayancaqda bunlardan başqa kimsə yoxuydu. Onlar Rəhilənin əlindəki skripkanı görüb onu narahat etməyə başladılar. Oğlanlar: “Görəsən, bu xanım Bethovendən, Şopendən çalmağı bacarır?.. Əgər bu ağırlıqda aləti özünə yük edibsə, deməli, yaxşı çalana bənzəyir...” deyərək Rəhiləyə söz atırdılar. Rəhilə oğlanları mədəni olmağa, əxlaqa dəvət etməyə çalışdı, ancaq oğlanlar get-gedə hədlərini aşırdı. Bu səhnəni seyr edən Azad oğlanların tərbiyəsizliyinə dözə bilməyərək, olaya müdaxilə etmək məcburiyyətində qaldı. O, oğlanlara yaxınlaşıb qızı rahat buraxmağı söylədi. Oğlanlardan bədəncə boylu-buxunlusu Azada baxıb rişxənd etdi: “Aha, prinsessanın xilaskarı peyda

oldu. Bura bax, oğlan, sən bizim işimizə qarışa bilməzsən! Nə qədər qol-qabırğan sınmayıb, rədd ol burdan!”

Azad sakit bir tonda oğlana dedi:

- Kiminsə qabırğasının sınmasını istəmirsinizsə, qızı rahat buraxın! Yoxsa...
- Yoxsa, nə edəcəksən, qoduq! - Yekəpər oğlan Azadı təhqir etdi.

“Qoduq” sözünü eşitcək, Azadın beynində sanki ildırım çaxdı. O, bu sözü həzm edə bilməyib sağ əli ilə ani idmançı çevikliyiylə yekəpər oğlanın çənəsindən gözlənilməz bir zərbə vurdu. Oğlan yerindən qopmuş ağac kimi səkiyə sərildi. Bunu görən o biri oğlan Azada hücum çəkərək, ona təpik atdı. Amma Azad onun zərbəsindən müdafiə olunmaq üçün sol əlini oğlanın təpiyinin qarşısına verdi və sağ əliylə onun qarnına möhkəm bir yumruq vurdu. Bu oğlan da qarnını əlləriylə qucaqlayıb yerə oturdu. Üçüncü oğlan isə yerdə ağrı-acıdan qıvrılan yoldaşlarını görüb özünü itirdi, nə edəcəyini bilmədi. O, istədi ki, Azada hücum etsin, amma tezcə də fikrindən vaz keçdi. Və zərbə almış yoldaşlarını ayağa qaldırmağa çalışdı. Bu zaman dayanacaqdakılar: “Əllərin var olsun! Bunlara bu da azdır. Bundan sonra bəlkə ağılları başlarına gəldi. Həyasızlığın dərəcəsinə bir baxın! Bu qədər adamlardan utanıb çəkinmədən ictimai yerdə tərbiyəsizlik edirlər. Belələriylə ancaq bu tonda danışmaq lazımdır!” deyə döyülmüş oğlanları yetərincə qınayıb məzəmmət etdilər. Oğlanlar ayağa qalxıb gedərkən Azada: “Yaxşı, bizinki səninlə qalsın sonraya. Səninlə hökmən görüşəcəyik!” deyə ona hədələyici mesaj verdilər.

- Yaxşı, yaxşı, di sürüşün burdan, - deyə Azad qalib adamlar tək gülümsəyib əlini yellədi.

Bu zaman avtobus gəldi, adamlar avtobusa doluşdular. Rəhilə sərnişinləri aralayaraq, Azada yaxınlaşdı və utana-utana:

- Çox sağ olun, təşəkkür edirəm, - dedi. - O, əclafların dərsini yaxşı verdiniz. Yoxsa, əl çəkmək istəmirdilər.
- Təşəkkürə ehtiyac yoxdur, Rəhilə xanım. - Azad gözlərini qızın iri, ifadəli gözlərindən çəkmədən dilləndi.
- Siz mənim adımı haradan bilirsiniz? - Rəhilə təəccüblə Azada baxdı.
- Necə yəni, demək istəyirsiniz ki, məhəlləmizin adamlarını da tanımayaq? - Azad gülümsədi.
- Aaa... bağışlayın, tanımadım. Bəs adınız necə oldu?
- Adım Azaddır.
- Düzünü deyim ki, sizi bir neçə dəfə elə bu avtobusda görmüşdüm, amma bizim məhəllədə yaşadığınızı bilmirdim. Mən...
- Siz Konservatoriyada oxuyursunuz, - deyə Azad Rəhiləni cümləsini tamamlamağa imkan vermədi.
- Demək, sizin mənim haqqımda müəyyən məlumatınız var? Belədi də, oğlanlar həmişə qızlar haqqında altdan-altdan məlumat toplayırlar. - Rəhilə eyhamla söylədi. - Bəs siz harada oxuyursunuz?
- Təkcə oğlanlarmı?! Bəs qızlar?.. Mən də Neft Akademiyasında, axırıncı kursda oxuyuram. - Azad da söz altında qalmadı.
- Döyüşməyinizdən hiss olunur ki, idmanla məşğul olursunuz.
- Elədir, dərsdən sonra karate kurslarına gedirəm. Sadəcə, bu idman növünə özünümüdafiə üçün yazılmışam.
- Mən də çox istərdim idmanla məşğul olam, özü də atıcılıq üzrə. Hayıf ki... - Rəhilə təəssüflə çiyinlərini çəkdi.
- Bununçün sizə mane olan nədir? İndi maşallah, respublikamızda idmanın hər növü üzrə məşğələlər mövcuddur, istədiyin idman növüylə məşğul ola bilrəsiniz. - Azad Rəhiləyə məsləhət verdi.

Bundan sonra Azadla Rəhilənin görüşləri tez-tez olurdu. Rəhilə üçün Azad tamam fərqli bir oğlan idi. Azadın dünyagörüşü, hər hansı mövzu barəsində çətinlik çəkmədən uzun-uzadı mükalimə aparması, insan psixologiyasını yaxşı bilməsi, insani münasibətlərin real təhlilini ortaya qoyması, fəlsəfi, sosioloji məlumatlara vaqifliyi, onun həyat hadisələri barədə geniş biliyə yiyələnməsindən, yüksək təfəkkürə malik erudisiyalı bir gənc olmasından xəbər verirdi. Rəhilə qəsdən hər dəfə ortaya bir mövzu atırdı. Azad da çətinlik çəkmədən həmin mövzu ətrafında saatlarla söhbət etməkdən yorulmurdu. Çünki o, gecə-gündüz mütaliə etməyi və oxuduqlarını da ən yaxınlarıyla paylaşmağı xoşlardı. Buna görə də, Rəhilə Azadla olanda qətiyyən darıxmırdı, əksinə onun söhbətlərindən həmişə zövq alır, məmnun qalırdı. Onların bu günə kimi bir-birlərinə "siz" deyə müraciətləri artıq "sən"lə əvəz olunmuşdu.

Azad Rəhilə ilə görüşə çıxanda heç vaxt sevgi, məhəbbət barədə danışmazdı. O, həmişə ciddi, elmi və həyatı mövzularda söhbət edirdi. Onu ən çox narahat edən Qarabağ dərdiydi, ölkəmizə qarşı aparılan ədalətsiz siyasi oyunlardı.Böyük dövlətlər bizim haqlı olduğumuzu bildikləri halda, kimsə torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğunu dilinə gətirmək istəmir, əksinə bizi bədnam qonşularımıza - ermənilərə qarşı haqsız davrandıqlarımızı bəyan etməyə cəhd göstərirdilər. Yeni dünya düzəninə qarşı Azad həmişə barışmaz mövqedə dayanırdı. O, nə ATƏT -ə, nə BMT-yə, nə də Avropa Şurasına inanmırdı. Xüsusən də super güclərin müsəlman olkələrinə qarşı apardıqları ədalətsiz siyasətləri, göz görə-görə müsəlmanların amansız qətliamlarına məruz qalmalarına seyrçi mövqe tutmaları, cinayətkarlar məlum olduğu halda, onlara qarşı heç bir təsirli tədbirlərin görülməməsi Azadın heysiyyatına toxunurdu. Böyük dövlətlərin, super güclərin Qarabağ probleminə

riyakarcasına yanaşmaları  onu bir vətəndaş və müsəlman kimi çox narahat edirdi. Onun erməni dığalarını görməyə gözü yoxdu, açıq-açığına onlara hədsiz nifrət etdiyini söyləyirdi...

Bir gün yenə də dənizkənarı parkda olarkən Rəhilə bu dəfə Azadın indiyə qədər söhbət açmadığı "sevgi, məhəbbət" mövzusunu ortaya atdı. Qımışaraq üzünü Azada tutub dedi:

- Azad, məncə, həyatda əsl sevgi, məhəbbət yoxdu. "Leyli və Məcnun" da dahi sənətkarın "Platonik eşq" deyilən utopik sevgidən bəhrələnərək özünün yaratdığı xəyali bir eşq, sevgi, məhəbbət macərasından başqa bir şey deyil. Bəs sən bu barədə nə düşünürsən?
- Mənim fikrimcə, iki cür eşq var: xəyali eşq və real həyati sevgi. Xəyali eşqə həyatda nail olmaq çətindir. Bəli, buna sizin dediyiniz kimi, "Platonik eşq" də deyirlər. Amma real eşq, sevgi, məhəbbət həyatda gördüyün, duyduğun, onun varlığını bütün vücudunla hiss etdiyin andır. Bu eşq insanı ülviləşdirir, kamilləşdirir, daxili aləmini təmizləyir, insanda olan bütün gözəl xüsusiyyətləri üzə çıxarır, onu həm daxilən, həm də zahirən gözəlləşdirir. Çünki sevgi yaxınlıqdır, sevgi etibardır. Sevgi, insanın ən zəif nöqtəsi, amma ən güclü yeridir. Sevgi, səni sevirəm demədən sevməkdir. Sevgi, səbrdir. Sevgi, gecələri səhərədək gözləməkdir. Sevgi, qarşındakını hiss etmək və baxışlarından nə dediyini duymaqdır. Sevgi, xəyalların gerçəkliyə çevrilməsi və dərin düşüncələrə dalmaqdır. Ən əsası odur ki, sevgi, ruhun gözəlliyidir. Sevgi, qaranlıqda yandırılan bir şam işığı kimidir. O, insanın daxili aləmini işıqlandırır. Sevgi insanın ümidi və inamıdır. Bir sözlə, insanı yaşadan sevgidir.
- Azad, sən bunları hardan öyrənmisən? - Rəhilə maraqla soruşdu.
- Həyatdan və oxuduğum kitablardan.

- Sağ ol, e-e-e səni. Sən eşq, sevgi kitabısan ki. Mənim də bundan heç xəbərim yoxdu. Amma nədənsə, sənin dediklərini indiyə kimi praktikada heç hiss etməmişəm. Düşünürdüm ki, sənin sevgi, məhəbbət barədə heç bir anlayışın yoxdu. Çünki bunları səndə sezmək qətiyyən mümkün deyil.
- Dedim axı, sevgi, səni sevirəm demədən sevməkdir. İnsan əsl sevgi hisslərini çox vaxt biruzə vermir. Məncə, sevgi dilə gətirilirsə, o zaman sevgi adiləşir, cılızlaşır, dəyərini itirir. Məsələn, Jorj Sand deyib ki, əgər kişi öz məhəbbəti barədə ağıllı danışa bilirsə, bu bir həqiqətdir ki, deməli o, ürəkdən vurulmamışdır. Bir də ki, məhəbbət hər şeydən əvvəl seçdiyin adam üçün, onun taleyi, gələcəyi üçün məsuliyyət daşımaq deməkdir. Mən nə vaxtsa, tanınmış Amerika yazıçısı Con Steynbekin oğluna yazdığı məktubunda oxuduğum bu sözləri yaxşı xatırlayıram. O, məktubun bir yerində yazır ki, qızlar hər zaman oğlanların hissindən xəbərdar olurlar, lakin onlar bu haqda həm də eşitməyi sevirlər.
- Belə de... Azad, bəs məhəbbət nədir? Məncə, eşqlə məhəbbət ayrı-ayrı şeylərdir. - Rəhilə Azadı "məhəbbət aləmi"nin dərinliklərinə çəkmək istədi.
- İnsan məhəbbəti, hər şeydən öncə, qəlbin və vücudun, ağlın və idealın, səadət və borcun birliyidir. O ki qaldı sevgiylə məhəbbət arasındakı fərqə, onu deyim ki, hər ikisinin əsasını romantik hisslər təşkil edir. Eşq xarici görünüşə vurğunluq olduğu üçün səthi bir hissdir. Bu gün birinə vurulursan, sabahısı gün bir başqası ortalığa çıxır və sənin xoşuna gəlir. Yəni, bunlar ötəri hisslərdir. Amma məhəbbət zaman keçdikcə artır. Əsl məhəbbət insandan səbr tələb edir. Məhəbbətdə ilk öncə yaxşı dost olursan. Sonra günlər, aylar ötdükcə anlayırsan ki, ondan daha çox xoşun gəlir və bundan sonra bir-birinə olan hisslərin

möhkəmlənir. Əsl məhəbbət hər şeyə qatlaşmalı, hər çətinliyə dözməli, hisslərə qapılmamalı, yalnız idrakın gücünə inanmalı, məntiqi düşüncəyə əsaslanmalıdır. Əsl məhəbbət zamanın sınağından keçməlidir. Eşq qısa zamanda bitib tükənə bilir, məhəbbət isə zaman keçdikcə daha da möhkəmlənir və kamilləşir.

- Sevgi, eşq, məhəbbət haqqındakı geniş məlumata görə sənə təşəkkür edirəm. Amma sənə daha bir və sonuncu sual vermək istəyirəm. Səncə, bəs xoşbəxtlik nədir? Əgər ortalıqda əsil sevgi, məhəbbət varsa, deməli, insan özünü xoşbəxt sana bilər? - deyə Rəhilə gülərək sağ əlini Azadın çiyninə qoydu.

- Onu deyim ki, xoşbəxtlik mövzusu həm çox qəliz, həm də xeyli vaxt aparan məsələdir. İlk öncə onu deyim ki, xoşbəxtlik təkcə kimisə sevməkdə deyil. Xoşbəxtlik daha geniş anlayışdır. Məsələn, gerçəklikdə gördüyümüz, bəyəndiyimiz yaxşı, xeyirxah əməllər, hərəkətlər yüksək, nəcib niyyətlərin təcəssümüdür. Bu niyyətlərdə real olanla ideal olan həmişə daxilən qarşılıqlı vəhdətdədir, bir-birini tamamlayır. Gerçəkliyin yaxşı cəhətləri - gözəlliyi, xeyirxahlığı, həqiqəti ülvi niyyət ümumiləşdirir. O, həyatın kamilləşməsinə xidmət edir. Ülvi niyyətlər həyatda gerçəkləşdikcə əxlaqi, estetik, sosial münasibətləri tənzimləyən normalara çevrilir. Təbiidir ki, insan həyatda xoşbəxt olmaq üçün həmişə mücadilə edir. Hamımız xoşbəxt olmaq arzusu ilə yaşayırıq. Amma əslində biz əsl xoşbəxtliyi çox vaxt dərk edə bilmirik. Bəzən xoşbəxt olduğumuz halda, yenə də xoşbəxtlik haqqında düşünürük. Necə ki, xoşbəxtlik bizi tərk etdikdə, özümüzü bəxbəxt hiss edirik. Xoşbəxtliyi duymaq, onun qədrini bilmək, onu qoruyub saxlamaq qədər zəruridir. Əslində, xoşbəxtlik - gözlə görünməyən, heç bir ölçüyə sığmayan, alınıb-satılmayan mənəvi hissdir. Bu hiss insanın içindən doğur, bunu xaricdən almaq, ya da əldə etmək mümkün deyil. Həyatda xoşbəxt

olmaq istəyirsənsə, ilk növbədə özünü tamahsızlığa öyrətməlisən. Çünki tamahkar adamlar heç vaxt xoşbəxt ola bilməz. Yəni xoşbəxt olmaq istəyirsənsə, tamah dişini birdəfəlik çəkib atmalısan. Yunan filosofu Sokratın fikrincə, gərəkdir ki, tamah, ehtiras insan üzərində deyil, insan ağlı onların üzərində hökmran olsun.

Həyatda faydalı nəsə qazanmaq, müxtəlif yollarla nəyisə əldə etmək hələ xoşbəxtliyə qovuşmaq deyil. Faydalı olan zahiri nemətdir, xoşbəxtlik isə mahiyyətə malikdir. Mən də bu fikirlə razılaşıram, çünki maddi nemətlər insan xoşbəxtliyi üçün yalnız vasitə ola bilər. Vasitə olmaq hələ məqsəd demək deyil, məqsədə nail olmaq isə son həddir. Xoşbəxtlik də insanın son mənəvi həddi, ali məqsədidir. O özü başlıca məqsəd olmaqla ən ali nemətdir. Eyni zamanda insan başqa insanlardan təcrid olunmuş halda xoşbəxt ola bilməz, səadəti dərk etməz. Xoşbəxtlik ictimai məna daşımalıdır. Xoşbəxtliyin mahiyyəti insanın insanlıq vəzifəsi ilə vəhdətdədir.

Xoşbəxtlik bəxşiş deyil, fəaliyyətin, çalışmağın, səyin bəhrəsidir. Xoşbəxtlik mübarizə yolu ilə taleyin özünü ram etməkdir. Xoşbəxtlik verilmir, alınmır, ancaq qazanılır...

- Dərin fəlsəfi söhbətin üçün sənə dərin təşəkkürümü bildirirəm, Azad. Məni qiyabi də olsa, xoşbəxtlik haqqındakı nəzəriyyələrinlə xoşbəxtlik aləminə səyahətə çıxartdın və bunu yaxşı bacardın. Deməli, xoşbəxtliyi sənin fikrincə, kimsə kimsəyə vermir, onu həyatda əldə etmək üçün hökmən mücadilə etmək lazımdır.

- Elədir ki, var. Əlini əlinin üstünə qoyaraq oturub gözləməklə, xoşbəxtliyi əldə emək olmaz. Xoşbəxtlik, eyni zamanda, insanlarla, ətrafındakılarla qarşılıqlı sağlam və səmimi münasibətdə olmaq deməkdir. - Azad gülərək Rəhilənin əllərini əllərinə aldı. - Hə, yadıma düşdü, sən ötən dəfə mənə atıcılıq kursuna getmək istədiyini bildirmişdin.

Mən o məsələni həll etmişəm. Yaxın bir tanışım var, birlikdə onun yanına gedərik. O sənə həm müxtəlif silahlardan necə istifadə etməyi, həm də hədəfə düzgün nişan alaraq sərrast vurmağın sirlərini öyrədəcək. Nə deyirsən? Atıcılığa nə vaxt başlamaq istəyirsən?

- Elə günü sabah başlamaq istəyirəm. Çox sağ ol, Azad.

Bütün görüşlərdə Azadın Rəhiləyə qarşı ciddiliyini qoruyub saxlaması qızın xoşuna gəlirdi. Onsuz da Rəhilənin dayazdüşüncəli, yerli-yersiz danışan, müxtəlif hərəkətləriylə qızları özünə cəlb etməyə səy göstərən, şit zarafatlar edən, əyləncəyə meylli, saxta gülüşləriylə özünü qızlara səmimi göstərmək istəyən oğlanlardan zəhləsi gedirdi. Amma Azad bu gənclərdən hər bir hərəkətiylə fərqlənirdi. O, qızlarla necə davranmağı, onlarla necə münasibət qurmağı başqa oğlanlara nisbətən daha yaxşı bilirdi. Rəhilə Azada elə isinişmişdi ki, bir gün onu görməyəndə darıxırdı, sanki o, indi Azadla nəfəs alırdı...

***

Batalyon komandiri erməni dığaların ratsiya əlaqəsindən məlumat əldə etdi ki, öldürülən Samvel Qriqoryanın yerinə, onun qardaşı Arsen Qriqoryan gəlib. Və ermənilər qarşısında söz verib ki, tezliklə qardaşını öldürən türkü tapacaq və ondan amansız qisas alacaq. Bundan sonra Şahin “Rəhiləni qorumaq lazımdır!” deyə düşündü. O, hələlik Rəhilənin kimliyini döyüşçülərə açıqlamaq istəmirdi. Çünki o, “insan çiy süd əmib” atalar məsəlini həmişə xatırlayırdı. Bir axşam batalyon komandiri Arsen Qriqoryanın hədələri barədə Rəhiləyə söylədi və onun bundan sonra daha sayıq olmasını tövsiyə etdi. Komandirin məsləhətinə rəğmən, O, “Arsen köpəyi də tezliklə qardaşının yanına göndərəcəyəm! - söylədi - Komandir, - dedi - məni kimsə durdura bilməz! Nə

qədər sağam, bacardıqca Azadımın intiqamını daha çox erməni dığası öldürməklə alacağam!” Bu sözləri deyərkən qəzəbdən Rəhilənin gözlərində sanki qığılcım saçdı. O, sevgilisi Azad barəsində Şahinə heç bir söz deməmişdi. Ona görə, komandir maraqla soruşdu:

- Rəhilə bacı, Azad kimdi?
- Azad nişanlımdı. - Rəhilənin çöhrəsinə qara bulud qondu.
- Nişanlınızın familiyası necəydi?
- Həsənov...
- Atasının da adı təsadüfən Rəhim deyildi ki?!
- Elədir. Mən bu batalyona Azadın intiqamını almaq üçün gəlmişəm. Çünki Azad da bu batalyonda, Tərtərdə vuruşub. - Rəhilə komandirin dediyini təsdiq etdi.
- Rəhilə bacı, bəs bütün bunları mənə əvvəlcədən niyə söyləmədiniz? Azad bizim ən istəkli qardaşımızdı. O, igid, cəsur, qorxubilməz bir döyüşçüydü. Allah ona rəhmət eləsin! Azadın ruhu həmişə bizimlədir. O, batalyonumuzun fəxri, şərəfiydi. Burada hamı Azadı çox sevirdi. O mənim sağ əlimdi. Azad təkcə döyüşçü deyildi, həm də gözəl təbliğatçıydı. Döyüşdən qabaq onun uşaqlar qarşısındakı ruhlandırıcı çıxışı döyüşün gedişinə böyük müsbət təsir edirdi. Ona dəfələrlə kazarmada qalmasını əmr etmişdim. Amma o, “Mən uşaqlardan ayrı qala bilmərəm, qardaşlarım harda, mən də orda” deyə döyüşə hamıdan qabaq atılırdı. Azad həm də çox savadlı oğlandı. Uşaqlar onu “batalyonun alimi” deyə çağırırdılar. Gənc olmasına baxmayaraq, bizim “ağsaqqallar” ondan hər cür məsləhət alırdılar. O cür zəka sahibinin cəbhəyə gəlməsini mən heç istəməzdim. O, uşaqlara hər bir mövzu barədə ətraflı məlumat verməyi, onları maraqlandıran həyati məsələlər haqqında söhbət aparmağı xoşlardı. Qısa zamanda uşaqlarımız ondan çox şey öyrənmişdi. Hayıf ki, erkən getdi. Azadın itkisi batalyonumuzun döyüşçülərinə çox təsir etmişdi. Hər halda

məlumatınız olar, onu snayperlə vurdular. Amma biz də Azadın qanını yerdə qoymadıq. Onun ölmünün əvəzinə uşaqlar yeddi erməni dığası gəbərtdilər. Bacım, sizə komandir kimi deyil, bir qardaş kimi məsləhətim odur ki, bundan sonra çox ehtiyatlı olmalısınız, düşmənin nə qədər məkrli olduğunu özünüz məndən daha yaxşı bilirsiniz. Siz bizim üçün çox qiymətlisiniz, həm də Azadımızın yadigarısan. Sizi göz bəbəyi tək qorumaq hamımızın borcudur. Deyirəm, bəlkə "gecə ovu"na bir neçə günlük fasilə verəsiniz? - Şahin narahat baxışlarını Rəhilədən yayındırmağa çalışdı.

- Komandir, bilin ki, bundan sonrakı işim Arseni izləmək olacaq. Amma onun yerini bilmək üçün mənə dəqiq məlumat lazımdır. Bir də ki, o it oğlunun şəkli də lazımdır. Komandir, Azadla aramızdakı ilişgilər barədə uşaqlara hələlik heç bir söz deməyin. Zamanı gələndə özüm onlara hər şeyi söyləyəcəyəm.

- Bu barədə narahat olmayın, aramızdakı söhbətdən hələlik kimsə xəbər tutmayacaq. O ki qaldı Arsenin şəkli və yeri barədə, onu kəşfiyyatın uşaqlarından dəqiqləşdirib sizə söyləyəcəyəm, - deyə Şahin Rəhiləni arxayın etdi.

Rəhilə hər axşam "ova" çıxmamışdan qabaq kitelinin döş cibindən bir kağız çıxarıb oxuyur və yenidən qatlayıb əvvəlki yerinə qoyurdu. O, hər dəfə bu kağızı oxuyarkən gözləri dolur, kövrəlir və duyğusal olurdu.

Bu axşam Rəhilə "ova" çıxmamışdı, o, komandirin ona gətirəcəyi məlumatı gözləyirdi. Rəhilə kazarmadakı ayrıca otağında, çarpayıda uzanıb yenə də dərin xəyallara dalmışdı. O, Azadın ilk dəfə onu atıcılıq məşğələsinə apardığı günü xatırlayırdı. Təlimatçı oğlan ona təlim qabağı bəzi məsləhətlər verdi. O, deyirdi ki, yaxşı atıcı olmaq üçün təkcə yaxşı texniki təchizata malik olmaq yetərli deyil. Mükəmməl atıcı - tüfəngin, lazımi vərdişlərin və ən əsası da

həlledici anda silahı saxlayan əlin vəhdətdə olmasıdır. Digər tərəfdən də insan sabit psixoloji duruma yönəlməli, təşviş, vahimə hissindən özünü qorumalı, soyuqqanlı və təmkinli olmalıdır. Sərrast atıcılıqda çılğınlıq, tələskənlilik olmamalı, atəşə qarşı reaksiyası ölgün, süst və sərbəst olmalıdır. Gözlərin yumulması, silaha çiyinlə toxunma, tətiyin kəskin şəkildə çəkilməsi - insanın atəşə ən çox yayılmış reaksiyasıdır. Bu cür reaksiyanın səbəbi sadə psixologiyadır. Bu psixologiyaya əsasən atıcıya məlumdur ki, atəş anı partlama və silahın tərpənməsi ilə müşahidə olunur və beyin şüuraltı olaraq orqanizmi atəşə hazırlayır. Atəşə reaksiyası olmayan insanlara çox nadir hallarda təsadüf edilir. Yəni, hər bir insan atıcılığa getməzdən öncə, özünü psixoloji cəhətdən buna hazırlamalıdır. Ən əsası da özünü düşməndən gizlətmək üçün yaxşıca "komfilyaj" olmalıdır. Bu keyfiyyətlərin hamısı Rəhilədə vardı. Bir dəfə düşmən əsgərləri onun bir metrliyindən keçib getdilər, ancaq onu hiss etmədilər. Çünki o, yaxşı "komfilyaj" olmuşdu.

Daha sonra Rəhilə Azadın cəbhəyə yola düşməsini xatırladı. Azad Akademiyanı fərqlənmə diplomuyla bitirdikdən sonra, işə düzəlmək əvəzinə, doğma torpağını erməni dığalarından qorumaq üçün könüllü cəbhəyə getməyi qərara almışdı. Onun bu qərarını evdə ata-anası müsbət qarşılamamışdılar. Azadın valideynləri onu qərarından döndərmək üçün nə qədər cəhd göstərsələr də, bu, mümkün olmamışdı. Savadlı, yaxşı mütəxəssis olduğu üçün özəl şirkətlərin biri Azadı yüksək maaşla işə götürməyi təklif etmişdi. Amma Azad bu təkliflə razılaşmamışdı. Atası Rəhim kişi gözünün ağı-qarası bircə oğlunu itirməkdən çox qorxurdu.

Bir gün o, Azadı yanına çağırıb son dəfə ona bildirmişdi:

- Oğul, bilirəm, Vətən sevgisi, torpaq itkisi hamımızı narahat etdiyi kimi, səni də üzür və daim düşündürür. Torpaq

hamımız üçün müqəddəsdir, onu qorumaq hamımızın borcudur. Gənclər qəhrəmanlıq göstərməyə meylli olurlar. Amma qəhrəmanlığı təkcə ön cəbhədə deyil, həm də arxa cəbhədə etməklə öz elminlə, zəkanla xalqına layiq dəyərli vətəndaş ola bilərsən, elmi-texniki sahədə böyük uğurlar qazana bilərsən. Yeni elmi kəşflərə, ideyalara, ixtiralara imza ata bilərsən. Bütün bunlar da qəhrəmanlıq sayılır, oğlum.

- Ata, xətrinə dəymək istəmirəm. Daxilində daim narahatçılıq hissi olan adam, sizin dediyiniz kimi, elmi yaradıcılıq, kəşflər, ideyalar, ixtiralar barəsində necə düşünə bilər? Doğma, ata-baba torpaqlarımız nə qədər ki, erməni dığaların işğalı altındadır, mən heç cür rahat ola bilmirəm. Bu mənim özümdən asılı deyil. Qəlbimdəki Qarabağ yarası müalicə olmayınca, elm arxasınca getməyəcəyəm. Vətəni düşməndən qorumaq hər kəsin vətəndaşlıq borcudur, - deyə Azad fikrindən dönməyəcəyini söyləmişdi.

Azad cəbhəyə yola düşməzdən bir gün öncə, Rəhiləylə görüşüb qərarını ona da bildirmişdi. Rəhilə Azadın xarakterinə yaxından bələd olduğu üçün sevgilisinə bir söz deyə bilməmişdi. O, sadəcə, “Allah yolunu açıq etsin və səni qorusun!” deyə bildi. Bundan sonra Azad pencəyinin qoltuq cibindən bir məktub çıxarıb Rəhiləyə vermişdi və: “Bu məktubu mən cəbhəyə yola düşəndən sonra oxuyarsan və daim üstündə gəzdirərsən, - demişdi. - Və bunula da mənim həmişə sənin yanında olduğumu hiss edəcəksən”.

Bu zaman batalyon komandirinin səsi Rəhiləni xəyal və düşüncələrdən ayırdı:

- Rəhilə bacı, bu, sizin dediyiniz kimi, it oğlu Arsenin şəkli, bu da onun tez-tez UAZ markalı maşınla ötüb keçdiyi yer.

Qız həm Arsenin şəklini, həm də onun maşınla keçib getdiyi marşrutu diqqətlə nəzərdən keçirdi.

Rəhilə Arseni ovlamaq üçün özünə münasib vaxt və şərait seçməliydi. Komandir Rəhilənin yanından təzəcə

ayrılmışdı ki, növbətçi döyüşçülərdən biri komandirə bildirdi ki, erməni snayperi uşaqlardan birini başından vurub. Döyüşçülər Fəridin meyitini gətirib bayrağın yanında yerə qoydular. Fəridin on doqquz yaşı vardı, BDU-nun ikinci kurs tələbəsiydi. Rəhilə də ömrünün ən gözəl çağında şəhidlik zirvəsinə yüksələn bu gənc oğlana baxmaq üçün döyüşçülərin toplaşdığı yerə getdi. O, yerdə uzanmış Fəridi gördükdə, içində sanki vulkan püskürdü və astadan “sənin də intiqamını alacağam, qardaşım!” dedi.

Rəhilə Fəridin ölmünü gördükdən sonra, Arsenin ovuna elə bu gecə çıxmağı qərara aldı. O, bu barədə Şahin komandiri də xəbərdar etdi. Axşamtərəfi Rəhilə ona komandir tərəfindən verilmiş yeri yoxlamaq üçün kəşfiyyata getdi. O, özünə münasib yer seçərək, yaxşıca “komfilyaj” oldu və gözləməyə başladı. Bir saat keçdi, ətrafda tam sakitlikdi. Rəhilə gözünü Arsenin gəlib keçdiyi yoldan çəkmirdi. Bu vaxt Azadla keçirdiyi günlər yenə də düşüncələrinə hakim kəsildi. O, hər dəfə sevgilisini xatırladıqca, düşmənə olan nifrəti daha da artırdı. Sonra o, kitelinin döş cibindəki Azadın ona yazdığı məktubu yenidən xatırladı və:“Xeyr, Azadım ölməyib, o, həmişə mənimlədir!” deyə bununla özünə təsəlli verdi.

Bu zaman yolda bir UAZ maşını göründü. Rəhilə snayperin gözlüyündən diqqətlə hədəfə baxdı. “Odur, əclaf Arsenin özüdür ki var!” deyə o, dərindən nəfəs alaraq, sonra da yenidən nəfəsini asta-asta bayıra buraxdı. İndi Arsen Qriqoryan tam onun hədəfindəydi. Rəhilə: “Alçaqlar, sizlər mənim sevgi dolu xoşbəxt gələcəyimi, həyatda ən çox sevdiyim adamı əlimdən aldınız. Mən də sizin həyatınızı cəhənnəmə döndərəcəyəm. Bundan sonra kabus olub daim sizləri təqib edəcəyəm. Mən sizin ölüm mələyiniz olacağam! Sizlərə bundan belə rahatlıq verməyəcəyəm! Hər birinizi tək-tək gəbərdəcəyəm. Azadımın ruhu rahat olmayınca, mən də

sizlərə aman verməyəcəyəm! Sevgilimin və digər şəhidlərimizin qanını yerdə qoymayacağam!” deyə tətiyi çəkdi. Arsenin başı çiyninə əyildi. Sürücü dərhal maşını saxladı. “Bu da Fərid qardaşımın intiqamı!” deyə Rəhilə ikinci atəşlə sürücünü də gəbərtdi. Sonra o, sakitcə mövqeyini tərk etdi...

Ertəsi gün uşaqlar ratsiyadan erməni zabiti Arsen Qriqoryanın da öldürüldüyünü eşitdilər. Bu yerdə batalyon komandiri Şahin Bağırov bütün döyüşçülərin qarşısında Arsenin, Samvelin, eləcə də digər erməni dığalarının snayperçi Rəhilə bacı tərəfindən öldürüldüyünü onlara söylədi. Hamı heyrət və təəccüblə qıza baxırdı. Həyəcandan hamının nitqi tutulmuşdu, kimsə danışa bilmirdi. Ani sükutdan sonra uşaqlardan biri: “Sizə əvvəlcə ananızın südü, sonra da yediyiniz Vətən çörəyi halal olsun! - dedi. - Siz bu şücaətinizlə bizləri utandırdınız, bizə yaxşıca kişilik dərsi verdiniz. Atalar bunu çox düz deyib:“Aslanın erkəyi, dişisi olmaz”. Əllərin var olsun, bacım!” O, ucadan qışqırdı. “Tətik çəkən əllərinizə qurban olaq, ay bacı!”, “Halal olsun sənə!”, “Qəhrəman qızlarımıza eşq olsun!”, “Vətən sizin kimi övladlarıyla fəxr edir!”, “Allah səni qorusun, bacım!” deyə döyüşçülərdən sevinc dolu nidalar ucalırdı.

Həmin gündən etibarən Rəhilənin uşaqlar arasında hörməti birə min artdı. Bu istək onun təkcə qadın olmasından irəli gəlmirdi, bu qızın qorxmazlığı, kişiyana hərəkətləri, cəsurluğu uşaqları heyran qoymuşdu. Amma komandir Rəhilənin Azadın sevgilisi olduğunu döyüşçülərə hələlik söyləmədi.

İki gündən sonra batalyon Marquşevanı ermənilərdən geri aldı. Amma bir neçə saatdan sonra ermənilər güc toplayaraq yenidən hücuma keçdilər və qızğın döyüş başladı. Ermənilər sayca bizimkilərdən çoxdu, onlarda hələ üstəlik texnika da vardı. Rəhilə düşməni asanca məhv etmək

üçün Poçt idarəsinin binasını seçmişdi. O, binanın damında özünə yer edərək, yuxarıdan erməniləri bir-bir dənləyirdi. Batalyon komandiri iki erməni BMP-nin döyüşçülərə göz açmağa imkan vermədiyini görüb, daha çox itki verməmək üçün uşaqlara geri çəkilməyi əmr etdi. Döyüşçülər Poçtun binasından iki yüz metr aralanmışdılar ki, birdən Şahinin fikrinə Rəhilə gəldi. Qızın uşaqların geri çəkilməsindən xəbəri yoxdu. Ermənilər Rəhilənin yerini artıq müəyyən etmişdilər. Buna görə də onlar Poçt idarəsini mühasirəyə başlamışdılar. Rəhilə bundan xəbərsizdi. Bir də gördü ki, arxadan ona atəş açırlar. O, indi başa düşdü ki, uşaqlar geri çəkilib, düşmən əhatəsində tək qalıb. O, snayperini götürüb cəld aşağı endi. Bu zaman Rəhilə iki erməni əsgərinin binanın arxasından gizlincə ona tərəf gəldiklərini gördü. O, snayperiylə pəncərədən onları nişan aldı və hər ikisini də cəhənnəmə vasil elədi. Rəhilə binadan çıxıb uşaqlara tərəf 50-60 metr qaçmışdı ki, arxadan onu vurdular. Snayperçi qız sağ əlini sol döşünün üstünə qoydu, yerə yıxılaraq gözlərini həyata əbədi yumdu. Batalyon komandiri bunu gördü. Ermənilərin sayı get-gedə çoxalırdı. Nəyin bahasına olursa-olsun Rəhilənin meyitini döyüş meydanından götürmək lazımdı. Ona görə də Şahin döyüşçülərə ucadan səsləndi:

- Uşaqlar, Rəhiləni vurdular! Onun meyitini düşmənə buraxmamalıyıq! Bu qız bizə Azadın yadigarıdır!”

- Hansı Azadın, komandir? - Uşaqlar bir ağızdan təəccüblə soruşdular.

- Azad Həsənovun, “alim” Azadın.

- Azad qardaşımızın əmanəti başımız üstündə. Komandir, bəs indiyə qədər bunu bizdən niyə gizli saxladınız?!

- Bu cür məsləhət bilinmişdi. Haydı, igidlərim, irəli! Rəhiləni götürməyincə, geri çəkildi yoxdu! - Şahin komandir əmr etdi.

Qızğın döyüş yenidən başladı. Ermənilər özlərinə yaxşı mövqe seçmişdilər, uşaqlara irəliləməyə imkan vermirdilər.

Bu zaman uşaqlardan biri: "Uşaqlar, orda Azad qardaşımızın və eləcə də hamımızın namusu, qeyrəti, şərəfi yatır. Bacımızın meyitini bu murdar köpəklərin əlində qoymamlıyıq! Əgər Rəhiləni ordan götürməsək, bu, papaq bizə haram olsun!" deyərək başındakı əsgər papağını əlinə götürdü. Cəsur döyüşçülər sanki bu sözə bəndmiş kimi, "erməni dığalarına ölüm!" deyə düşmənin üstünə şığıdılar.

Rəhilənin meyitini döyüş meydanından götürmək üçün on şəhid verildi. Komandir qızın ciblərin yoxlayarkən ordan bir məktub çıxdı. O, əvvəlcə məktubu ürəyində, sonra da döyüşçülərə ucadan oxudu. Bu, Azadın cəbhəyə yola düşməzdən öncə Rəhiləyə verdiyi məktubdu. Məktubda yazılmışdı:

*"Əzizim, döyünən ürəyin olmaq və səni həmişə yanımda hiss edə bilmək üçün bu məktubu yazıram. İnsan qarşı-qarşıya olanda nədənsə ürəyindəkilərini sevdiyinə deməyə cürət eləmir. Mənim də Səninlə olduğum zamanlarda qəlbimdəkilərini dilimə gətirmək cəsarətim çatmırdı. Özün də görürdün ki, mən istənilən mövzuda səninlə söhbət edirdim, təkcə bizim hər ikimizə çox zəruri olan məsələdən başqa. Sənə qarşı olan hisslərimi biruzə vermək mənimçün çox çətindi. Bilirəm, sən də məndən nəsə gözləyirdin, ancaq bunun zamana ehtiyacı olduğunu düşünüb fikrindən vaz keçirdin. Bəzən qəlbində məni qınayırdın da. Düşünürdün ki, bu qədər cəsarətli adam mənim ehtiyacım olan sadə bir sözü nədən dilinə gətirə bilmir. Bəzən isə düşünürdün ki, bəlkə mənə qarşı bir şey hiss etmir. Onun bu qədər laqeyd olması nəyə gərəkdir? Axı sevgi özünün dediyi kimi cəsarət tələb edir. Bəs bu sahədə özü niyə bu qədər acizdir?! Amma bu məktubu sənə yazarkən səninlə keçirdiyim o xoş dəqiqəli anlar xəyalımda canlandı. İndi hara baxıramsa, sənin gülər gözlərin, xoş təbəssümün, əsrarəngiz baxışların bir daha gözlərim önündə canlanır. Bu məktubu qəlbimin səsiylə sənə*

*yazıram. Sanki daxilimdə bir səs dedi ki, heç olmasa, səni daim intizar və həsrətlə gözləyən qıza ümid və təsəlliverici bir şeylər yaz. Onun sənin sözlərinə çox ehtiyacı var. Və mən də sənə qarşı olan hisslərimi bu məktub vasitəsiylə bildirmək istədim. Yadındadırmı, biz səninlə dənizkənarı parkda gəzişərkən dedin ki, məncə indiki zamanda əsl məhəbbət, eşq yoxdur. Amma həmin vaxt mən sənə eşq, məhəbbət haqqında uzun-uzadı bir "leksiya" söylədim. Əzizim, onu bilməlisən ki, mən heç vaxt sənə qarşı laqeyd, biganə olmadım. Sadəcə, hisslərini cilovlamağı bacaran insanlardanam.İstərdim ki, bu məktubumu həmişə yanında gəzdirəsən və daim səninlə olduğumu hiss edəsən. Qoy bu məktub səni həmişə qada-bəlalardan qoruyan talismanın olsun. Həmişə səninlə olacağam. Mən burada, səninlə də qala bilərdim. Mənə özəl şirkətdən yaxşı iş də təklif etmişdilər. Amma qəlbimdəki Qarabağ dərdi, torpaq itkisi məni heç bir vaxt rahat buraxmırdı. Onu bilməlisən ki, səni sevdiyim qədər Vətənimi də sevirəm. Bu hər iki sevgi ülvi və müqəddəsdir. Mən bu sevgilərə qarşı laqeyd ola bilməzdim. Onu da bil ki, mən bu iki sevgi uğrunda canımı hər an fəda etməyə hazıram. Mən bu yolu tutmalıydım, başqa çarəm yoxdu. Çünki buna nə vicdanım, nə məsləkim, nə əqidəm, nə də şərəf və ləyaqətim yol verməzdi. Mənim Vətənimə olan sevgim, düşmənə olan nifrətim qədərdir. Həmişə düşünmüşəm ki, şərəfi və ləyaqətiylə ölən insanlar necə də xoşbəxtdilər.Əgər başıma bir şey gəlsə, heç vaxt kədərlənmə. Əksinə, mənimlə qürur duymalısan ki, Sənin belə bir sevgilin vardı. Təki Vətən sağ olsun!*

*İstər bu fani dünyada, istərsə də axirətdə Səni daim qəlbində yaşadacaq Azadın*!

*15.02.1992"*

Komandir məktubu oxuyandan sonra, üzünü döyüşçülərə tutub dedi: “Baxın, həyatda şərəflə yaşayıb, şərəflə ölmək buna deyərlər! “ Əsl cəsarət, igidlik eşqin üçün cəsur olmaqdır. Əsl saf, etibarlı və ülvi eşq, məhəbbət üçün ölümə belə getməyi bacarmaqdır. Bu iki gənc aşiq qorxub çəkinmədən öz sevgiləri - Vətən və insan sevgisi uğrunda ölümə getməyi özlərinə şərəf bildilər və sonda bunu bacardılar. Onlar şərəfli ölümləriylə insanların qəlbində olümsüzlük qazandılar. Eşq olsun bu cür saf, təmiz məhəbbətə! Bu eşq odunun bu dünyada ömrü çox az olsa da, axirətdə daha böyük şölə saçacaq. Və bu nakam eşq odunu erkən söndürən düşmənləri yandırıb yaxacaq! Azadla Rəhilə bu həyatda öz eşqləri, sevgiləri üçün başqalarına nümunə ola biləcək əsl qəhrəmanlıq təcəssümü oldular. Rəhilə bacımız həm sevgilisi Azadın, həm də digər şəhidlərimizin intiqamını qiyamətə qoymadı. Rahat yat, bacım. Biz səni, Azadı və bütün şəhidlərimizi daim qəlbimizdə yaşadacağıq! Bu Vətən sizin kimi qəhrəman övladlarıyla həmişə fəxr edəcək!..”

**07.05.2015**

# *O müdhiş gecə*

*(Sənədli hekayə)*

**H**ər gün atılan güllə səslərinə şəhər əhalisi artıq alışmışdı. Quşbaşı qar yağan sərt qış gecəsi. O gecə yer üzündə görünməyən dəhşət yaşadı Xocalı şəhəri. Ev-eşiklərə od vuruldu, torpaq qana qərq edildi o müdhiş gecə. Xocalı şəhərinin üzərinə sanki ölüm pərdəsi çəkilmişdi. Evlərdə şirin yuxuya dalmış körpə uşaqlar top-tüfəng səsinə ayıldılar. Pəncərədən bayıra baxdılar, hər tərəf od tutub yanırdı. Şəhər dörd bir tərəfdən atəşə tutulurdu. Getdikcə yaralananların, ölənlərin sayı artırdı. Gecə təxminən 2 radələrində şəhər sakinləri müqavimət göstərməyin mənasız olduğunu görüb şəhəri tərk etməyə başladı. Onlar bir neçə dəstəylə şəhərdən çıxırdılar. Hər dəstədə təxminən 150-200 nəfərə yaxın adam vardı. Ermənilər isə şəhər əhalisinin çıxa biləcəyi bütün yollarda pusqular qurmuşdular. Tərkibində 150-yə qədər adam olan dəstə Kətik meşəsi yaxınlığında

ermənilərin pusqusuna düşdülər. Qansız ermənilər silahsız, köməksiz insanları - körpə uşaqları, qadınları, qocaları atəşə tutaraq son nəfərə kimi hamısını amansızcasına qətlə yetirdilər.

Şəhərdə isə güllə, mərmi səsindən qulaq tutulurdu. İnsan qışqırtısı ərşə dirənmişdi. Sanki yerə ölüm mələyi enmişdi. Uşaqların, qadınların, qocaların vahiməli qışqırtıları odlu silahların və hərbi texnikanın səsinə qarışmışdı. Şəhər əhalisinə amansızcasına divan tutulurdu. Hara gəldi qaçdığını bilməyən adamlar güllələrə tuş gələrək yerə yıxılır, hələ ölmədiyini hiss edərək özündə güc toplayaraq bu dəhşət saçan yerdən uzaqlaşmağa çalışırdılar. Hamı çaşqın vəziyyətdəydi. “Ana! ... ana! ... ana!” deyən körpə uşaqların səsi, ahıl qocaların fəryadı, tank və BTR-lərin gurultusu bir-birinə qarışaraq tükürpədici bir xaos yaradırdı. Bir uşağını qucağında, digərini əlindən tutub güllələrdən qaçıb xilas olmağa çalışan analar, ayaqqabılarını belə ayaqlarına taxmağa vaxt tapmayan yaşlı qocalar, gözlərində nifrət qığılcımları parlayan gənclərin pərişan və məyus olduqları aydınca sezilirdi. Qəlblərində düşmənə hədsiz nifrət, Vətənə sonsuz sevgi, torpağa möhkəm bağlı olan bu, gənclər nə edəcəklərini bilmirdilər. Yeganə çarə od tutub yanan şəhərdən tezliklə çıxmaqdı...

***

Bu məkrli və hiyləgər düşmənin uzun zamandan bəri öz himayədarlarıyla həyata keçirməyə çalışdıqları Xocalıya qəfil hücum planıydı. Və ermənilər bu məkrli planı, bəşəri cinayəti, kütləvi qətliamı, soyqırımını rusların 366 - cı motoatıcı alayının köməyi ilə həyata keçirdilər. Çünki Xocalı şəhəri düşmən üçün göz dağıydı. Bir ilə yaxındı ki, Xocalı şəhəri demək olar ki, blokada şəraitində yaşayırdı. Şəhərin digər

rayonlarla avtomobil əlaqəsi tamam kəsilmiş və yeganə nəqliyyat vasitəsi hava məkanıyla - vertolyotla qalmışdı. Sonradan bu şəhərə vertolyotla da əlaqə kəsilmişdir. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra daha buraya vertolyot da uçmadı. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun azsaylı döyüşçülərindən təşkil olunmuşdu.

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədləri vardı. Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaqdısa, digər tərəfdən isə Xocalını yer üzündən birdəfəlik silməkdi. Çünki Xocalı elə bir yaşayış məskəniydi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Burada tarixi abidələr indiyə qədər qalmaqdadır. Erməni silahlı dəstələrinin Xocalıya hücümunu şəhərin həm də coğrafi mövqeyi şərtləndirirdi. Bu şəhər Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşdiyindən ermənilər üçün mühüm strateji əhəmiyyət kəsb edirdi. Bundan savayı, Qarabağdakı yeganə aeroport da Xocalıda yerləşirdi.

Son illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndindən qovulmuş azərbaycanlıların bəziləri bu şəhərdə məskunlaşmışdılar.

***

Polis işçisi Xəqani Səlimov anası, kiçik qardaşı və iki bacısıyla evdəydilər. Atışma başlayanda Xəqani düşündü ki, hər gün olduğu kimi bir az atıb dayanacaqlar. Təxminən səhər saat 5-6 radələrində atışma şiddətləndi. Xəqani tez küçəyə çıxdı. O, gördü ki, şəhərin yuxarı tərəfindəki fin evləri yanır. Axşam atəş başlayanda Xəqani anasını, iki bacısını və kiçik qardaşı Xəzəri evin zirzəmisində gizlətdi. O, tez avtomatını götürüb şəhərin mərkəzindəki mağazaya tərəf gəldi. Xəqani mağazaya çatanda, erməni dilində danışan adamlarla rastlaşdı. Onlar hamısı silahlı idilər. Onu görməsinlər deyə, tez yaxınlıqdakı dükanın arxasında gizləndi. "Demək, ermənilər şəhərə girib" deyə Xəqani düşündü. O, gördü ki, silahlı ermənilər evlərə girir, oradakı ev əşyalarını götürüb çıxırlar. "Əclaflar camaatın malı-mülkünü dədələrinin malı kimi talan edirlər" deyə Xəqanini hirs bürüdü. O, daha əsəblərini cilovlaya bilməyib dükanın arxasındakı Ramizin evindən çıxan 7-8 ermənini atəşə tutdu. Ermənilərdən bir neçəsi yerə sərildi və qalanlar atəş açılan tərəfə güllə yağdırmağa başladılar. Xəqani cəld yerini dəyişərək, başqa həyətə keçdi və evə girmək istədi. Amma gördü ki, evdə iki silahlı erməni var. Onlar evi axtarırdılar. Cəsur polis tez evə girdi və sərrast atəşlə hər iki ermənini gəbərtdi. Sonra o, yenidən küçəyə çıxmaq istərkən 3 nəfər silahlı erməninin pilləkənlə eyvana çıxdığını gördü. Xəqani geri dönüb otağın birində gizləndi. Ermənilər başqa otağa girdilər. O, əlində hazır saxladığı avtomatla ermənilər olan otağa daxil olaraq ani atəşlə onların da həyatına son verdi. Polis evdən çıxıb həyətə düşdü. Bu zaman o, küçəylə qaçan bir qadını və onu arxasınca təqib edən iki silahlı erməni dığasını gördü. Qadın canını götürüb qaçırdı. Sonda silahlı ermənilər arxadan çatıb qadını tutdular və onu yerə yıxdılar. Dığalar əl atıb qadının qulağındakı sırğaları, boynundakı

boyunbağını və əlindəki üzüyü zorla çıxardılar. Sonra da o biri erməni əl atıb qadının yaxalığını cırdı. Bu yerdə Xəqani dözə bilməyib qızıl quş kimi irəli şığıyaraq, əlində qadının zinət əşyalarını tutan dığanın gicgahına avtomatın qundağıyla möhkəm bir zərbə vurdu və erməni dərhal yerə sərildi. O, geri dönüb qadına təcavüz etmək istəyən ikinci ermənininin sinəsindən təpiklə vurdu. Erməni dığası zərbəyə tab gətirə bilməyib səntirləyərək arxası üstə yerə düşdü. Və bu zaman Xəqani onun ürəyindən atəş açdı. O, qadını yerdən qaldıraraq ermənininin ondan aldığı qızıl əşyaları özünə qaytarıb soruşdu:

- Bacı, indi hansı istiqamətə gedəcəksən? Sizinkilər hardadır?

- Ermənilər ərimi, bir oğlumu güllələdilər, iki qızımı isə əsir alıb apardılar. İndi hara gedəcəyimi bilmirəm.

- Bacım, kimin yoldaşısız? Ərinizin adını desəz, tanıyaram.

- Ərim Nüsrət Əzizov könüllülər batalyonunda döyüşürdü. Bu alçaqlar faşistlərdən də betərdir. Gördükləri yerdə uşaq, böyük, qoca, qadın fərqinə varmadan hamısını güllələyir, ən ağır işgəncələr verərək qətlə yetirirlər. Allah bunların bəlasını versin! Bunlara insan deməyin özü böyük günahdır. Qonşumuz Hidayətin əl-qolunu bağlayıb tankın altına atdıqlarını gözlərimlə gördüm. Tank onun üstündən keçdi, - deyə qadını qəhər boğdu.

- Yaxşı tanıyıram Nüsrəti, cəsur döyüşçüydü, Allah rəhmət eləsin. Onunla bir gecə birlikdə növbədə də qalmışdıq. Nəsə, bacım, tələsmək lazımdır. Mən səni bizimkilərdən kimisə görsəm, ona təhvil verəcəyəm. İndi burda ermənilərin vəhşiliklərini müzakirə etməyin yeri deyil. Onların necə bir pislik və murdar millət olduğunu tarix artıq sübut edib. Mən də anamdan, qardaş və bacılarımdan xəbər tutmalıyam. Son dəfə atışma başlayanda onları evimizin zirzəmisində gizlətmişdim. İndi başlarına nə gəldiyindən xəbərim yoxdu, -

deyə Xəqani Nüsrətin həyat yoldaşını da götürüb ehtiyatla o biri qonşunun həyətinə girdi.

Xəqani evi nəzarətdə saxladı. Evdə erməni silahlıları ola bilərdi. Şəhərin arxa küçələrindən güllə səsləri, adamların qışqırtısı, bağırtısı gəlirdi. Birdən lap yaxınlıqdakı küçədə BTR səsi eşidildi. O, qadını taxta hasarın arxasında gizlədib, özü isə aşağı əyilə-əyilə hasarın dibiylə səs gələn küçəyə tərəf getdi və azacıq başını qaldırıb ətrafa baxdı. Ondan otuz-qırx metr aralıda iki erməni silahlısı qabaqlarında iki qadını, iki oğlan uşağı və bir qız uşağını harasa aparırdı. Xəqani ermənilərə görünməmək üçün hasarın arxa tərəfiylə onlara sarı irəlilədi. Sonra həmin iki erməni birdən dayandı, bir-biriylə aralarında nəsə danışdılar və əsir götürdükləri qadın və uşaqları yaxınlıqdakı evin həyətinə apardılar. “Deyəsən, əclaflar onları güllələyəcəklər!” deyə Xəqani düşündü. O, əl atıb avtomatın darağını çıxarıb yoxladı. Daraqda hələ patron vardı. Xəqani səssicə ermənilərin ardınca həyətə daxil oldu. O, fikrində yanılmamışdı, ermənilər doğrudan da onları güllələmək istəyirdi. Ermənilər əsirləri bir otağa yığdılar. Xəqani özünə münasib mövqe tutmağa çalışdı. Gecikmək olmazdı, onlar qadınlara və uşaqlara hər an atəş aça bilərdilər. O, içəri keçə bilməzdi. Ona görə də erməniləri pəncərədən vurmağı qərara aldı. O, avtomatını “odinoçkaya” qoydu və pəncərədən baş nahiyəsi yaxşı görünən ermənini nişan aldı. Atəşin açılmasıyla erməni dığasının yerə dəyməsi bir anda oldu. İkinci erməni çaşqın halda əsirlərin arxasında gizlənmək istərkən ikinci atəş açıldı. Xəqaninin sərrast atəşi ikinci ermənini də cəhənnəmə göndərdi. O, cəld otağa girdi, qadın və uşaqlar qorxularından bir-birlərinə sıxılmışdılar. “Qorxmayın, sizi qurtarmağa gəlmişəm”, deyə Xəqani onlara təskinlik verdi.

- Allah köməyin olsun, oğul! Vaxtında yetişməsəydin, bizi güllələyəcəkdilər bu əclaf , qaniçən soysuzlar, - deyə nisbətən yaşlı qadın Xəqaniyə dil-ağız etdi.

- Siz hələlik burda qalın, indi mən sizə bir qadın da gətirəcəyəm, onu da sizin kimi erməni dığalarının əlindən qurtardım. - Xəqani bunu deyib Nüsrətin həyat yoldaşının dalısıyca getdi.

Az keçməmiş o, Kübra ilə birlikdə geri qayıtdı. Sonra o, ölmüş iki erməninin ayaqlarından tutaraq sürüyə-sürüyə gətirib həyətdəki kiçik damda gizlətdi. Xəqani ermənilərin avtomatının birinin darağını çıxarıb qoltuq cibinə qoydu, ikinci avtomatı əlinə götürüb qadınlara göstərib soruşdu:

- Silahdan istifadə etməyi kimsə bacarırmı? Çünki mən hələlik sizi burda təkbaşınıza qoyub ailəmin yanına getməliyəm. Anam, qardaş və bacılarımdan xəbər tutmalıyam.

- Sən o, silahı bəri ver, əlbəttə bacararıq. Ancaq sən bir az bizə bundan necə atəş açmağı öyrət, qalanıyla işin olmasın, - deyə Nübar bacı cavab verdi.

Xəqani Nübar bacıya silahla necə davranmalı barədə qısaca “təlim” keçdikdən sonra onları burada qoyub ailəsinin dalısıyca getdi. Gedərkən o, qadınlara tezliklə geri qayıdacağına və onları da birlikdə şəhərdən çıxaracağına söz verdi.

O, hasarların arxasıyla gizlənə-gizlənə evlərinə tərəf irəlilədi. Həm yaxın küçələrdən, həm də şəhərin dörd istiqamətindən atəş səsləri eşidilməkdə davam edirdi. Arada tank və toplardan atılan mərmi səsləri, iri çaplı pulemyotların səsi gəlirdi, şəhərin girişindəki evlər od tutub yanırdı. Xəqani ikinci küçəyə yenicə keçmişdi ki, tank tırtıllarının səsini eşitdi. O, hasarın arxasında gizlənərək səs gələn tərəfi müşahidə etməyə başladı. Az vaxt keçmişdi ki, o qorxunc “dəmir heyvan” göründü. Arxasınca da 7-8 erməni silahlısı gəlirdi.

Xəqani nəfəsini içinə çəkib bir müddət səssiz qaldı. O, ermənilərin ötüb keçdiyini yəqin etdikdən sonra evlərinə tərəf yolunu davam etdi. Evlərinə çatanda həyət darvazasının və evin qapılarının taybatay açıq olduğunu, ev əşyalarının ermənilər tərəfindən talan edildiyini gördü. Otaqların birindən tüstü çıxırdı. Xəqani tez özünü həmin otağa saldı. Ermənilər evi çapıb-taladıqdan sonra yandırmaq istəyib, amma nədənsə od alovlanmadan tez sönüb. O, ailəsini yoxlamaq üçün cəld zirzəmiyə endi. Orada kimsə yoxdu. Görünür, ermənilər onun ailəsini də əsir götürüblər. Xəqani məyus və peşman halda yenidən qoyub gəldiyi qadın və uşaqların yanına qayıtdı. Amma o burada daha dəhşətli mənzərəylə qarşılaşdı. Evin həyətində iki erməni dığasının cəsədi vardı. Silah verdiyi qadın isə arxası üstə yerdə düşüb qalmış, bədəni güllələrdən dəlik-deşik edilmiş, gözləri də açıq qalmışdı. Qalanlarından isə xəbər yoxdu. O, gözləri dolmuş halda Nübara yaxınlaşdı, onun qarşısında aşağı əyilərək sağ əliylə onun açıq qalmış gözlərini qapadı və sonra həyəti tərk etdi.

Xəqani hasardan adlayıb qonşu həyətə girdi. Bu zaman evin içində iki erməni olduğunu gördü. Onlar evi axtarırdılar və istədiklərini əldə edə bilmədikləri üçün əsəbiləşərək avtomat silahlarıyla evin içində hər tərəfə atəş açmağa başladılar. Xəqani fürsəti əldən verməyərək onların atəş səsinə avtomatını işə saldı. Və hər iki erməni dığası heyvan səsi çıxararaq yerə yıxıldı. Xəqani yaxınlaşıb onların da avtomatının patron daraqlarını götürdü, sonra başqa küçəyə keçdi. Polis işçisi əsl kinolarda olduğu kimi, təkbaşına şəhərdə düşmən əhatəsində “rembo”luq edirdi. Amma ailəsini tapa bilmədiyi üçün onun içində bir nigarançılıq, bir sıxıntı vardı. O, otaqdan çıxmaq istərkən qəflətən otağı böyük alov kürəsi bürüdü və güclü partlayış dalğası onu bir neçə metr kənara atdı. Onun əynindəki paltar od tutub

yanırdı. Başındakı papaq da alışdı və o, tez əynindəki buşlatı, papağı çıxarıb kənara tulladı. Görünür, tank evi məhv etmək üçün nişan alıbmış. Xəqani əynindəki yanan paltarı çıxararkən əlləri və üzü yandı. Sonra o, huşunu itirib döşəməyə yıxıldı. Qısa bir müddət keçdikdən sonra o, özünü ələ alıb həyətdə kimsəni görməyib evdən çıxaraq tövləyə girdi. Tövlədə uzun vaxt saxlanmaq onunçün təhlükəliydi. Çünki ermənilər hər an burunlarını tövləyə soxa bilərdilər. Xəqani tövlədə təxminən on-on beş dəqiqə qaldıqdan sonra özünü toparlayıb yenidən evlərinə gəldi. Bu dəfə evləri od tutub yanırdı. O, qonşu evin ətrafında təxminən 30-35 erməni gördü. Erməniləri görən kimi, ailəsinin yoxluğu, Nübar bacının al-qan içində gördüyü vəziyyəti yadına düşdü və “Əclaflar, bu torpaqlar sizə qismət olmayacaq! Bu yerlər sizin məzarınız olcaq!” deyə avtomat silahını ermənilərə tuşlayıb daraq boşalmayıncaya qədər əlini tətikdən çəkmədi. Bir neçə erməni dığası bağıraraq yerə yıxıldı. Sonra o, qaçaraq həyətlərin hasarlarından bir-bir adlayıb əvvəlki tövləyə gəldi. O, qaçarkən küçədə iki PDM və bir ZTR gördü. Bu döyüş maşınların nömrəsi görünmürdü. Çünki hərbi texnikanın nömrə olan yerləri parçalarla örtülmüşdü. Bu vaxt şəhərin polis bölməsi tərəfdən atışma səsi gəlirdi. Hər tərəfdə erməni silahlıları və rus hərbi texnikası vardı. Xəqani belə bir vəziyyətdə təkbaşına müqavimət göstərməyin yersiz olduğunu düşünüb şəhəri tərk etməyi qərara aldı. O, Əsgəran rayonu istiqamətinə hərəkət etməyi planlaşdırmışdı. Tövlədən çıxdı və qonşu küçəyə çıxmaq istərkən dəhşətli bağırtılar eşitdi. Küçənin ortasında dörd mülki vətəndaşın cəsədi qalmışdı. Xəqani ehtiyatla irəliləyərək küçəni adladı və bağırtı, qışqırtı gələn səmtə nəzər saldı. O, gördü ki, bir dəstə silahlı erməni uşaqlı-böyüklü olmaqla on beş-iyirmi nəfər şəhər sakinini bir yerə toplayaraq tonqalda yandırmaq istəyirlər. Bir erməni zabiti irəli yeriyib əlləri arxadan

bağlanmış bir gənci digər iki silahlının köməkliyi ilə qol-qıç edib yanan tonqala atdılar. Gəncin bağırtısı ərşə dirəndi, Xəqani bu dəhşətli mənzərəni görməmək üçün başını aşağı dikdi. “Allahım, bu nə vəhşilikdir?! İnsan deyilən məxluq bu qədər də amansız, qəddar, imansız olarmı?!” deyə polis işçisi nifrət və qəzəbindən avtomatı hazır vəziyyətə gətirib tətiyi çəkmək istədi. Amma nə fikirləşdisə, bu dəfə atəş açmadı. O, səssizcə dayanıb bir az da gözlədi. Sonra ermənilər iki azərbaycanlı əsgəri zorla qabağa çıxardılar. Erməni zabiti əsgərlərə yaxınlaşdı və ucadan qışqırdı: “Baxın, son dəfə bu işıqlı dünyaya baxın! Sizin bizi nişan alan o gözlərinizi çıxaracağam!” Və o, əlindəki vintaçanla əvvəlcə bir əsgərin hər iki gözünü, sonra da o biri əsgərin gözlərini çıxardı. Gözləri çıxarılmış əsgərlər ağrıdan bərkdən bağıraraq bayıldılar. Sonra həmin əsgərləri diri-diri tonqala atdılar. Tonqaldan tükürpədici qışqırıq və kəskin iyli qara tüstü havaya qalxdı.

Xəqani bu dəhşətli mənzərəni seyr edə bilməyib qonşu küçəyə keçdi. Əliş müəllimin darvazasının ağzında iki uşaq, bir qadın cəsədi vardı. On iki yaşlı qızı böyründə, dörd yaşlı oğlu isə kürəyində qətlə yetirilmişdi. Həmin küçədə tank tırtıllarının səsi eşidildi. Gecikmək olmazdı, erməni dığaları hər an onu yaxalaya bilərdi. Ona görə də Xəqani həyətdəki ağacların arasından o biri küçəyə nəzər saldı. O küçədə də səs-küy eşidilirdi. Xəqani ağacların arasından çıxıb qaçaraq küçəni keçmək istərkən, evlərdən əllərində qənimətlə çıxan iki erməni silahlısı onu gördü. Onların hər iki əli dolu olduğundan avtomat silahlarını çiyinlərindən asmışdılar və belə bir gözlənilməz vəziyyətlə qarşılaşacaqlarını heç düşünməmişdilər. Onlar azərbaycanlı polis işçisini görən kimi, əllərindəki şeyləri yerə ataraq dəlicəsinə bağırdılar. Amma Xəqaninin atdığı sərrast atəş bu vəhşi bağırtılara ani olaraq son qoydu. O, burdan yüz metr aralanmışdı ki,

qarşıda iki hərbi geyimli, furaşkasında tankçı nişanı olan iki rus zabiti gördü. Zabitlərdən biri mayor, o biri isə baş leytenantdı. Öz aralarında rusca danışırdılar. Onlar da Xəqanini gördülər, ancaq diqqət yetirmədilər. Yəqin onu da erməni silahlısı hesab etdilər. Zabitlər bir evə girdikdən sonra polis işçisi oradan uzaqlaşdı.

Günorta vaxtıydı. Artıq mülki ermənilər də Xocalı şəhərinə doluşmaqdaydılar. Onların məqsədi evləri talan etmək, qarajlarda qalmış maşınları ələ keçirməkdi. Xəqani Ağdamın Şelli kəndinə getməyi qərara aldı. Bunun üçün o, əvvəlcə ermənilərin yaşadığı Naxçıvanik kəndi istiqamətə hərəkət etməyi planlaşdırdı. O, çayı keçib meşə ilə Naxçıvanik yoluna tərəf getməyə başladı. Xəqani bir az getmişdi ki, qarşıda həmin istiqamətdə hərəkət edən təxminən 400-500 nəfər Xocalı sakinini gördü. O, arxadan dəstəni izləyirdi. Onlar Naxçıvanik yoluna çatanda, hər tərəfdən müxtəlif hərbi texnika və silahlardan atəşə məruz qaldılar. Ermənilər qabaqcadan xocalıların bu istiqamətdən gəlib keçdiklərini bildikləri üçün burada onlara pusqu qurmuşdular. Adamlar pərən-pərən düşdülər. Onların çoxusu həlak oldu, çox az qismi qaçıb yolu keçə bildi. Bir qismi isə meşəyə tərəf çəkildi. Xəqani də meşəyə girdi. Meşədə çoxlu meyit vardı. Onların hamısı işgəncəylə qətlə yetirildikləri aydınca görünürdü. Polis işçisi ölənlərin çoxusunu tanıyırdı: Allahyarov Etibar Baloğlan oğlu, Allahyarova Şəfiqə Zeynal qızı, Allahyarova Qəmzə Qaraş qızı, Nəbiyev Savalan Qaraş oğlu, Mürşüd Səməd oğlu, Eldarın 14-15 yaşında qızı, Şəfa kişi, Murad və Muradın 3 yaşlı uşağı, Şöhlət Həsənov... Meyitlərin sayı çoxdu. Xəqani tək hərəkət edirdi. O, meşəliyin qalın yerinə çatanda, Xocalıdan olan Tofiq Aslanovu, onun iki qızı və Əkbər Əliyevə rast gəldi. Artıq saat 23 radələriydi. Xəqani onları da götürüb birlikdə Əsgəran-Naxçıvanik yoluna tərəf hərəkət etdi. Polis işçisi yol yoldaşlarının yeriməyə

taqətləri qalmadıqlarını görüb onları kolluqda gizlətdi, özü isə yoluna davam etdi. Xəqani uşaqların ona dikilmiş ümidsiz baxışlarını gördükdə, bu baxışlara dözə bilməyib dedi:

- Mən sizi burada atıb getmirəm. Sizi burdan çıxarmaq üçün geri qayıdacağam, ya da arxanızca adam göndərəcəyəm. Amma bu kolluqdan heç yana getməyin. Tezliklə sizi burdan xilas edəcəyik.

Xəqani dayanmadan hərəkət edərək səhər saatlarında Ağdamın Əhmədalılar kəndinə çatdı. O, kolluqda qalan adamlar haqqında yerli camaata məlumat verdi. Onlar dərhal gedib kolluqda qalan dörd nəfəri də götürüb kəndə gətirdilər. Doqquz gündən sonra Xəqaninin ermənilər tərəfindən girov götürülmüş iki bacısı azad edildi. Amma qardaşı Xəzərlə anasını ermənilər buraxmadılar. Bacılarının dediyinə görə, onları Xankəndindəki uşaq bağçasında əsir saxlamışdılar. Bu günə qədər nə anasından, nə də qardaşından xəbər tuta bilməyən Xəqaninin gözləri hələ də yollardadır...

**26.05.2015**

## *Mühasirə*

*(Sənədli hekayə)*

***1992***-ci ilin avqust ayı idi. Bundan əvvəl ermənilər mütəmadi olaraq Ağdamın Şıxlar, Kosalar, Məlikli, Abdal-Gülablı, Güllücə, Mərzili, Mahrızlı, Yusifli, Qaradağlı, Kürdlər, Alıbəyli kəndlərinə hücum edirdilər, ancaq Ağdamın özünümüdafiə dəstələri tərəfindən düşmən həmən geri otuzdurulurdu.

Bu dəfə ermənilər Şelli kəndinə hücuma keçmişdilər. Kənd uğrunda qızğın döyüşlər gedirdi. Həmin vaxt Ağdamın digər kəndlərində də ermənilərin ardıcıl hücumlarının qarşısı rayonun polis idarəsinin əməkdaşları tərəfindən təşkil edilmiş dəstəsi, "Qatır Məmməd" ləqəbi ilə tanınan Yaqub Rzayevin, özünümüdafiə batalyonun komandiri Şirin

Mirzəyevin, Allahverdi Bağırovun, Fred Asifin (Asif Məhərrəmov) rəhbərlik etdikləri dəstələri və Milli Ordunun əsgərləri tərəfindən layiqincə alınırdı. Amma bu dəfə ermənilər həm hərbi texnika, həm də xeyli canlı qüvvə ilə hücuma keçmişdilər. Düşmənin fasiləsiz olaraq iriçaplı pulemyotlardan atdığı güllə və BMP-lərdən atılan mərmi atəşləri mövqelərimizdəki əsgərlərimizin sırasını get-gedə seyrəldirdi. İtkilərimiz anbaan çoxalırdı. Arxadan kömək gəlməsə, Şellini itirə bilərdik. Xüsusi təyinatlı dəstənin uşaqları bu döyüşdə şücaət göstərirdilər. Onlar Şellinin qərb istiqamətindəki mövqelərində qərar tutmuşdular. Dəstənin komandiri Elşad Ağayev idi. O, düşmənin hərbi texnikasının döyüşçülərə göz açmağa imkan vermədiyini görüb, yanındakı yoldaşının əlindən qumbaraatanı alıb sağ cinahdan onlara aramsız atəş açan PDM-ə doğru sürünməyə başladı. Artıq komandirlə piyada döyüş maşını arasında atəş məsafəsi yetərincəydi. Və Elşad bu fürsəti qaçırmayaraq onu nişan aldı. Açılan atəş düz hədəfə dəydi, PDM-dən qara tüstü çıxmağa başladı. Bu zaman arxadan uşaqların: -"Afərin, komandir! Halal olsun!" deyə səsləri eşidildi...

Döyüş meydanında çoxlu yaralılar vardı. Onları oradan çıxarmaq lazımdı. Amma dolu kimi yağan güllələrdən yaralılara yaxınlaşmaq mümkün deyildi. Bacarıqlı və cəsur komandir indiyə kimi döyüşçü dostlarını nə yarı yolda qoymuşdu, nə də ki köməyini onlardan əsirgəmişdi. Bu dəfə də belə oldu. O, yaralı döyüşçü yoldaşlarının ona tərəf uzanan əllərini və yalvarış dolu baxışlarını cavabsız qoymamağa qərara almışdı. Bu onun həyatı bahasına olsa da belə, yenə də onlara köməyə yetməliydi."Necə olursa-olsun onları odun-alovun içindən çıxaracağam. Yoldaşlarımı bu vəziyyətdə orda qoymağı kişiliyimə heç cür sığışdıra

bilmərəm, buna vicdanım da yol verməz!” deyə bölüm komandiri düşündü. Qalan döyüşçülərimiz geri çəkilmək istəyirdilər. Onlardan biri komandiri ucadan səslədi: “Komandir, oraya getmək ölüm deməkdir! Biz artıq mühasirə vəziyyətinə düşmüşük. Siz onlara köməyə getsəniz, geri qayıda bilməyəcəksiniz! Bilə-bilə özünüzü ölümün pəncəsinə atmayın!”

Elşad geri dönüb onu səsləyən əsgərin Fərhad olduğunu gördü. O, həmin Fərhad idi ki, Elşad onu iki dəfə ölümdən qurtarmışdı. Birinci dəfə Tərtər istiqamətində gedən döyüşlərdə, ikinci dəfə isə Laçında. Döyüşçü dostları Elşadı “gülədən qorxmayan komandir” deyə çağırırdılar. Doğrudan da Elşad bütün döyüşlərdə öndə olurdu ki, döyüşçüləri də ruhlandırsın. O, həmişə “güllə məndən qorxur” deyə gülərək uşaqlarla zarafatlaşardı...

“Mən getdim” deyə komandir sürünə-sürünə yaralılara doğru hərəkət etməyə başladı. Yağış kimi yağan güllələrdən baş qaldırmaq mümkün deyildi. Bu yerdə kiçik bir səhv hərəkət ölüm deməkdi. Odur ki, Elşad bacardıqca otların arasıyla çox diqqətlə hərəkət edirdi ki, düşmən snayperindən yayına bilsin. Komandir ehtiyatla yaralılardan birinə yaxınlaşdı. Güllə döyüşçünün hər iki qıçından və böyründən dəymişdi. O, yaralı döyüşçü Vüsalı sağ çiyninə alaraq, yenə də sürünə-sürünə geri, mövqelərimizə doğru hərəkət etdi. Yaralını uşaqlara təhvil verib, ikinci dəfə geri qayıdarkən Fərhad yenə dilləndi: “Komandir, bu çox təhlükəlidir! Biz özümüz də burada güvəndə deyilik, hər an bizi burdan əsir götürə bilərlər. Çünki biz tam mühasirə vəziyyətinə düşmüşük. Sursatımız da tükənmək üzrədir. Gəlin, birlikdə geri çəkiləyin!”

Komandir əsəbi və qəzəbli baxışlarla Fərhadı süzərək:

"Mən komandirəm, onları orada tək qoya bilmərəm. Qorxursunuzsa, geri çəkilə bilərsiniz. Mən qayıdıram. Cəsarəti olan varsa, arxamca gəlsin!" dedi. Cəsur komandir sürünə-sürünə təkrarən yaralı döyüşçü yoldaşlarının köməyinə can atdı. O, yarlılardan birinə yaxınlaşdı, gördü ki, vəziyyəti ağırdı, çoxlu qan itirmişdi. Rahidin yanında qan gölməçəsi yaranmışdı, ona bir neçə yerdən güllə dəymişdi. O, komandirini görəndə gülümsədi və astadan "çox sağ ol, komandir. Bilirdim ki, bizi darda qoymayacaqsınız. Ancaq indi vəziyyət çox pisdir, apara bilməyəcəksiniz. Məni burda buraxın, çünki ölürəm. Özünü qoru, komandir! Sən uşaqlara lazımsan. Mənimki, bura qədərmiş..." dedi. Komandir Rahidə ruhdan düşməmək, ümidini itirməmək üçün onunla zarafatlaşaraq dedi: "Sənə nə olub ki, belə ümidsiz danışırsan, Rahid?! Biz səninlə bundan da betər çətin anlar yaşamışıq. Tərtəri, Laçını, Ağdərəni, Qubadlını xatırlayırsanmı? İndiki durumun o vaxtkından qat-qat yaxşıdır. İndi səni də Vüsal kimi sağ-salamat buradan çıxaracağam".

- Komandir, lazım deyil, qoyun mən burada qalım. Bilirəm, bura mənim son mənzilimdir. Sizsə özünüzü xilas edin! Ancaq sizdən bir xahişim var: qoltuq cibimdə üç yaşlı oğlumun şəkli var. Onu çıxarıb mənə verin, - deyə Rahidin gözləri bulud kimi doldu.

Elşad tez əl atıb Rahidin qoltuq cibindən şəkli çıxarıb ona verdi. Rahid oğlunun şəklini əvvəlcə ürəyinin üstünə qoydu, sonra da öpüb gözlərinə sürtdü. Və qaytarıb komandirə verib dedi:

- Komandir, şəkli yoldaşım Nərminə verərsiniz və deyərsiniz ki, mən onların hər ikisini dünyalar qədər sevirəm. Oğlum Seymuru sizə əmanət edirəm, komandir. Həyat adama son

anda daha şirin gəlir. Amma heç ölmək istəmirəm!

- Sən ölməyəcəksən, Rahid! Mən səni buradan çıxaracağam. Həyatım bahasına olsa belə! - Komandir bərkdən qışqırdı.

- Yox, komandir, siz gedin. Mən sizə ancaq yük ola bilərəm. Onsuz da ölürəm. Yalvarıram, komandir, özünüzü xilas edin! Əl-vi-da!!! - Rahidin başı sağa əyildi.

- Ra-a-a-h-i-i-d-d!!! - Komandir yenidən qışqırdı və onu qucaqladı. Sonra sağ əliylə Rahidin gözlərini qapadı.

Rahidin meyitini kürəyinə alıb mövqeyimizə doğru sürünməyə başladı. Uşaqlara çatmağa 35-40 metr qalmış düşmən yenidən atəşə başladı. Artıq sürünmək də qorxulu idi. Komandir dayandı, güllələrin səngiməsini gözlədi. Ancaq güllələr yağış kimi ona doğru yağmaqda davam edirdi. Sən demə, düşmən Elşadı görübmüş və onu yoldaşlarından təcrid etmək üçün dayanmadan atəş açırdılar. Bu güllələrdən yayınmaq heç cür mümkün deyildi. Arxadan atılan güllələrdən biri komandirin sağ əlinə, biri sol qoluna dəydi, üçüncü güllə isə Elşadın kürəyindən dəyib sinəsindən çıxdı. Döyüşçü yoldaşları komandirin çətin vəziyyətdə olduğunu görürdülər. Amma ona kömək etmək üçün əllərindən bir şey gəlmirdi. Çox riskliydi. Hətta, komandirin iki dəfə ölümdən qurtardığı Fərhad da çarəsiz qalmışdı. O, komandirinə kömək edə bilmirdi. Fərhad məyus halda komandirə baxıb sanki gözləriylə demək istəyirdi: "bağışla məni, Elşad, sənə kömək edə bilmirəm. Buna görə məni qınama! Sənə kömək etmək, mənim də ölümüm deməkdir. Bağışla, məni komandir, bağışla!" Onlar get-gedə görünməz oldular. Çünki geri çəkilmək məcburiyyətində qalmışdılar...

Bundan sonra Elşad daşıdığı Rahidin meyitini kürəyindən yerə aşırdı və özü də arxası üstə uzanıb səmanın sonsuz

ənginliklərinə baxdı. "Yəni bu sondurmu?! Mən bu cür ölməyi heç vaxt arzulamamışam. Mən bu cür ölümə layiq deyiləm!" deyə düşündü.

Gülədən və ölümdən qorxmayan Elşad ilk dəfə olaraq özünü çarəsiz gördü, əvvəlki təkəbbürlülüyü bir anda yox olub getdi. O, özündən asılı olmayaraq bərkdən güldü. Amma Elşad indiyə kimi heç belə gülməmişdi. "Deyəsən, bu ölüm gülüşüdü!" deyə düşündü. İnsan çarəsiz qalanda bəzən bərkdən gülür, bəzən göz yaşları axıdır, bəzən də həyatda ən çox istədiyin bir anı və ya adamı xatırlayır. Həyatda ən pis şey insanın öz-özünə təsəlli vermək məcburiyyətində qalmasıdır. Bu yerdə komandir təsəlli olaraq düşündü ki, "kaş indi anamın bişirdiyi bir kasa dovğa olardı, içər və bir də son kərə anamın əllərindən öpərdim."

İnsan çarəsiz qalanda son anda Allah-təaladan kömək istəyir. O, adam ömründə heç onu Yaradanı xatırlamasa belə. Elşad da xəyalından ani olaraq: "Allahım, indi yeganə ümidim Sənədir! Sən özün mənə kömək et! Məni bu soysuzlara əsir etmə!" deyə keçirtdi. Bu vaxt Elşad sanki qeybdən amiranə bir səs eşitdi. O, səs dedi: "Ayağa qalx!"

Elşad bu səsi eşitcək, heç nə olmamış kimi ayağa qalxdı və var gücüylə bostanlığın içiylə qaçmağa başladı. Sanki ona İlahi bir güc, qüvvə gəlmişdi. Bədənində də heç bir ağrı hiss etmirdi. Həmin vaxt komandir Tanrının köməkliyi ilə erməni mühasirəsindən çıxaraq öz mövqeyimizə gəlib çatdı. Döyüşçü yoldaşları komandirlərini görcək heyrət içərisində bir ağızdan soruşdular:

- Komandir, siz oradan necə xilas oldunuz?! Biz sizi ... Əstəğfurullah!!!
- Məni ölümün pəncəsindən Rəbbim qurtardı. O, düşmənin gözlərini bağladı və mən qaçıb qurtuldum. Buna görə

Rəbbimə sonsuz şükürlər edirəm! O, həqiqətən də böyük Kəramət və Lütf sahibidir. O, hər şeyə qadirdir! Bunu kimsə unutmamalıdır! - Komandir amiranə tərzdə dedi.

Elşad baxışlarıyla Fərhadı axtardı. O, gözə görünməməkçün yoldaşlarının arxasında dayanmışdı. Amma buna baxmayaraq komandirin gözləri onu axtarıb tapdı. Fərhad komandirinin qınayıcı və nifrətli baxışlarına tab gətirə bilməyib başını aşağı dikdi. Bu vaxt Elşadın başı hərləndi, gözləri qaranlıq çaldı. Və bir də gözlərini Qaradağlı xəstəxanasında açdı...

Bu hadisədən sonra Elşad onu möcüzə nəticəsində düşmən mühasirəsindən çıxaran və ölümdən xilas edən, hər şeyə qadir, qalib və talib olan Uca Tanrının qüdrətinə, mərhəmətinə, lütfünə və kəramətinə sığındı.

**15.09.2015**

## *Qanlı məktub*

*(hekayə)*

**M**ənimlə görüşə gəlmiş xanım çantasından bir neçə məktub çıxarıb masanın üstünə qoydu.

- Cəmil müəllim, - dedi, - mən sizin sevgi və talelərlə bağlı iki kitabınızı oxumuşam. Açığını deyim, hətta göz yaşlarımı saxlaya bilmirdim. Elə bil ki, mənim həyatımı qələmə almısınız.

Ona minnətdarlığımı bildirib:

- Sağ olun, xanım. - dedim. - Müəllif üçün oxucusundan bu cür sözlər eşitmək çox xoşdur. Amma, bağışlayın çox yüksək qiymət verirsiniz. Mən sadəcə, sıradan bir yazaram.

- Bağışlayın, özümü təqdim etmədim. Adım Sənubərdir. Məni sizin yanınıza gəlməyə məcbur edən vəfasız bir eşq

macərasıdır. Qardaşım Zaur Qarabağda şəhid olub, qırxı təzəcə çıxıb.

- Allah cəmi şəhidlərimizə rəhmət eləsin! - deyə xanımın dərdinə şərik oldum, əyləşməyə yer göstərdim.

O, yorğun, qayğılı baxışlarını üzümə dikib dedi:

- Məni Zaurun şəhid olması o qədər yandırmamışdı, nəinki onun vəfasız sevgilisi yandırdı.- Sənubər xanım bu sözləri deyərkən göz yaşlarına hakim ola bilmədi. Ona təskinlik verib:

- Qardaş itkisi çox ağırdır, - dedim. - Allah yenə səbr versin! Amma qardaşınıza Allah-Təala şərəfli ölüm qismət eləyib. Zaur kimi qardaşınızla hər yerdə və hər zaman qürur duymalısınız. Siz də bilirsiniz ki, şəhidlərin yeri əbədi cənnətdir.

O, əlləri əsə-əsə çantasından daha bir məktub çıxarıb masamın üstünə qoydu. Dərdli adamlar kimi dərindən köks ötürüb:

- Cəmil müəllim, - dedi, - baxın, bu qanlı məktub Zaurun şəhid olduğu döyüşdən bir gün öncə, sevgilisinə yazdığı, ancaq ünvanına yetişmədiyi məktubudur. Şəhid olduqdan sonra cibindən çıxıb. Digər məktublar isə sevgilisi Aytənin qardaşıma yazdığı məktublardır. Mənə ən çox təsir edən Aytənin Zaurun ölümü ilə əlaqədar, heç olmazsa, telefon açıb mənə başsağlığı belə verməməsidi. O, ailəmizdə təkcə məni tanıyırdı. Qardaşım da onu sevdiyini evdə yalnız mənə söyləmişdi. Bu azmış kimi, Aytən Zaurun heç qırxı çıxmamış, yeni sevgilisi ilə bizə gələrək, qardaşımın ona yazdığı məktubları verdi və Zaurdakı məktublarını isə geri istədi. Mən bunu eşidəndə, sanki başımdan bir qazan qaynar su tökdün. Özümü saxlaya bilməyib, qızın üstünə qışqırdım:

- Səni dünyalar qədər sevən qardaşımın ölümünə acımadın, azca da olsa, heç üzülmədin. İndi hansı üzlə bura gəlmisən, ay həyasız! Məktublarını necə tələb edirsən? Sən bu

məktublarda yazılanlara layiq birisi deyilsən, ay ləçər! Sənin sevgin də özün kimi saxta imiş. Bunu bil ki, sən heç bir zaman xoşbəxt ola bilməyəcəksən! Çünki səni təmiz və ülvi bir məhəbbətlə sevən bir eşqə xəyanət etdin. Xəyanəti isə heç kəs bağışlamır. Hətta, Allah da! Qardaşım sənə necə də inanmışdı. Çox təəssüf! Sən eşqi, məhəbbəti əyləncə sandın. Yazıqlar olsun sənə!

Bundan sonra bir söz demədən "yeni sevgilisi"ylə çıxıb getdi...

Mən yenə ona təskinlik verib dedim:

- Narahat olmayın, Sənubər xanım. Şəhiddən yazmaq həm böyük savab, həm də şərəfli işdir. Mən Zaur haqqında hökmən yazacağam.

Mənim bu sözlərimdən sonra Sənubər xanım qayğılı, tutqun çöhrəsi canlandı, yorğun baxışlarında mübhəm bir ümid qığılcımları oynaşdı.

- Cəmil müəllim, - dedi. - əgər nə vaxtsa qardaşımın döyüş yolu barədə nəsə bir şey yazmaq istəsəniz, onun Elxan adında silahdaşı var, ondan məlumat ala bilərsiniz. Mən Elxanın ünvanını və telefonunu sizə verəcəyəm. Əgər istəsəniz, onunla əlaqə saxlaya bilərsiniz. Elxan bizi heç unutmur, tez-tez bizə baş çəkir. Allah ondan razı olsun! Biz də Zaurun ətrini ondan alırıq, - Sənubər xanım çantasından Elxanın telefon nömrəsini və ünvanını çıxarıb mənə verərkən gözləri yenidən doldu.

Mən Sənubər xanımı yola saldıqdan sonra, onun verdiyi məktubları bir-bir nəzərdən keçirdim.

Aytənin Zaura yazdığı məktublardan birinin məzmunu belə idi*: "Salam, əzizim! Bu məktubu gecəyarısı yazıram. Hamı yatıb, mən isə səni düşündüyümdən yata bilmədim. Səni nə qədər sevdiyimi düşünə bilməzsən, Zaur. İndi səninlə ilk görüşümüzdəki "Sənsiz" mahnısını dinləyirəm. O zaman sən dedin ki, qoy bu mahnı bizim eşqimizin əbədi simvolu olsun.*

*Nə qədər çalışdımsa, yata bilmədim, elə hey sən gəlib durdun gözlərimin önündə. Biz ayrılarkən mənə dediyin: “Aytən, bu sevgi əbədi sevgidir. Bunu bilməyin vacibdir. Mən vəfasız, etibarsız insanlara və sevgiyə nifrət edirəm.” sözləri məni daim duyğulandırır. Çünki elə mən də eyni ilə sənin kimi düşünürəm, Zaur. Mən sənsiz yaşaya bilmərəm! İlk görüşümüzdəki sözlərin mənim həyata və insanlara baxışımı dəyişdi. İndi tamamilə fərqli düşünürəm. Sənin dediyin kimi, “sevən insan hisslərlə deyil, həmişə məntiqlə düşünməlidir.” Bu, mənim sevgimin devizi olacaq həmişə. Səninçün çox darıxmışam. Sənin həsrətin içimi göynədir. Həsrətin bir bulud kimi məni qucaqlayıb. Sənsiz keçən hər gün, hər saat mənə illər kimi gəlir. Özümlə bacara bilmirəm. Bilmirəm, bu nə təlaş, nə sıxıntıdır içimdə. Hərdən səni qəlbimdən qeyb olmuş kimi hiss edirəm. Qorxuram ki, birdən fələk bizi ayırar. Sonra üzümü Allaha tutub yalvarıram ki, sənsizliyi mənə qismət etməsin! Mənsizliyi də Tanrı sənə göstərməsin! Amin! Hər axşam sənin ağuşunda xumarlanıb yuxuya getmək istərəm...*

***Sənsiz yaşaya bilməyən Aytənin.”***

Aytənin Zaura yazdığı bütün məktublarında onu dəlicəsinə sevdiyini açıqca etiraf edirdi...

Sonra mən Zaurun Aytənə yazdığı, ancaq sevgilisinə yetişmədiyi qanlı məktubu açıb oxuyuram:*“Salam, Bəbəyim! Burada hava çox soyuqdur. İndi dağın zirvəsindəyəm. Bu məktubu da sevgimiz kimi uca olan zirvədən yazıram. Əllərim donub, amma səni düşündükcə, bədənimə bir istilik gəlir. İsti nəfəsindən ötrü elə darıxmışam ki...*

*Gülüm, yəqin indi yatmısan. Amma mən söz verdiyim kimi səni, ailəmi, vətənimi qoruyuram. Sabahkı həlledici döyüşə hazırlaşırıq. Sabahkı döyüşdən çox şey aslıdır. Mən əminəm*

*ki, keçən dəfə olduğu kimi, bu dəfə də ermənilərin ağız-burnunu ovuşduracağıq. Döyüş əzmimiz də yüksəkdir. Bu bizim üçün çox mühüm bir döyüş olacaq.*

*Soyuq olmasına baxmayaraq, hava ayazdır. Göylərə baxıb, ulduzlara bənzədiyini, kövrək üzünü, utancaq baxışlarını xatırlayıram. Son dəfə səndən ayrılanda, gözlərimin içinə baxmadan, başını əyərək, utanaraq sakitcə "səni sevirəm" dediyin anı, məqamı düşünürəm. Əlinin soyuqluğunu duyanda, isitdiyim o əllərdən ötrü elə darıxmışam ki...*

*Son dəfə ayrılanda gözlərindən yaş axdığını görmüşdüm. Niyə ağladın ki? Ağlama... Səbr elə... Tezliklə erməni dığalarını torpaqlarımızdan iti qovan kimi qovub, yenidən sənə qayıdacağam, əzizim! Geri qayıdıb mənim üçün axıtdığın o, göz yaşlarını kirpiklərimlə siləcəyəm. Sənsiz həyatım qarın altında qalmış boynu bükük bənövşə kimidir.*

*Bu ayrılıq keçicidir, sonunda biz yenə də bir yerdə olacayıq. Əgər birdən... birdən qayıtmasam, məzarımın üstündə ağlama! Məzarımı qucaqla, amma ağlama!!! Mənim üçün üzülmə. Sən məni görməsən də, mən səni həmişə görəcəyəm. Çünki şəhidlər ölməzdilər! Əgər mən ölərəmsə, qoy Vətənimin başı sağ olsun!!! Öpürəm, əzizim. Tezliklə Bakıda görüşənədək!*

***İmza: Sənin Zaurun. 14.12.1993."***

***

Ertəsi gün Elxan bəyə telefon açdım. Sənubər xanım onu məlumatlandırdığı üçün görüşməyimizə problem yaranmadı.

Səhərisi Elxanla redaksiyada görüşdük. O, Zaur haqqında elə həvəslə, elə şövqlə danışırdı ki, sanki kitabdan hekayə və ya povest oxuyurdu. Elxanın öz sevimli dostu və

silahdaşı barədə söylədiyi şirin və ibrətamiz söhbətdən doymaq olmurdu. Məni ən çox maraqlandıran isə leytenant Əliyev Zaur Novruz oğlunun Martuni istiqamətində gedən son döyüş əməliyyatında göstərdiyi igidlikdi. Bu döyüş 15 dekabr 1993 -cü ildə olmuşdu. Elxan bu barədə müfəssəl danışdı: "Döyüşdən bir gün əvvəl biz uşaqlarla bir yerə toplaşıb, Zauru evlərinə yola salmaq istəyirdik. Dekabrın 27 -də bacısının toyu olacaqdı. Onlar ailədə iki bacı, bir qardaş idilər. Zaur evin kişisiydi. Ailənin ağırlığı onun çiynindəydi. Çünki atası bir il öncə avtomobil qəzasında həyatını itirmişdi. Bacısının toyunu da Zaur edəcəkdi. Nə qədər cəhd göstərsək də, onu evə göndərə bilmədik. Dedi ki, "siz burada vuruşacaqsınız, mənsə toyda yeyib-içib şənlənəcəyəm?! Bunu kişiliyimə sığışdıra bilmərəm. Getməyinə gedəcəyəm, ancaq qoyun, bu döyüşdə də dığaların ağız-burnunu bir yaxşıca ovuşduraq, sonrasına baxarıq. Sabahkı döyüşdə ermənilərə elə bir dərs vermək lazımdır ki, bizə qarşı bir də hücuma keçməyi ağıllarına belə gətirməsinlər..."

Dekabrın 15-də Martuni istiqamətində indiyə kimi görünməmiş döyüş oldu. Düzü, ermənilərin bu cür hücumunu gözləmirdik. Çünki onlar bu dəfə döyüş texnikaları ilə hücuma keçmişdilər. Biz isə avtomat, əl pulemyotu və qumbaraatanlarla silahlanmışdıq. Bizə köməyə döyüş texnikası gələcəyinə söz versələr də, gəlmədi. Düşmən sayca da bizdən çox idi. Qeyri bərabər döyüşdə uşaqlarımız əsl fədakarlıq, əsl qəhrəmanlıq göstərdilər. Həmin döyüşdə onların əksəriyyəti şəhid olsalar da, bircə addım da geri çəkilmədilər. Döyüş sursatımız get-gedə qurtarmaq üzrə idi. İtgilərimiz çox idi. Biz döyüş sursatı çatışmadığından həlak olmuş yoldaşlarımızın silahlarından istifadə etməli olurduq. Kömək üçün ratsiya ilə arxaya xəbər versək də, ancaq hələ də kömək gəlmirdi. Bunu görən Zaur daha itki verməmək üçün uşaqları toplayıb dedi ki, hamı geri çəkilsin. O, döyüş

meydanında tək qalacaq və yoldaşları təhlükəsiz yerə çəkilənə qədər erməniləri ləngidəcək. Amma uşaqların heç birisi buna razı olmadı. Dedilər ki, ölsək də, bir yerdə öləcəyik, ancaq geri çəkilməyəcəyik! Bu sözdən sonra cəsur leytenant uşaqları bir-bir bağrına basıb dedi: “Elə isə, haydı igidlər! Vətən uğrunda, Torpaq uğrunda! Şəhid olmağa irəli! Qoy Vətənimiz sağ olsun!” Bundan sonra hamımıza elə bil ki, güc gəldi, içimizdəki qorxu deyilən hiss bir andaca qeyb oldu. Zaur çox sərrast atırdı, demək olar ki, gülləsi boşa çıxmırdı. Atdığı hər güllə ilə erməniləri cəhənnəmlik edirdi. Döyüşün şiddətli yerində sol cinahdan bizi mühasirəyə almaq üçün bir BMP göründü. Zaur dönüb qumbaraatan döyüşçü yoldaşımıza baxdı. O, arxası üstə uzanmışdı, qumbaraatan isə sinəsinə düşmüşdü. Zaur cəld sürünərək ona yaxınlaşdı və əlini boynuna qoydu. Sonra mənə tərəf dönərək, başını buladı. O, qumbaraatanı götürüb BMP -ni nişan aldı. BMP -dən qara tüstü çıxdı və hərəkət etməyib yerində qaldı. Bu zaman özümdən asılı olmayaraq, “Afərin, Zaur!” - deyə qışqırdım. Elə bu zaman onu çoxdan hədəfə almağa çalışan erməni snayperi alçaq və mənfur istəyinə çatdı. Düşmən snayperindən atılan güllə Zaurun sevgi, məhəbbət dolu qəlbini al-qana buladı. Həmin andaca Zaurun başı sinəsinə əyildi. Bunu görən kimi ona tərəf süründüm, gec idi. O, keçinmişdi. Həmişə yoldaşlarına: “Ölüm məndən qorxur, o mənə yaxın gələ bilməz!” deyən Zaur artıq əbədiyyətə qovuşmuşdu. Bu vaxt ikinci güllə atıldı. Sağ qolumda kəskin ağrı hiss etdim, sonra gözlərim qaraldı. Ondan sonra gözlərimi bir də əsir düşərgəsində açdım. Əgər adım Qırmızı Xaç Komitəsinin siyahısında olmasaydı, ermənilər məni güllələyəcəkdilər. Sonradan öyrəndim ki, həmin döyüşdə bütün silahdaşlarım şəhid olub.”

Araya dərin bir sükut çökdü. Elxan dərindən köks ötürdü. Ona baxdım. Gözlərində yaş giləri donub qalmışdı.

Həmin anda düşündüm ki, hələ də sona yetməyən Qarabağ savaşı gör bir nə qədər Zaur kimi igid və cəsur oğullarımızın təravətli gənclik çağlarına, həyatdan doymayan, ondan yetərincə kam almayan, neçə-neçə yerinə yetməyən arzulara, nakam sevgilərə, mənzil başına çatmayan neçə-neçə yolçunun həyatına son qoyub...

Elxan döyüş dostunun ölümündən sonra cibindən çıxan qanlı məktuba tərəf əyilib muncuq kimi bir-birinin ardınca düzülmüş sətirlərə diqqət yetirdi. O uzaq və soyuq dekabr günlərindən bugünümüzə boylanan bu sətirlərdən şəhid Zaurun isti nəfəsini, ətrini duydu, sevən qəlbinin çırpıntılarını eşitdi. Sanki dünyalar qədər sevdiyi bir insanı bağrına basırmış kimi. Masanın üstündəki al qana bulaşmış bir parça kağızı - dostunun son yadigarı olan bu məktubu götürüb ürəyinin başına qoydu, sonra onu titrəyən dodaqlarına sürtdü, dolmuş qüssəli gözlərini dolandırıb mənə baxdı:

- Müəllim, bunu oxumusanmı? - dedi.
- Oxumuşam, Elxan qardaş. - dedim.

Onun qalın qaşları çatıldı, güllə çapıxlı üzünün mərdanə cizgiləri qabardı. Gözlərini balıq kimi çırpınan canlı sətirlərdən çəkmədən:

- Y-o-o-o-x, müəllim, - dedi. - Bu, adi məktub deyil. Bu, Vətən haqqında, saf sevgi haqqında, vəfa, sədaqət, insan münasibətləri haqqında bir himndir. Bu qalibiyyət nəğməsidir. Nə əcəb Sənubər xanım bu məktubu mənə göstərməyib?

O, bu sözləri deyib tez cibindən kağız-qələm çıxardı. Qanlı məktubun mətnini səliqə ilə dəftərçəsinə köçürtdü və mənimlə xudahafizləşib getdi.

***

... Günlər keçdi. Şəhid Zaur haqqında mətbuatda silsilə yazılarla çıxış etdim. Sənubər xanım redaksiyamıza gəlib

qardaşı barədə yazılarıma görə səmimi minnətdarlığını bildirdi. Bu söz-söhbətdən bir neçə il sonra, qarlı bir qış axşamı mobil telefonuma zəng gəldi:

- Salam, Cəmil müəllim! Axşamınız xeyir olsun! - Bu, incə, məlahətli bir qadın səsiydi.

- Salam... Eşidirəm. xanım, - dedim.

- Tanımadınız?... Mən şəhid Zaurun bacısıyam, Sənubərəm. Siz...

- Aaaa... Sənubər xanım xoş gördük. Necəsiniz?

- Sağ olun, yaxşıyam. Cəmil müəllim, sizdən bir şey soruşmaq istəyirəm. O zaman siz şəhid qardaşımın qanlı məktubunun üzünü köçürüb özünüzdə saxlamamışsınız ki?!

Mən yaddaşıma əl gəzdirib, xeyir dedim. Söylədim ki, şəhidin məktubları, o cümlədən qanlı məktub barədə yazılarımda söz açmışam. Lakin bütüövlükdə həmin qanlı məktubun üzünü köçürüb özümdə saxlamamışam.

Sənubər xanım:

- Axı, - dedi, - o məktubu sizdən başqa mən heç kimə verməmişəm...

Sənubər xanımın bu sözü məni xeyli düşündürdü. Açığı bir az da həyəcanlandım.

- Xanım, nəsə bir şey olub?!

- Sizə məlumat verərəm. - deyə o, telefonunu qapadı və məni intizar içində qoydu.

Bir neçə gündən sonra Sənubər xanım redaksiyamıza gəlib əhvalatı mənə danışdı. Onun şəhid qardaşının vaxtilə qulluq etdiyi hərbi hissəyə qonaq çağırıldığını dedi və xahiş etdi ki, mən də onunla gedim. Ertəsi gün biz həmin hərbi hissədə olarkən şəxsi heyət bizi səmimi qarşıladı. Sənubər xanım əsgərlər qarşısında çıxış edərək şəhid qardaşı haqqında xatirələrini söylədi. Biz hərbi hissənin qırmızı guşəsində olarkən nə görsək yaxşıdır?! İgid döyüşçü, şəhid Əliyev Zaur Novruz oğlunun həmin o, qanlı məktubun qızıl

suyuna çəkilmiş mətni zər haşiyəli bir çərçivəyə salınaraq divardan asılmışdı. Hissədə təzə qulluq edən əsgərlər, elə gənc zabitlərin özləri də bu qanlı məktubun önündə ayaq saxlayıb onu oxuyur, mətni dəftərçələrinə köçürürdülər. Mənim heyrətləndiyimi görən hərbi hissənin komandiri dedi ki, bu məktub qalın-qalın romanlara bərabərdir, böyük tərbiyəvi əhəmiyyətə malikdir. Əsil məhəbbət haqqında yığcam bir dastandır. Bu məktub hissəmizdə neçə-neçə siyasi təbliğatçıların görə bilmədiyi bir işi görür. Şəhid qanına bulaşmış, rəngi solub saralmış bu məktub, inanın ki, böyük təsir gücünə malikdir. Hissəmizdən tərxis olunan əsgərlər evlərinə qayıdarkən bu məktubun mətnini bir ərməğan kimi özləriylə aparırlar. Lap elə bu yaxınlarda düşmən snayperinin gülləsinə tuş gələrək şəhid olan bir əsgərimizin cibindən bu zər haşiyəli ramkadakı qanlı məktubun mətni çıxmışdı...

Hərbi hissənin komandirinin bu sözlərindən təsirlənən Sənubər xanım ehmalca qolumdan yapışıb:

- Cəmil müəllim, - dedi, - Qurumalı işdir, bu məktub hərbi hissənin əlinə necə düşə bilər?! Bu möcüzədir...

Elə bu an şəhid Zaur Əliyevin dostu, silahdaşı Elxanın redaksiyamızda olarkən həmin məktubun üzünü necə bir təlaşla köçürdüyü yadıma düşdü. Bunu Sənubər xanıma deyəndə o, dolmuş gözlərini sıxıb: “Artıq Elxan bu həyatda yoxdur, - dedi. - Bir ildir ki, o dünyasını dəyişib. Sinəsində gəzdirdiyi qəlpələr öz işini gördü...”

Bu ara komandir bizə yaxınlaşıb qanlı məktubun hərbi hissəyə necə çatdırılmağı tarixçəsindən danışdı. Dedi ki, ortaboy, qaraşin bir kişiydi. Üzündə güllə çapıxları vardı. Hiss olunurdu ki, köhnə cəbhəçidir. Özü də bizim hissənin veteranıdır. O, şəhid dostunun bu qanlı məktubunu verib dedi: “Bu məktub Azərbaycan xalqının milli sərvətidir. Belə bir sərvəti xalqdan gizlətmək olmaz. Qoy hərbi hissəyə gələn yeni-yeni nəsillər bu sərvətdən barınsınlar.

Komandir əlavə edib dedi: - Məktubu verən o xəstəhal kişidən adını soruşanda dedi ki, şəhidin dostuyam, bəxtinə şəhidlik qismət olmayan bir ovuc torpağam, heç kiməm...

Mənim gözlərim doldu...  "Afərin, Elxan, - dedim, - sən millət, xalq qarşısında öz borcunu yerinə yetirdin. Yəqin ki, rahat yatırsan... Sən lazım olan işi bizim hamımızdan yaxşı gördün..."

Biz komandirlə xudahafizləşəndə o, qeyri-adi sualla Sənubər xanıma müraciət etdi.

- Şəhid Zaur Əliyevin sevgilisi Aytən xanım necədir? Yəqin onunçün həyat ağır keçir, eləmi?!

Sənubər xanımla bir-birimizin üzünə baxıb qaldıq. Nə deyək, bu sualın cavabını necə izah edək?!

Sənubər xanım dolmuş gözlərini komandirdən yayındıraraq:

- Sağ olun, yaxşıdır, - dedi. - Sonra əlindəki qərənfil dəstəsini ehmalca qanlı məktubun önünə qoydu, bir xeyli qardaşının əlyazmasının qarşısında ayaq saxlayıb onun yazdığı sətirlərdə döyünən ürəyinə qulaq verdi... Və üzünü mənə tərəf tutub:

- Müəllim, gedək, - dedi.

# *Qəndəharda “ov” əməliyyatı*

*(hekayə)*

Əfqanıstanda sovet-mücahid qarşıdurmasının ən qanlı çağlarıydı. Əfqan hərbi hava qüvvələrinin mücahidlərə endirdiyi hava zərbələrinə baxmayaraq, bir çox bölgələrə rahat getmək olmurdu. İstər əfqan piyada qoşunları, istərsə də, sovet qoşunları Kabildən kənar bölgələrə hərəkət edərkən tez-tez mücahidlərin pusqusuna düşürdülər. Belə döyüşlərdə hər iki tərəfdən xeyli itki olurdu.

Bir gün Əfqan hərbi hava qüvvələrinin Qərargah Mərkəzinə verdikləri statistik məlumatları general Yasenyuk Sergeyeviç nəzərdən keçirərkən gülməli bir vəziyyətin şahidi oldu. O, əfqanların Qərargah Mərkəzinə təqdim etdiyi məlumatların hamısını diqqətlə nəzərdən keçirdikdən sonra, növbəti hərbi müşavirədə üzünü sovet hərbi heyətin üzvlərinə tutub gülərək dedi:

- Yoldaşlar, mən əfqanların bizə verdikləri statistik məlumatları izlədikdən sonra belə qənaətə gəldim ki, Əfqanıstanda nə bir mücahid, nə də bir mülki vətəndaş qalmayıb. Yəni bütün Əfqanıstan bu müharibədə mücahidləriylə birlikdə məhv olub. Əgər bu rəqəmlər doğrudursa, belə olan halda indi biz kiminlə döyüşürük? Hər gün hərbi birləşmələrimizə kimlər hücum edir?! Bizi hər gün pusquya düşürən hansı qüvvələrdir?! Digər tərəfdən kəşfiyyatımızın bizə verdiyi məlumata görə, son zamanlarda Qəndəhar vilayətində istər sovet ordusunun, istərsə də əfqan ordusunun hərbi texnikasının regionlara sərbəst hərəkəti mümkünsüz olub. Bu bölgədə mücahidlər günü-gündən fəallaşmağa başlayıb. Nəzərinizə çatdırım ki, son bir ay ərzində bu bölgədə həm sovet, həm də əfqan ordusu xeyli sayda hərbi texnika və canlı qüvvə itirib. Bu artıq çox ciddi məsələdir. Bu barədə yuxarıdan kəskin əmr var. Bu bölgə tezliklə mücahidlərdən təmizlənməlidir!

Bütün heyət sakitcə bir-birinə baxdı. Kimsə bir söz deyə bilmədi. Hərbi heyətin susduğunu görən general sözünü davam etməli oldu:

- Buradan belə çıxır ki, əfqan həmkarlarımız bizə yalan məlumat verir. Biz isə bu məlumatların nə dərəcədə doğru olub, olmadığını hökmən yoxlamalıyıq. Polkovnik Nikolay Zaxaroviç, sabaha MİQ-ləri hazırla. Qəndəhara uçuşa hazırlaşın. Mən özüm də sizinlə uçacağam.

- Yoldaş general, sizin bu bölgəyə uçmağınız çox risklidir. Orada hər an həyatınıza təhlükə yarana bilər. Əgər icazə versəydiniz... - polkovnik sözünü tamamlaya bilmədi.

General Sergeyeviç polkovnik Nikolay Zaxaroviçin sözünü kəsərək, əsəbi halda bildirdi:

- Polkovnik Zaxaroviç, hər halda bizim burda müharibədə olduğumuzu unudursunuz. Müharibə özü elə təhlükə deməkdir də. Buna görə də, əsgər və zabit bütün təhlükələrə

qarşı həmişə hazır olmalıdır. Gördüyünüz kimi, bizə verilən rəqəmlər də ortadadır, hazırkı mənzərə də. Biz bu məlumatların nə dərəcədə doğru olub-olmadığını hökmən yoxlamalıyıq. Bu barədə sözü olan varmı? Təklifiniz yoxsa, çıxa bilərsiniz! Müşavirə bitmişdir!

Nikolay Zaxaroviç generalın əmrinə əsasən sabah Qəndəhara uçacaq bombardmançı MİQ-lərin son hazırlığını yoxlamaq üçün anqara getdi. Yolda o, pilot heyətinin komandiri, polkovnik Aleksey Petroviçlə rastlaşdı. Nikolay general Yasenyukun müşavirədəki fikrini Alekseyə də bildirdi. Aleksey Petroviç təəccüblə dedi:

- Nikolay Zaxaroviç, indiki zamanda Qəndəhara uçuş çox təhlükəlidir. Son aylar orada mücahidlər xeyli fəallaşıblar, hava uçuşlarına ciddi nəzarət edirlər. Keçən ay həmin regionda iki vertolyotumuzun vurulduğu sizə də məlumdur. Birdən-birə generalın o bölgəyə uçuşu bizimçün sıxıntı yaradacaq. Çalışın, generalı fikrindən döndərəsiniz.

- Siz də bilirsiniz ki, Sergeyeviçi fikrindən kimsə döndərə bilməz. Mən də Qəndəhara uçuşun çox təhlükəli olduğunu onun nəzərinə çatdırdım, ancaq məni dinləmədi. - polkovnik Zaxaroviç məyus halda bildirdi.

- Elə isə generalı fikrindən döndərmək üçün general-mayor Mixail Antonoviçə müraciət edin. Yoldaş Antonoviç Yasenyukun dilini yaxşı bilir. Onların bir-biriylə çox yaxın, hətta ailəvi dost olduğunu yaxşı bilirəm. Generalı Qəndəhara uçuş fikrindən ancaq Mixail Antonoviç vaz keçirə bilər. Yoxsa, başqa birisini tanımıram, - deyə polkovnik Aleksey Petroviç təəssüf hissiylə qeyd etdi.

Nəsə, general-mayor Aleksey Petroviç də general Yasenyuk Sergeyeviçi Qəndəhara uçuş fikrindən döndərə bilmədi.

Ertəsi gün uçuşa hazırlıq zamanı diviziya komandiri, general-mayor Vladimir Juravlyov general Yasenyuk Sergeyeviçə yaxınlaşıb dedi:

- Yoldaş Sergeyeviç, bəlkə, siz uçmayasınız?

- Xeyr, uçacağam. Əfqanların haranı bombalamalarını öz gözlərimlə görməliyəm! Mən onların bizə verdikləri məlumatlara daha inanmıram, - deyə general əsəbi halda cavab verdi.

- Yodaş general, deyirəm, bəlkə sizi iki qırıcı müşayiət etsin? Bu sizin üçün daha təhlükəsiz olar.

- Yoldaş Juravlyov, birinci dəfə deyil ki, uçuram. Əlavə qırıcılara ehtiyac yoxdur. - general Yasenyuk MİQ-in kabinəsinə qalxdı.

O, kabinədə yerini rahatladıqdan sonra əlini yerdəki hərbi heyətə yellədi. General özü də as pilotlardandı. O, dəfələrlə Əfqanıstanın ən qızğın bölgələri olan Qəndəhara, Herata, Məzari-Şərifə, Paktiyaya, Calalabada uğurlu uçuşlar etmişdi. General xaraktercə yaxşı adamdı; hamıyla mehriban danışar, hamıyla kef-əhval tutardı, tabeçiliyindəkilərə qarşı qayğıkeş və tələbkardı. O, cəsur və qorxmazdı...

General Yasenyuk Sergeyeviç MİQ-lər dördlüyündə sonuncu təyyarənin sükanı arxasındaydı. Həm onu yola salan zabitlər, həm də generalın özü hardan biləydi ki, bu onun son uçuşu olacaq...

Artıq çox böyük döyüş təcrübəsinə malik olan mücahidlərin öz döyüş taktikaları vardı. Onlar əvvəlcə ərazi üzərində kəşfiyyat və tanıma uçuşu həyata keçirən təyyarələrin sayının dörd olduğuna əmin olduqdan sonra, ilk şığıyan 3 təyyarəyə atəş açmadılar. Həmin üç təyyarə bombalarını əraziyə boşaldıb yenidən yuxarı millləndilər. Mücahidlər dördüncü təyyarəni, generalın idarə etdiyi təyyarəni DŞK ilə hədəfə aldılar. “Ov” üçün gedən general çox asanlıqla özü “ovlanmış” oldu. Çünki şığıma

vəziyyətindən çıxan və arxasınca onu qoruyan birinin olmadığı təyyarə göydə dayanıb sanki, “gəl, məni vur!” deyirdi. Bu zaman general Yasenyukun son sözü eşidilir: “Yüksəklik 600 metr, məni vurdular, katapult edirəm!” Generalın bu son cümləsi Əfqanıstanda olan bütün Sovet personalını şoka saldı. Hamı heyrət içindəydi. Heç kəs generalın ya diri, ya da ölü halda mücahidlərin əlinə keçməsini istəmirdi. Ona görə də həmin gün axşama qədər həm sovet, həm də əfqan hərbi hava qüvvələri generalı xilasetmə əməliyyatına cəlb edildi. Amma bütün hava hərbi əməliyyatları nəticəsiz oldu. Belə olan halda, ertəsi gün Cənub istiqamətində quru qoşunlarından ibarət geniş hərbi əməliyyat başladıldı. Qərargah Mərkəzinə generalın həyat yoldaşı Mariya Vasiliyevna da gəlmişdi. O, çox pərişan və həyəcanlıydı, gözlərinin yaşı qurumurdu. Hamı onu sakitləşdirməyə çalışır, böyük acısına şərik çıxırdı. Amma bütün bu təsəllilər Mariya Vasiliyevnanı sakitləşdirməyə yetmirdi, onu ovundurmaq mümkünsüzdü. O, otuz beş illik həyat yoldaşı Yasenyuku çox istəyirdi. Bu illər ərzində Mariya ərindən heç inciməmiş, ondan bircə kəlmə belə acı söz eşitməmişdi. Çətin günlərini birgə adlamışdılar...

Mücahidlərlə altı gün şiddətli döyüş getdi. Döyüşün üçüncü günü mücahidlər sovet və əfqanların çoxsaylı hərbi hava qüvvələrinin və quru qoşunlarının texnikası qarşısında duruş gətirə bilməyib geri çəkilməyə məcbur oldular. Üçüncü gün generalın katapult etdiyi oturacaq tapıldı. Oturacağın söykənəcəyini güllə deşib keçmişdi. Belə çıxırdı ki, o, hələ göydəykən gülləylə vurulub. Amma həmin gün generalın cəsədini tapmaq mümkün olmadı. Səhərisi gün həmin əraziyə vertolyotlarla desant çıxarıldı. Kremldən kəskin əmr vardı. Nəyin bahasına olursa olsun generalın cəsədi tapılmalıydı.

Beşinci gün həmin əraziyə yenə də vertolyotla desant çıxarıldı. Desantın tərkibində iki azərbaycanlı leytenant da vardı. Onlardan biri Abdulla, digəri isə Qurban adlı leytenantdı. Amma həmin gün də itkisiz ötüşmədi. Bugünki döyüş zamanı vertolyot alayının komandiri Vadim Solovyov mücahidlərin atdığı raket vasitəsiylə vuruldu. Buna baxmayaraq generalın cəsədi qumun altında basdırılmış halda tapıldı. Görünür, mücahidlər onun general olduğunu bilməyiblər, yoxsa onlar yüksək rütbəli sovet zabitlərinin istər ölüsünü, istərsə də dirisni vermirdilər. Sonra generalın vurulmuş təyyarəsini tapdılar. Təyyarədən ancaq gövdənin qabaq hissəsi və bir də sağ qanadı qalmışdı. Qanadın yanından bir kasset də tapıldı. Həmin kassetə baxış keçirildi. Bunu mücahidlər çəkərək qəsdən buraya buraxmışdılar. Onlar təyyarəni vurduqdan sonra onun üstünə çıxaraq sevinclərini əlləriylə, çığır-bağır salmaqla, havaya atəş açmaqla qeyd edirdilər. Onlar sovet hərbçilərinə müxtəlif cür hədələyici işarələr etməkdən belə çəkinməmişdilər.

Generalın cəsədi Qərargah Mərkəzinə gətirildi və orada bütün zabit heyətiylə vida töreni keçirildi. Sonra meyit təyyarəylə generalın həyat yoldaşı Mariya Vasiliyevna başda olmaqla Moskvaya yola salındı.

***09.06.2015***

# *Aqil yanğısı*

Azərbaycanın Milli Qəhrəmanı **Aqil Quliyevin** əziz xatirəsinə ithaf edirəm.

***(Esse)***

Şair-publisist Şəmsi Vəfadar Aqil haqqında yazdığı poemasında deyir:

*“...Hər ananın köksündə oğul adlı dağ yatır.*
*Torpaqçün ölənlərin köksündə torpaq yatır.*
*Oğullar nəğmə kimi oxunar dodaqlarda.*
*Harda oğul doğulsa, atəş doğular orda.*
*İgid oğullarıyla göyə ucalır Vətən.*
*Əgər oğullar varsa, demək, yaşar, var Vətən!..*
*İgidin cəsuru ölümə yardı.*

*Yazılar şerimə Vətən dağları.*
*Ay keçər, il keçər əsrlər ötər,*
*Silinməz sinədən oğul dağları...”*

Qəhrəmanlarımız, şəhidlərimiz xalqımızın qürur mənbəyidir. Hər bir xalqı onun qəhrəman övladları və şəhidləri ilə tanıyırlar. Qəhrəmanlarımız “Öncə Vətən!” şüarının daşıyıcılarıdır. Onlarda Vətən dərdlərinin hüznlü həsrəti olmasaydı, onlar böyük Sevgi yolunun yolçularına çevrilə bilməzdilər. Vətəninə hədsiz sevgi, məhəbbət bəsləyən qəhrəmanlarımızın coşqun ruhlu qəlbləri olur. Bu qəlblər Vətən darda olanda, özündə rahatlıq tapmır, düşməndən qisas almaq üçün daim çırpınır, vulkan kimi püskürür, dəniz kimi kükrəyir. Bu igidlər Vətənin sabahı və ümid çıraqlarıdır. Onlar yurdun, el-obanın üzünü ağ, başını uca edən oğullardır. Bu oğullar vətənini, torpağını, xalqını və dövlətini düşməndən qorumaq üçün hər an canlarını seçdikləri məslək, amal yolunda fəda etməyə hazırdılar. Bu yurdun mərd oğulları “Qarabağın qisasını almadan dünya bizə dar olub” deyə hər an düşünürlər. İgidlərimiz məqam gözləyir, onlar aslan tək döyüş meydanına atılmağa hər an əmrə hazırdılar. Amma bəzən qəlbində düşmənə hədsiz nifrət hissi olan qəhrəmanlarımız əmr gözləmədən, qorxmadan, çəkinmədən “canımı Vətənimə halal edirəm!” deyə təkbaşına döyüş meydanına atılaraq düşməndən istədiyi qisası alır və özü də ölümün ən ali, yüksək zirvəsinə - şəhidlik zirvəsinə ucalır. Qəhrəman Mübariz İbrahimov kimi, Əlif Hacıyev kimi, Allahverdi Bağırov kimi, Çingiz Mustafayev kimi, Tahir Bağırov kimi, Səfiyar Behbudov kimi, Yelmar Edilov kimi, Elşad Əhədov kimi, Əliyar Əliyev kimi, Rövşən Əliyev kimi, Fikrət Hacıyev kimi, Məhəmməd Həsənov kimi, Səyavuş Həsənov kimi, Fərhad Hümbətov kimi, Əfqan Hüseynov kimi, Şahlar Hüseynov kimi, Tofiq Hüseynov kimi,

Təbriz Xəlilbəyli kimi, İlqar İsmayılov kimi, Muxtar Qasımov kimi, Asif Məhərrəmov kimi, Şirin Mirzəyev kimi, Koroğlu Rəhimov kimi, Canbulaq Rzayev kimi, Fəxrəddin Musayev kimi, Yusif Mirzəyev kimi, Şikar Aslanov kimi, Şikar Şikarov kimi, Şahlar Şükürov kimi, Yavər Əliyev kimi, Aqil Quliyev kimi...

Hər insanın köksündə Qarabağ dərdi, Qarabağ dağı var. Bu dərd hamımızı için-için ağladır, göyüm-göyüm göynədir. Qarabağ kəlməsində bilsən, nə qədər şəhid yatır?! Şəhid ruhları şahə qalxaraq yurdumuzda doğulan balaca körpələrin başı üzərində durub onları mərdliyə, mübarizəyə səsləyir. Qarabağ anaların ah-naləsidir, axan göz yaşlarıdır, bir an belə rahatlıq tapmayan qəlb sızıltılarıdır. Qarabağ dərdi anaların, ataların, bacıların, qardaşların saçlarına erkən qar yağdırdı. Burda dərdə qardaş olub qardaşını itirmiş bacılar... Qarabağda cavanların talelərini güllələr yazır. Qızlar həsrət qalır qardaşına, sirdaşına, istəyinə. Burda güllər, çiçəklər qoxusu əvəzinə, sevən cavanlar barıt qoxusu çəkir ciyərlərinə. Burda güllər, çiçəklər şəhid qanıyla sulanır. Yarımçıq qalmış arzular, yarıyolda qalan uğursuz talelər, qırılmış könüllər sevən gənclərin qismətinə yazılmış sanki... O igidlər canlarını vətən yolunda qurban dedilər. Sinəsini düşmən qülləsinə sipər edən oğullar son anda, “Təki Vətən sağ olsun!” deyə qanlarıyla doğma yurdun torpağını suladılar. Suladılar ki, onlardan sonra neçə-neçə igidlər bu diyardan, bu torpaqdan doğulub onların intiqamını alsınlar... Aqil də belə etdi. Yarasından doğma torpağa axan qanı gördükcə, gözlərində mənfur düşmənə qarşı nifrəti birə-min artdı. Döyüşçü yoldaşları- İlqar, Cabbar, Hafiz komandirləri Aqili nəyin bahasına olursa-olsun mühasirədən çıxarmaq istəyirdilər. Amma düşmən hər tərəfi havadarların köməyi ilə elə kəsmişdilər ki, bu qanlı səddi aşmaq hec cür mümkün deyildi. Onlar son güllələrinə qədər döyüşdülər. Amma Aqilin

döyüşçü dostları fikirlərində israrlıydılar. On bir nəfərdən yalnız dördü qalmışdılar, onlar da yaralıydılar. Hər tərəfdən güllələr dolu kimi onların üzərinə yağırdı. Buna baxmayaraq döyüşçülər Aqili sürünə-sürünə də olsa, mühasirədən çıxarmağa çalışırdılar. Aqilin hər iki qıçına güllə dəymişdi. Hafizlə Cabbar özlərinin ağır yaralı olmalarına baxmayaraq komandirlərinin qoluna girərək yavaş-yavaş Kətik kəndi istiqamətində sürünürdülər. Amma onlar Kətikə çata bilmədilər. Arxadan atılan güllələr Cabbarla Hafizin həyatına son qoydu. İlqar isə onlardan öncə əbədiyyətə qovuşmuşdu. Güllələrdən biri də yenidən arxadan Aqilin kürəyindən dəymişdi. Aqil yerdə cansız uzanmış döyüşçü yoldaşlarını görəndə, hiddətindən dəli bir nərə çəkdi. Bu qorxunc bağırtının əks-sədası Xocalını da titrətdi. Bu zaman Xocalı anladı ki, hər zaman onun harayına yetişən igidi, cəsur və qorxmaz oğlu dardadır. Amma həmin anda Xocalının özü can verirdi. Yaralı aslan bir anlığa nəfəsini dərib geri, son dəfə Xocalıya tərəf boylandı. Kömək yolu gözləyən, amma köməksiz qalan şəhər od tutub yanırdı. Aqil heç vaxt özünü bu qədər aciz və çarəsiz hiss etməmişdi. O, indi doğma Xocalının harayına yetə bilmədiyi üçün xəcalətindən üzünü ağ örpəyli torpağa qoyub göz yaşları axıtdı. Bir anlığa olub-keçənləri - Xocalıya qədərki həyatını, doğulduğu yeri - Urud kəndini, Bakıya gəlib Neft Akademiyasına qəbul olmasını, daha sonra Xarkov Ali Milis məktəbinə, daha sonra isə Xarkov Ali Hərbi Məktəbinə daxil olmasını, Vətənin dar günündə onun harayına yetişməsi, atası Sahibi, anası İfratı, qardaşlarını - Nəsimini, Azəri, Validi, Rahibi, bacıları - Sevda və Rəmziyyəni, həyat yoldaşını və yeganə ciyərparəsi olan balaca Səbinəni və bir də bura qədərki döyüş yolunu xatırladı...

***

1963-cü il sentyabrın 19-da Qərbi Azərbaycanın Zəngəzur dağlarının qoynunda yerləşən Sisyan rayonunun Urud kəndində dünyaya göz açan Aqil Quliyev orta məktəbi bitirdikdən sonra ali məktəbə daxil olmaq üçün Bakıya üz tutdu. O, 1980-ci ildə Azərbaycan Neft Akademiyasının axşam şöbəsinə qəbul olunur. Üçüncü kursda olarkən hərbi xidmətə çağırılıb. Hərbi xidməti başa vurduqdan sonra 1985-ci ildə Xarkov Ali Milis məktəbinə daxil olub. Aqil məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra 1988-ci ildə Milli Ordu qərargahına gələrək hərbi xidmətə yazılıb. O, Ağdam bölgəsinə göndərilərək rota komandiri təyin edilib. Onun hərbi peşəsinə olan marağı və bacarığını görən DİN - nin rəhbərliyi onu Xarkov Ali Hərbi Məktəbinə göndərir. Narahat dolu günlər 1988-ci ildən sonra başladı. Ata-anasının, bacı-qardaşlarının doğma ocaqlarından didərgin salındığını Xarkovda eşitdi. Nigarançılıqdan qurtarmaq üçün Aqil körpə qızını da götürüb Bakıya qayıtdı. Həmin vaxt onun ailəsi Bakıda qohum-tanışlarının evində sığınacaq tapmışdı.

Qarabağdan gələn dəhşətli xəbərlər Aqili çox narahat edirdi. O zaman Milli Orduya təcrübəli hərbi mütəxəssislərə, xüsusən də zabit kadrlara böyük ehtiyac vardı. Aqil leytenant rütbəli zabit idi. O, evdə heç kəsə demədən, Milli Ordunun qərargahına gələrək cəbhəyə göndərilməsini xahiş etdi. Həmin axşam qardaşı Nəsimi Aqilin cəbhəyə getməsindən xəbər tutmuşdu. Ona görə də Nəsimi qardaşı Aqillə birlikdə o zaman hər tərəfdən əlaqəsi kəsilmiş Xocalı şəhərinin müdafiəsinə göndərilir. O zaman Xocalı cəbhə bölgəsinin ən qorxulu nöqtəsiydi. Beləliklə, Aqil 21 nəfər döyüşçü ilə Xocalı aeroportunun rəisi Əlif Hacıyevin müdafiə batalyonuyla çiyin-çiyinə şəhərin müdafiəsində dayandı. Nəsimi qardaşı Aqil sarıdan çox nigaran olurdu. Çünki o, bir yerdə “dinc” dayanmırdı. Harada kömək lazımdısa, özünü oraya yetirirdi.

Xocalıda vəziyyət günü-gündən çətinləşirdi. Silah-sursat, hərbi texnika, ərzaq çatışmırdı. Ermənilərin Xocalıya hücum qorxusu vardı. Onlar hər an havadarlarının köməyi ilə şəhərə hücuma keçə bilərdilər. Xocalıya hərbi texnika, canlı qüvvənin gəlməsini yuxarıdan söz versələr də, hələlik heç bir kömək gəlmirdi. Çünki Bakıdakıların başı kürsü davasına qarışmışdı. Bakıdan kömək gözləyən xocalılar isə kimsənin yadına belə düşmürdü. Aqil vəziyyətin ciddiliyini görüb heç kəsin ağlına gəlməyən bir əməliyyat planı hazırladı. Gizli plandan yalnız onun tabeliyində olan 21 əsgərin xəbəri vardı. 1992-ci ilin fevral ayının əvvəli idi. Bu dəliqanlı gənc heç nədən qorxmadan komandiri olduğu 21 nəfər döyüşçü ilə hücum edib MDB-nin qoşun hissələrinin ermənilərə yardım aparan 3 BRDM-i, ərzaq dolu 2 URAZ maşınını və 13 hərbçisini girov götürdü. Bu hadisə rus qoşun heyətini xeyli hiddətləndirmişdi. Ona görə də onlar Xocalı milis şöbəsinə qəfil hücum edərək bir neçə nəfəri öldürdülər və rəis müavinini də əsir götürüb aparmaq istədilər. Amma Aqil onlara imkan vermədi. Hadisədən xəbər tutan kimi, o, dərhal hücuma keçərək düşmənin BRDM-ni heyəti ilə birlikdə ələ keçirdi. Cəsur komandir milis şöbəsindəki rusları da girov götürüb qərargaha göndərdi. Bu əməliyyatda dəliqanlı qardaşını tək buraxmaq istəməyən Nəsimi Quliyev də iştirak edirdi. Aqili yandıran o idi ki, Xocalıda döyüşən və onun müdafiəsində gecə-gündüz mərdliklə dayanan əsgərlərimizin silah-sursat, ərzağa ehtiyacları olduqları halda, 366-cı rus polkuna Gəncədən maşınlarla dolu ərzaq və silah-sursat aparılırdı. Hərbi texnikanın, silah-sursatın, ərzaq və heyətin azərbaycanlı əsgərlər tərəfindən ələ keçirildiyini eşidən Gəncə diviziyasının komandiri rus general-mayoru şəxsən özü Xocalıya gələrək igid, qorxmaz komandir Aqil Quliyevlə görüşdü. Diviziya komandiri amiranə şəkildə Aqildən soruşdu:

- Siz nə cürətlə diviziyaya məxsus maşını qarət etmisiniz?
- Cənab general, biz quldur deyilik. Bizim dinc sakinlər hər gün Xankəndi tərəfdən erməni silahlılarının hücumuna məruz qalır. Sizin əsgərlər isə bunları gödükləri halda, nədənsə seyrçi mövqe tuturlar. Sizin əsgərlər dinc əhalini qorumaq əvəzinə, ermənilərlə əlbir olub bir şüşə arağa onlara silah satır. Bizlərdə isə çoxunun silahı yoxdur. Sizcə, bəs biz əli silahlı ermənilər qarşısında nə etməliyik?!
- Sizi də başa düşürəm. Ancaq hər halda yol kəsmək, çapqınçılıq etmək də yaxşı iş deyil. Sizə xəbərdarlıq edirəm, bunun sonu pis nəticələnə bilər. Əgər silah baxımından çətinliyiniz varsa, qoy respublika rəhbərliyi bizə müraciət etsin. Amma girov götürdüyünüz əsgərləri təcili buraxın!
- İnanıram ki, silah barəsində tezliklə sizinlə əlaqə saxlayacağıq. O ki qaldı girovlar məsələsinə, bunu yuxarıya məruzə etdikdən sonra həll edəcəyik, - deyə Aqil generalı yola salmaq üçün ayağa qalxdı.

General isə gənc leytenantın onunla bu tonda danışmasından heç xoşlanmadı və əsəbi halda Aqilə xəbərdarlıq edirmiş kimi:
- Bilmirəm, mən diviziyaya qayıdana kimi girov götürdüyünüz bütün heyət sağ-salamat xidmət etdikləri hərbi hissədə olmalıdırlar - dedi.

Bu hadisəni eşidən rəhbərlik Aqilə təcili girovları buraxmağı tapşırır. Gənc leytenant məcbur qalıb girov götürdüyü rus əsgərlərini buraxır. Amma yuxarıdakılara belə bir məlumat verir: "*Xocalıya təcili kömək gəlməlidir. Burada vəziyyət olduqca pisdir. Dinc əhaliyə və Xocalını müdafiə edən əsgərlər üçün ərzaq və silah-sursat göndərin. Ruslar ermənilərlə əlbir olub Xocalı şəhərini ələ keçirmək istəyirlər. Bunun üçün ermənilər hər vasitə ilə ruslardan silah, ərzaq və hərbi texnika alırlar. Əgər tez bir zamanda Xocalını müdafiə edən könüllü batalyonun uşaqlarına və milli ordunun*

*əsgərlərinə silah-sursat, hərbi texnika və ərzaq yardımı gəlməsə, Xocalı əldən gedəcək. Bizim əsgərlərin düşmənin yüksək səviyyədə silahlanmış hərbi texnikası qarşısında dayanması mümkün olmayacaq. Xocalı uğrunda döyüş başlamazdan öncə, dinc əhali şəhərdən dərhal çıxarılmalıdır, yoxsa hücum olarsa, itkilərimiz çox olacaq. Mənim fikrim budur ki, Xocalıda ancaq döyüşən adamlar qalmalıdırlar. Qocalar, qadınlar, uşaqlar, qız-gəlinlər, körpə uşaqların hamısı təcili şəhərdən çıxarılmalıdır. Sonra gec olacaq."* Amma Aqilin bu məlumatını rəhbərlik "provakasiya" adlandırır və bir çoxları da onu əhali arasına vahimə salmaqda ittiham edirlər. Bundan sonra Bakının göstərişiylə Ağdamdan Xocalıya sərnişin vertolyotuyla silah-sursat çatdırmağı qərara alırlar. Ancaq bu məlumat xainlər tərəfindən tezliklə ermənilərə çatdırılır və həmin vertolyotu düşmən vuraraq məhv edir. Beləliklə, Xocalı köməksiz qalır. Bakıdan əlini üzən şəhərin müdafiəçiləri və Aqilin tabeliyində olan cəsur əsgərlər yeganə çıxış yolunu yenidən rus polkuna hücum edib, onların texnikasına sahib olmaqda görürlər. Başqa çarə də yox idi. Ona görə də sərt bir qış gecəsi Aqil döyüşçü yoldaşlarıyla bərabər 366-ci polka hücum edərək rusların 6 BMP-sini heyət üzvləri ilə birlikdə girov götürür. Girov götürülmüş heyətin tərkibində bir rus polkovniki də vardı. Aqilin keçirdiyi əməliyyat barədə yuxarılar dərhal xəbər tutur və ona göstəriş verilir ki, təcili girovlar azad edilsin. Aqil ələ keçirdiyi "qənimət"i əldən vermək istəmir və rus polkovniki ilə bazarlığa girişir. O, rus polkunun əsgər heyətini və polkovnikini azad edəcəyi təqdirdə, onlardan 1 BMP, 1 "Kristall" raket qurğusu, çoxlu hərbi sursat və 1 maşın ərzaq alacağını bildirir. Sövdələşmə baş tutur və bundan sonra girovların geri qaytarılması barədə yuxarıya - rəhbərliyə məlumat verilir.

Bu hadisə həm erməniləri, həm də rusları həddindən artıq qıcıqlandırır və rus ordusu dığalarla bərabər Xocalını tam mühasirəyə alır. Buna baxmayaraq Aqil ruhdan düşmür və döyüşçü dostlarını götürərək mühasirəni yarmaq üçün erməni postuna hücum edir. Məqsəd mühasirəni yarmaq və dinc əhalini buradan çıxarmaqdı. Fevralın 18-də Aqil 11 nəfər döyüşçü ilə erməni postuna yaxınlaşır və düşmənə göz açmağa imkan verməyərək, postdakı 21 erməni dığasını məhv edirlər. Aqilin döyüşçü yoldaşı İlqar Musayev ermənilərin hamısının ölüb-ölmədiyini yoxlamaq üçün otağa girir və bu zaman yaralı erməni onu avtomatla vurur. Onun arxasınca gələn Cabbar da ermənini gəbərdir. Bunu görən Aqil tez İlqarın qoluna girib onu təhlükəsiz yerə aparmaq istəyir. Amma bu vaxt digər yaralı bir erməni avtomatdan açdığı atəşlə Aqilin qıçlarını biçir. İlqar hərəkətsiz halda yerə yıxılaraq həyatla vidalaşır. Hafiz bir atəşlə yaralı ermənini öldürür. Komandir yaralandığından daha burada çox dayanmaq olmazdı. Hər an postdakı ermənilərə kömək gələ bilərdi. Ona görə də Cabbarla Hafiz Aqilin qollarına girib onu öz postumuza çatdırmağa çalışırdılar. Posta az qalmış arxadan atılan güllələr Cabbar və Hafizi də yaraladı. Hər üç döyüşçü yerə yıxıldı. Onlar ağır yaralandıqlarından çətinliklə sürünə-sürünə posta tərəf hərəkət edirdilər. Bu vaxt yenidən onları atəşə tutdular. Cabbar və Hafiz yerdə hərəkətsiz qaldılar. Güllələrdən biri də Aqilin kürəyindən dəydi və gözləri qaranlıq çaldı. İndi o, göylərdən həm döyüşçü yoldaşlarının, həm də özünün yerdə uzanmış cansız bədəninə baxırdı...

***

Beş gün sonra Aqilin meyitini oradan çıxarmaq mümkün oldu. Aqilin ölümünü qardaşı Nəsimi bir müddət evdəkilərdən

gizlətdi. O gecə İfrat ana səhərəcən yata bilmədi, sanki yatağına qor ələnmişdi. Oğlu Aqil gəldi gözlərinin önünə. Analar hiss edər övladları darda qalanda. Ananın ürəyi çox narahatdı Aqil sarıdan. O, Xarkovdan qayıdıb gələndə İfrat ana çox sevinmişdi. Ancaq ananın sevinci uzun sürmədi. Aqilin "Anacan, mən Qarabağa gedirəm, orda mənə ehtiyac var. Axı mən zabitəm. Vətən darda olduğu halda zabit şərəfim məni onun harayına səsləyir. Mən burada qala bilmərəm. Mənə xeyir-dua ver, Ana!" Ana dolmuş gözlərini oğluna zilləyib dedi: "Bilirəm, indi onsuz da kimsə səni durdura bilməz. Çünki həmişə Vətənini ananla bərabər tutmusan. Anlayırsan ki, ona atılan hər bir güllə sanki doğma anana tuşlanıb. Anaları qorumaq isə övladların müqəddəs borcudur, onların namus və şərəf məsələsidir. Get, oğlum, get. Allah amanında!"

İndi İfrat ana:"Bu narahatçılığın hökmən bir səbəbi var, yoxsa qəlbim indiyə kimi bu qədər heç sıxılmamışdı." deyə düşündü. Aqil isə bu zaman əllərini anasına tərəf uzadaraq can verirdi. İndi bu igid oğullar ana qollarının həsrətindəydilər. Analar əvvəllər ovladlarının ölüm xəbərinə inanmazlar. "Harasa gedibdir, səfərdədir tezliklə qayıdıb gələr" deyə düşünərlər. Amma vaxt ötdükcə analar darıxar; " Oğul, bir az tez qayıt, boynuna qalxmağa qollarım ağlar. Gözlərim sən gedən yollardan çəkilmir bir an. Qayıt gəl, ananı ağlatma daha. Sən ki ananın ağlamasına heç zaman rəva bilməzdin. Qayıt gəl, yollardan çəkilsin gözlərim" deyə təsəlli verərlər öz-özlərinə. Analar dözümlü olurlar. Dağ boyda dərd çəkməyə gücləri yetər. Bəs atasına hələ tamam alışmayan balaca Səbinəyə nə deyək? Atan səni qoyub hara getdi deyək?! Niyə atan Sahibi, qardaşın Nəsimini, Azəri, Validi, Rahibi, bacıların Sevda və Rəmziyyəni gözü yaşlı qoyub haraya getdin, Aqil?! Sənin yoxluğunla heç cür barışa bilmir dostlar-tanışlar, qohum-əqrəbalar...

Şəhidliyin mübarək, əziz qardaşım! Sən indi ən xoşbəxt insansan. Çünki həyatda əbədi izin qaldı sənin. Səninlə bütün dost-tanışların, qohum-əqrəban, yaxınların, elin-oban, xalqın fəxr edir, qürur duyur. Sən əbədiyyət günəşitək həmişə qəlblərə işıq saçacaqsan! Sənin ruhun həmişə bu yurdda, bu eldə dolaşacaq!

Şair Seyran Cavadov "Şəhidlər" şeirində dediyi kimi:

*Dağılar duman da, dağılar çən də,*
*Həm Tanrı sevinər, həm də ki bəndə.*
*Dava qurtaranda, üzlər güləndə*
*Şəhidlər qayıdar yenə bu yurda...*

*

*Bir dəli gülüşün uğultusunda,*
*Körpə bir uşağın qığıltısında,*
*Elin toy günündə, elin yasında*
*Şəhidlər qayıdar yenə bu yurda...*

***05.08.2015***

## *O gecə ölüm mələyi enmişdi yerə*

***(Esse)***

**Q**uşbaşı qar yağan sərt qış gecəsi. O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. Rus ordusunun 366-cı motoatıcı batalyonunun köməyilə erməni hərbi birləşmələri həmin o müdhiş gecə Xocalı şəhərini qəddarcasına işğal etdilər. Evlərə-eşiklərə od vuruldu, ağ örpəyə bürünmüş torpaq al-qana qərq edildi o gecə. Amansız düşmən rəhm diləyən qocaya, xəstəyə, qadına, uşağa əsla aman vermədi. Uşaqlar valideynlərinin gözləri qarşısındaca xüsusi qəddarlıqla qətlə yetirildilər. Xocalının neçə-neçə qeyrətli oğulu erməni dığalarının qəbirləri üstündə qurbanlıq kəsildilər. Qız-gəlinlər əsir alındılar. Od tutub yanan şəhərdən canlarını qurtarıb

ayağı yalın, başı açıq halda meşələrə, dağlara üz tutanların çoxusu yolda dondu, qalanları da ermənilərin qabaqcadan qurduqları pusquya düşərək həlak oldular, bir qismi isə əsir alındı. O gecə hara gedəcəyini, kimdən imdad diləyəcəyini bilməyən uşaqların doğmalarının meyidləri arasında caş-baş halda vurnuxmalarını, ətrafda nə baş verdiyindən xəbərsiz körpənin gözlərini həyata əbədi yummuş ananın buz kimi soyuq cəsədi yanında köməksiz qalması heyrətləndirici və tükürpədici bir səhnəydi.

Sənin qoynunda doğulan bu məsum körpələrin günahı nəydi, Xocalım mənim?! Toyda, bayramlarda hamının birlikdə şənləndiyi bu şəhər niyə xarabalığa çevrildi bir anda? İgidlərin sənə ana deyərdi, sənsə onlara oğul, Xocalım mənim! Qarqar sənin qopuzundu, hər axşam övladlarına layla çalardı. İndi bu çay sənin igidlərinin, övladlarının al qırmızı qanına boyanıb. Əlim kimsəyə çatmadı, dərdindən belim büküldü, Xocalım mənim! Bu düşmən çox amansız, qəddar, vəhşi xislətli birisiydi. Yaşlı, uşaq baxmadan yanar oda atdılar, qəlbimə çalın-çarpaz dağ çəkdilər. Qəfil matəmə büründü o gecə Xocalım. Neçə şəhidlər verdik, neçə ana itirdik o gecə. Od tutdu o gecə torpağın, daşın. İndi mən ərini itirmiş o gənc gəlini, körpəsini itirmiş o gənc ananı, de, necə qurudum bu göz yaşları?!

Oxlandı o gecə Xocalım mənim. Qan sızdı yarasından, can verdi o gün. Cavanların diri-diri çıxartdılar gözünü. Qocasını, qızını, körpəsini, gəncini keçirtdilər süngüdən. Dünyanın gözü kor, qulaqları kar idi o gecə. O gecə Xocalıya qana bulaşmış qarla bərabər ölüm yağırdı. O gecə azəri türkün namusu hamını heyrətə saldı. Kafir düşmənin əlinə sağ keçməsin deyə, bir qız qardaşından onu güllələməyini xahiş edir. Qızcığaz qardaşının qarşısında diz çöküb yalvarır: “Gözümün nuru, qeyrətim, namusum, şərəfim qardaşım, vur sənin əlində ölüm, qıyma güllənə. Qoyma əsir

düşüm kafir düşmənə!" Qardaş isə: "Əziz bacım, mən sənə necə qıyım?! Əlim gəlməz tətiyi çəkməyə. İlahi, bu nə zülüm, bu nə sitəm, bu nə müsibətdir bizə göstərirsən?! Ya Rəbbim, sən bunu bizə necə rəva bilirsən?!"

Həmin o müdhiş gecə "qiyamət günü yetişdi", deyə düşündüm. Həmin gecə qış çox sərt gəldi. Al qana qərq oldu bulaqlarda su. Qəfil əcəl haxladı o gecə Xocalımı. Kimsəyə çatmadı səsi, harayı. Nalələr, fəryadlar dirəndi ərşə. Məkrli, hiyləgər, şər, böhtan yuvası olan çaqqal, tülkü xislətli dığalar güc alıb himayədarı ruslardan qorxutmaq istəyir şiri öz yuvasında.

Eşqim dəli olubdu həsrət yağışından, Xocalım. Neçə arzu, niyyətlər həsrət qaldı vüsala. Vüsala yetməyən neçə-neçə nakam eşq, məhəbbət qaldı, Xocalım. Sevincim qoy inciməsin məndən. Mən Xocalı dərdimdən elə bir böyük tonqal qalayacağam ki, qoy bu tonqalın işığı bütün yer kürəsinə işıq salsın. Bəlkə o zaman bütün dünya Xocalı dərdini anlayar, Xocalı harayına səs verər.

Ey Adəm övladı, unutma bu dəhşəti, unutma bu vəhşəti! Unutma bu kədəri, unutma o gecəni! Unutma bu zilləti, danış hər yerdə hamı bilsin. Səni dinləməsələr belə, yenə də Xocalı harayını dünyaya hayqır! Qoyma zaman unutsun bu ağır faciəni. Allahım, cəzasız qoyma bu amansız qırğını!

Gün gələr, dərdimiz sona yetər, Şəhidlərin ruhu sevinər! Anaların haqqı düşməndən sorular bir gün. İgid oğulların səni düşməndən qurtaracaq gün uzaqda deyil, dağ boyda dərdli, Xocalım mənim!..

***03.06.2015***

# *Dərdim dağlar əridər*

***(Esse)***

**D**ənizkənarı parkdakı oturacaqların birində yaşlı bir qoca kişi əyləşmişdi. Saç-saqqalı düm ağdı. O, kürəyini oturacağa deyil, çənəsini əl ağacına söykəyib qəm, kədr süzülən gözləriylə dənizə baxırdı.Yaşlı adamlarla həmsöhbət olmağı xoşladığımdan sakitcə gəlib onun yanında əyləşdim və: “Hər vaxtınız xeyirli olsun, əmican” - dedim. Ahıl kişi mənə baxmadan cavab verdi:

- Sizin də gələn günləriniz xeyirli olsun, oğul.
- Əmican, üzr istəyirəm, sizin o vəziyyətdə oturmağınız onurğanıza ziyandır axı. Kürəyinizi oturacağa söykəsəniz,

daha rahat olarsınız. Çünki belə vəziyyətdə uzun müddət qalmaq belin əyilməsinə səbəb olur - dedim.

- Oğul, insanın belini hansı vəziyyətdə oturmaq deyil, dərd, kədər, qəm-qüssə əyir - dedi.

- Başa düşürəm, əmican, onsuz da indiki dövrdə dərdsiz, kədərsiz adam tapmaq müşkül işdir. İndi kiçikdən tutmuş böyüklərə qədər hamının özünə görə dərdi-səri, problemi var.

- Haqlısan oğul, qəm, kədər Adəm övladının yaxasını nə vaxt rahat buraxıb ki?! Oğul, siz problem sözü işlətdiniz. Ancaq problemi dərdlə, kədərlə qarışdırmayın. Bunlar ayrı-ayrı şeylərdir. Biz bəzən həlli mümkün olan problemləri də özümüzçün dərdə çeviririk.

- Əmican, gözlərinizdən görünür ki, qəm, kədər, qüssə sizin daimi yol-yoldaşınız olub.

- Düz sezmisən, oğul. Həyata göz açdığım gündən qəm-qüssə, kədər mənimlə bərabər böyüdülər. Onlar məni "sadiq dostlar" tək heç vaxt yalqız buraxmadılar.

- Əmican, nədir sizin dərdiniz? Əgər sirr deyilsə, biz də bilmək istərdik. Deyirlər, kədəri, qəmi başqalarıyla paylaşdıqca azalır, yüngülləşir. Görünür, sizin dərdiniz daha böyükdür. Amma hər halda sizi dinləmək mənimçün çox maraqlıdır.

- Oğul, əvvəlcə de görüm, nə işin sahibiziniz?

- Mən yazaram, əmican - dedim.

- Belə de... Demək, insanların, cəmiyyətin, bütünlüklə dünyanın dərd-sərindən yazan yazıçısınız. Amma oğul, onu deyim ki, bu dərdlər nə deməklə, nə də yazmaqla bitib tükənən deyil. Mən dərdlərimdən danışsam, yer-göy od tutub yanar. Dərdlərim dağları əridər belə. Elə dərd var ki, onun qarşısında səbr, təmkin, hövsələ mümükün deyil. Bu dərd insanı əyir, qəlbinə qaldıra bilməyəcək qədər ağır yük yükləyir, eyni açılmaz hala çevrilir, sifəti həmişə qara bulud

kimi tutqun, qaşqabaqlı, adamlardan uzaq olmağa çalışaraq tənha qalmaq istəyir. Amma Adəm övladı onu anlamır ki, dərd, kədər tənhalıqda daha da böyüyür. Oğul, dərd, kədər ürəyi incidən daxili sıxıntıdır. Bəzən insan günlərlə özünə qapılaraq kiminləsə kəlmə kəsib danışmır, hətta yemək-içməkdən kəsilir. Bəzən də el arasında: "Qaranlıq düşdükdə qəm, kədər də artır" deyirlər. Dərdli adamın dərdini, ancaq dərdi olan adam bilər. Klassik şairimiz M.V.Vidadi demişkən: "Vidadi, xəstəyəm, günlər sanaram; Dərd əhliyəm, qəm hərfini qanaram". Həyatda dərdli olmaq istəmirsənsə, gərəkdir ki, dərdli könüllərə kömək edəsən. Dərd, kədər içində çabalayan insanlara, dərdə giriftar olanlara kömək etmək, onların kədərini azaltmaq, dərdini paylaşmaq üçün onlara doğru qaçmaq gərəkdir, onların yanında olmaq lazımdır.

- Əmican, haqlısınız, amma indi insanlar sanki öz aləmlərinə qapanıblar. Kiməsə kömək etmək, kiminsə harayına yetmək unudulub. Kimsə-kimsənin ərizəsini oxumaz hala düşüb adamlar indi. Əmican, bəs sizin ən böyük dərdiniz nədir?

- Oğul, mənim ən böyük dərdim elə əslində hamımızın dərdidir. Amma bəziləri bu dərdə ürəkdən yanaraq içində qıvrılır, bəziləri də "elin dərdindən mənə nə var" deyib el dərdini öz üzərindən atmağa çalışır. Bu dərd sənə də tanışdır, mənə də. Bu Bütöv Azərbaycan dərdidir, bu Təbriz dərdidir, bu Qarabağ dərdidir, bu Zəngəzur dərdidir, bu Göyçə dərdidir, bu Borçalı dərdidir, bu Dərbənd dərdidir, Vətən dərdidir, Yurd dərdidir. Hansını söyləyim?! Məgər dərd birdir, ikidir? Bitib-tükənməz mənim dərdlərim. İndi siz deyin, çiyinlərində əsrlər boyunca qəm yükünü daşıyan Vətən bu dərdə necə dözsün?! Amma bütün bunlara rəğmən o dözür. Nə edək ki, Vətən adlı Ulu Babamıza kömək etmək heç birimizin əlindən gəlmir, sadəcə Ona arada bir təsəlli verməklə öz vəzifəmizi bitmiş hesab edirik. Ancaq hər

birimizin içindəki yarıya bölünmüş Vətən sevgisi hamımızın qəlbini parçalayır. Vətənə olan yaralı eşqimiz ikiyə bölünərək biri Güneydə, biri də Quzeydə qalıb. Bu iki həsrətli aşiqlərin qəlbi əsrlərdir ki, bir-birinə qovuşmaq arzusuyla çırpınır. Bizə sormadan belə ikiyə böldülər Azərbaycanımı. Ananı baladan ayırdılar o gün. Taleyimizi yadlar yazdı o gün. O gündən qardaş - qardaşa həsrət qaldı. Sevənlərin göz yaşı Xan Arazıma axıb töküldü. Əsrlər ötüb keçsə də, həsrət bitib tükənmir. Amma bütün bunlara baxmayaraq içimdə bir ümid işartısı var. Bir gün bu həsrətə son verilər və Azərbaycan pərən-pərən düşmüş övladlarını yenidən yanında görər, inşallah!

İkinci böyük dərdimiz isə Qarabağdır. Xəyanət nəticəsində Vətənimin bu gözəl guşəsi erməni dığalarına rus himayədarları tərəfindən ərməğan edildi. Bunun dalınca qəlbimizə Xocalı qətliamı çalın-çarpaz dağ çəkdi. O gecə kürəyimizə arxadan xəncər saplandı. O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə bir müsibət, belə bir vəhşilik, belə bir qəddarlıq görməmişdi. Amma illər ötdükcə bu dərdlərə, üzü qasnaq bağlamış bu yaralara nədənsə alışqanlıq, günlər keçdikcə unutqanlıq vərdişi yaranır bizdə. Amma unutqanlığa bizim mənəvi haqqımız yoxdur. Ona görə də bu gün mənəviyyatımızdakı nöqsanların qabarıq şəkildə özünü göstərməsinin əsas səbəblərdən biri elə incə məsələlərə - xüsusilə milli-mənəvi dəyərlərə, qeyrət, namus və şərəf hesab etdiyimiz Vətən, torpaq məsələlərinə qarşı laqeydliyimiz, prinsipialsız mövqe tutmağımız olubdur.

Bu gün biz həm də ailə-məişət msələlərimizə kənar, xarici faktorların nə dərəcədə təsir və nüfuz etdiyinin sanki fərqində deyilik. Amma bu ciddi və düşündürücü bir məsələdir. Bu işə laqeyd yanaşmağa heç birimizin mənəvi haqqı yoxdur. Bu məsələdə seyrçi mövqe tutmağımızın acı

nəticələri hamımıza məlumdur. Indi nədənsə titrəməkdə olan adət - ənənələrimizin, əxlaqi-mənəvi dəyərlərimizin dirəklərinin sanki nə vaxt tamamilə uçulub dağılacağını gözləyirik. Mənəvi dəyərlərin ucuz tutulması, həddindən artıq həssaslı və prinsipial mövqedən yanaşması tələb olunan bu incə məsələyə laqeydlik göstərilməsi sabahkı gün hansı qarşısıalınmaz facilərin törənməsinə gətirib çıxaracağını dərindən dərk etməliyik. Biz əksər hallarda cəmiyyətdə baş verən mühüm hadisələrin qarşısını vaxtında almağa cəhd göstərmirik. Çünki buna vəzifəsindən və cəmiyyətdə tutduğu mövqedən asılı olmayan hər birimizin içində artıq özünə çoxdan yer etmiş "mənə nə var" prinspi ilə olan düşüncələrimiz imkan vermir. Daha doğrusu, bu gün heç kəs qolunu çırmayıb ümumxalq mənafeyi naminə iş görmək fikrində deyil, hər kəsi öz şəxsi mənafeyi daha çox düşündürür. Əxlaqi-mənəvi cəhətdən şikəst olmaq təhlükəsi qarşısında qalan cəmiyyəti sağaltmaq fikrində olanlar görəsən nə vaxt işə girişəcəklər? Bu gün cəmiyyətdə baş alıb gedən əxlaqsızlıq epidemiyasının orientasiyası sürətlə artmaqdadır. İstər ailədə, istərsə də cəmiyyətdə riyakarlığın, xəyanətin, əxlaqsızlığın artmasına rəvac verən amillərdən ən ümdəsi maddi ehtiyacdır. Cəmiyyətdə madiyyət həmişə mənəvi dəyərləri məhv etməyə çalışır. Hər şeyi maddiyyətlə ölçən insanlar da, özlərindən asılı olmayaraq bu çirkaba bulaşmağa məcbur olurlar. Belə bir anda hamımızın incə məxluq sandığımız olan qadının zəifliyindən, onun inam və səmimiyyətindən "məharətlə" istifadə etməyə çalışan kişilər bir anlığa da olsa, hansı yolun ayrıcında dayandıqlarını dərk etsələr, pis olmazdı. Bu gün bu cür neqativ hallara qarşı mübarizə aparmaq üçün hər birimizdən bir vətəndaş yanğısı tələb edilir.

- Əmican, hamımızın ağrılı yerinə toxundunuz. Əvvəllər bu millətin ən güvənc yeri ailə şərəfi, ailə namusu olub. Amma

bu gün bu sözü inamla səsləndirmək adama bir az çətin gəlir. Bu gün sanki bilərəkdən bütün cəmiyyətə əxlaqsızlıq toxumları səpilir, özü də hamımızın gözləri önündə. Bu işdə bizim televizayanı qınamaq haqqımız var. Çünki televiziya cəmiyyətin aynasıdır, hamı ona baxır və ondan ibrət götürür...

- Oğul, nə qoyub, nə axtarırsan. Bir də ki, dərd, kədər, qəm-qüssə təkcə bizdə deyil ki. Bu bəlaya planetin hər guşəsində mübtəla olan insanlar var. İndi dünyanın düzəni pozulub, oğul. Dünya qanla çalxalanır, hər yerdə müharibə, hər yerdə qan tökülür. Hər gün minlərlə günahsız insan həyatını itirir. Sanki bütün Kainatı ölüm kabusu qoynuna alıb. İnsanlar haqsız yerə incidilir, haqsız yerə öldürülür. Zalım və şər qüvvələr Yer kürəsinə hakimi mütləq kəsilib. Şeytan Dünyaya hakim olmağa çalışır. Amma acı da olsa, bu həqiqətdir. Öz dərdimiz azmış kimi, hələ gəl bir indi dünyanın dərdini də çək görüm, necə çəkirsən? Belə bir zamanda həm özünü qorumaq, həm də cəmiyyəti yad bəlalardan xilas etmək üçün ortaya əsl vətəndaşlıq mövqeyi qoymaq və sərgiləmək hər birimizdən böyük hünər, cəsarət, fikir və əqidəsində dönməzlik, milli - mənəvi dəyərlər uğrunda mübarizədə böyük qəhrəmanlıq tələb edir. Bu yolda Allah-təala hər birimizin yardımçısı olsun! Allah amanında qal, oğul! Çünki danışdıqca qəm, kədər əlində qılınc üstümə hücum çəkir, - deyə ağ saçlı, nurani qoca çəliyinə söykənib ayağa qalxdı və asta addımlarla məni tərk etdi.

O məndən uzaqlaşar-uzaqlaşmaz:

- Allah sizin də köməyiniz olsun və ömrünüzü uzatsın, Əmican! - dedim.

***09.07.2015***

## *Gizli eşq*

***(Esse)***

***B**ağışla məni, Nəsibə, bağışla Gizli Eşq!  Məni sevdiyini çox gec bildim. Nədən gizlin eşqini izhar etmədin mənə?! Utandınmı?! Yox, yox sən haqlısan. Qızlar sevgisini oğlanlara etiraf etməkdən çəkinirlər. Bu addımın həmişə qarşı tərəfdən atılmasını gözləyirlər. Bəs mən hardan biləydim ki, sən məni gizlicə sevirsən? Amma mən bunu hiss etməli, duymalıydım. Sən mənə hətta o "zapiska"da da işarə etmişdin. Görünür, günah məndə olub. Sənə qarşı çox laqeyd davranmışam. Bir az yaddaşımı çözməyə başladım. O vaxt fevralın 23-də qızlar birlikdə yığışıb mənə hədiyyə alanda, sən mənə həmişə ayrıca hədiyyə verərdin. Bax bunu anlaya bilməmişdim o zaman. Hələ mənə qarşı olan səmimi, isti münasibətini demirəm. Bu münasibət qrup qızlarınkından

tam fərqliydi. Bir dəfə stolumdan kiçik bir kağız parçası tapdım. Orada yazılmışdı: "Qəlbin gözüylə görünməyən eşqi, insanın gözlərindən aydınca oxumaq olur". Demək, bunu sən yazmışdın o vaxt. Yenə də haqlısan, çünki mən heç bir zaman sənin gözlərinin içinə baxmamışdım. Əgər baxsaydım, bəlkə bu od saçan eşqi, sevgini görə bilərdim. Amma etiraf edim ki, o zaman mən bu sahədə çox naşıydım. Mən sevgi, məhəbbətin necə bir hiss, necə duyğu olduğunu hələ bilmirdim, anlamırdım. O ki qala gizli eşqi. O gündən sonra məndə sənə qarşı ülvi bir istək baş qaldırdı. Amma artıq geciydi. Sənin gizli eşqini duymadığım üçün sifətin birdən-birə dəyişdi, bərk qızdın mənə, möhkəm əsəbiləşərək çox pərişan oldun o gün...

Həmin gün dostum Əlinin təklifini Nəsibəyə söylədim. Dostumu onunla qrup yoldaşımın ad günündə tanış etmişdim. O gündən sonra Əli instituta, mənim yanıma tez-tez gəlməyə başladı. Və günlərin birində Nəsibəni sevdiyini söylədi mənə. Mən də dedim: "Bəs bunu özünə niyə söyləmirsən?" O, dedi: "Nəsibəni görəndə dilim tutulur. Mən bu halda onu sevdiyimi necə deyə bilərəm". Dostluğumuz xatirinə mən Əlinin eşqini Nəsibəyə elan etdim o gün. Həmin gün dərsdən çıxanda Nəsibəyə dedim ki, bir az asta yerisin, ona deyəcək vacib sözüm var. Bu sözdən sonra qızın çöhrəsində sanki Günəş parladı, sifəti alışıb yalap-yalap yanmağa başladı. Hiss olunurdu ki, Nəsibə deyəcəyim sözü böyük intizarla gözləyir. Mən onu ağacın kölgəsinə çəkib dedim:

- Nəsibə, dostum Əlini tanıyırsan da? Hər həftə yanıma gələn oğlanı deyirəm. Səni onunla Nəzakətin ad günündə tanış etmişdim.

- Hə, hə tanıyıram. Sənin yanına tez-tez gəlib gedir, - deyə Nəsibənin səsinin titrədiyini duydum.

- Bax, Əli həmin gündən sənə aşiq olub. Amma sevgisini utandığından sənə söyləməyə heç cür cəsarəti çatmır.

- Cəmil, sevgi cəsarət tələb edir. Əgər o, sevgisini sevdiyi qıza söyləməyə cəsarəti çatmırsa, deməli onun eşqi, sevgisi yalandır. Ax, Cəmil, mən sənə daha bundan sonra nə deyim?! Mən elə bildim ki, sən bu gün mənə öz sevgini etiraf edəcəksən, sənsə mənə başqasının eşq təklifini söyləyirsən! Deməк, sən mənə hər zaman dost gözüylə baxmısan. Mənsə, sənə tamam başqa gözlə... Sən bu gün mənim sənə qarşı olan bütün ülvi hisslərimi darmadağın, tar-mar etdin. Mənim üç il boyunca zərrə-zərrə sənə qarşı qurduğum könül dünyamı dağıtdın! Sən elə bil heç bu dünyanın adamı deyilsən! Nədən bu illər uzunu gözlərimdə sənə qarşı od-alov saçan eşqimi görə bilmədin?! Sənin həyata baxan gözlərin, sevgiyə qarşı bilmədim nədən belə kor oldu?! Eşq, məhəbbət gözlərdə özünü büruzə verir, gözlərdə özünü bəyan edir. Çox təəssüflənirəm ki, bu illər boyunca bircə dəfə də olsun gözlərimə heç baxmadın. Əfsuslar olsun. Daha bu gündən sonra mənə heç bir söz demə! Bu gün səni həmişəlik itirdim, Cəmil!" deyərək göz yaşlarıyla məni tərk etdi...

Növbəti yay tətilindən qayıdanda, Nəsibənin barmağında nişan üzüyü gördüm. Ona sadəcə: "Təbrik edirəm, Allah hər ikinizi xoşbəxt etsin!" deyə bildim. Sonradan məndə qəribə hisslər baş qaldırdı. Məndə qızlara qarşı münasibətdə birdən-birə soyuqluq yarandı. Bacardıqca onlardan kənar gəzməyə çalışdım. Amma buna baxmayaraq qızlar hər zaman ətrafımda dolanırdı. Mənim qızlara qarşı son zamanlardakı qəribə davranışımı görən qrup nümayəndəsi Aygün xanım bir gün məni kənara çəkib dedi: "Cəmil, incimə Nəsibə məsələsində sən özünə heç vaxt haqq qazandıra bilməzsən. O qızın illər boyunca, elə birinci kursdan səni sevdiyini necə hiss edə bilməmisən? Sən onun sənə qarşı

olan sevgi, eşqlə dolu qəlbini qırdın. Bax, biz bunu heç cür anlaya bilmirik". Haqlı iradlardı. Bəli, günah məndəydi. Mən Nəsibəyə qarşı çox laqeyd və hissiyyatsız davranmışam. Vaxtıyla Nəsibənin mənə dediyi sözlərin fərqinə varmamışam. O mənə tez-tez deyirdi: "Cəmil, bütün vaxtını kitablara, dərs oxumağa sərf edirsən. Arada bir özün barədə də düşün, şəxsi həyatına nüfuz et, hal-əhval tut. Yoxsa, bir gün tənha qaldığını anlarsan. Bir də gördün ki, sənə qalan ancaq bu kitablardır. O zaman peşman olacaqsan. Hər halda məsləhətim budur ki, bir az da şəxsi həyatın haqqında düşün!"

Mənim tələbəykən eşq macərası yaşamamağının səbəbkarı yaxın bir dostumun məsləhətinə əməl etməyim oldu. O, instituta qəbul olduğumu eşidəndə çox sevinmişdi. Və mənə bunları qardaş və dost məsləhəti kimi qəbul etməyi tövsiyə etmişdi: "Cəmil, sən arzuna çatmaq üçün çox çalışdın, zəhmətə qatlaşdın. Şükür Allaha ki, arzuna qovuşdun. Amma instituta daxil olmaq, hələ arzuna tam yetişmək demək deyil. Əsl gərgin, zəhmət tələb edən yuxusuz gecələr bundan sonra başlayır. Sən gələcəkdə yaxşı mütəxəssis, yaxşı peşə sahibi olmaq istəyirsənsə, müəllimlərinin mühazirə və seminarlarında fəal iştirak etməli, günlərini kitabxanalarda keçirməlisən. Tələbə vaxtının qədrini və qiymətini bilməlisən. Ən əsası da odur ki, qız sevdasından, eşq, məhəbbət macərasından uzaq durmalısan. Çünki bu bəlaya tutuldun, ona mübtəla oldun o zaman hər şey - kitab oxumaq, dərsə davamiyyətin axsamağa başlayacaq. Get-gedə təhsildən soyuyacaqsan və bir də görəcəksən ki, çoxlu kəsrlərin olduğu üçün institutdan qovulmağın barədə əmrin divardan asılıb. Məncə, bunu nə sən, nə mən, nə də ki, valideynlərin istəməz. Ona görə də başını aşağı salıb ancaq dərslərinlə məşğul olmalısan! Eşqə, məhəbbətə həmişə vaxt olacaq".

Mən dostumun tövsiyəsini heç zaman unutmadım. Eşq, sevgi, məhəbbətdə uduzsam da, təhsildə həmişə qazandım, uğurlarıma sevindim. Nə qədər haqlı və ya haqsız olduğumu qoy dəyərli oxucularım söyləsin. Gizli eşq məsələsində məni çoxları qınasalar da, bunları qəbul etməyə hazıram. Çünki indi başa düşürəm ki, yaşanmayacaq qədər gözəl, dərk edilməyəcək qədər sadə, ruhumuzun gözəllik simvolu olan, doyulmayacaq qədər duyğunu nə görə, nə də duya bilmişəm. Deyirlər, sevgisiz həyat yoxdur. Amma mən bu həyatı yaşadım. Bir daha anladım ki, könül işləri həmişə ağıldan qabaq gəlir. Anladım ki, dünyanı lərzəyə gətirən, insanlara sonsuz güc, qüvvət verən, daş qəlbli insanları həlimləşdirən, düşmənləri barışdıran, bir-birinə dost edən, qarşısında heç bir güc tanımayan, hər cür xəstəliyə qarşı ən yaxşı məlhəm olan ecazkar sevgiyə qarşı böyük bir haqsızlıq etmişəm! Bunu səmimi etiraf edirəm. İndi deyirəm: “Bağışla məni, Gizli Eşq, bağışla!!!”

***06.06.2015***

## *Sevgi və hikmət dolu sətirlər...*

**1.***Üst-başa bulaşmış çirkləri, kirləri yumaqla təmizləyə bilərsiniz, amma qəlbə bulaşmış kirləri yalnız iman gətirməklə və tövbə etməklə təmizlənər...

***

**2**.*Bir gün kiçik oğlumu səhər tezdən dənizkənarı parka gəzintiyə çıxarmışdım. Dənizin üzərində duman vardı. Oğlum dumanı mənə göstərib dedi:

- Ata, bu nədir elə?
- O, dumandır - dedim.

- Duman nədir? - soruşdu.
- Duman insanların dərdi, kədəridir, oğul. Onlar yer üzərində bir yerə toplaşır, sonra da göylərə çəkilirlər.
- Bəs dərd, kədər nədir, ata?
- Allah-təala bunları sənə heç zaman qismət eləməsin, oğul!
- Demək, dərd, kədər pis şeylərdir...
- Oğul, sən hardan bildin ki, bunlar pis şeylərdir?!
- Çünki atalar övladlarına heç vaxt pis şeylər arzulamazlar...

***

**3.***Bəzən ümid arxasınca gedənlər bir də geri qayıtmayırlar...

***

**4**.*Tanrının bizlərə bəxş etdiyi gözəl nemətlərdən biri olan dilimizdən könüllər qırmağa, qeybət eləməyə, evlər yıxmaq üçün deyil, qəlbləri sevindirmək, sevincimizi, acımızı birgə paylaşmaq, incik könülləri barışdırmaq, bütün insanlara sevinc, təbəssüm və xoşbəxtlik arzulamaq üçün istifadə edək!..

***

**5**.*Şair dostum Əlizadə Nuri adamlar haqqında belə deyir:
"Adamlar qar kimi yağır dünyaya, vaxtı çatanda da "əriyib" gedir...

***

**6.***Görəsən, sonu görünməyən bu yollar hardasa dinclərini alırlarmı heç?!.

***

**7**.*Biz hamımız bu dünyanın kirayənişinləriyik...

***

**8.***Sevən bir qızın dilindən: Hardan biləydim ki, nişanlandığım oğlan iki aydan sonra Qarabağda şəhidlik şərbətini içəcək. Və ondan mənə yadigar olaraq yalnız qəm-kədər qalacaq. Sən demə, mən Kədərə nişanlanmışam...

***

**9**.*Şair dostum Əlizadə Nuri deyir: Daha bu dünyada Ürəyimi duyğulandıran,
Könül sularımı dalğalandıran bir şey qalmadı,
- Ölüm, yaxın gəl, gəl indi də sənin şeirini yazım...

***

**10**.*İnsanlarsız Dünya nəyə və kimə gərəkdir?! Bəs nəyə görə super güclərin siyasəti bütün insanlığa qarşı yönəlib? Bilməliyik ki, silahlar çoxaldıqca, onların partlama ehtimalı da çoxalır. Bir dayanın və dərindən düşünün! Bu silahlara sərf edilən maddiyyat nəyə görə Yer üzündə milyonlarla ac-yalavac olan insanlara kömək üçün yönəldilmir?! Ey özlərini hamıdan ağıllı sayan Dünya siyasətçiləri nə qədər gec deyil, Bəşəriyyəti məhv etmək planından əl çəkin! Qıymayın Tanrının bizlərə bəxş etdiyi bu gözəl Dünyaya! Onu da unutmayın ki, yalnız şeytana xidmət edən siyasət insanlığa qarşı yönəlir. Gəlin, bu gözəl Dünyanı birlikdə qoruyaq!!!

***

**11**.*Sizə vəfasızlıq etmiş sevgini unutmaq istəyirsinizsə, onunla ilk görüşdüyünüz yerə gedin və onunla bağlı bütün xatirələri oradaca "dəfn" edin. Amma bu sözləri söyləməyi unutmayın: "Mən buraya səni xatırlamaq üçün deyil, səni birdəfəlik unutmaqçün gəldim!"

***

**12**.*Vədəmiz tamam olanda, biz də əcəl şərbətini içəcəyik bir gün...

***

**13.***Şeytan insanları həmişə ümidsizliyə sürükləməyə çalışır. Tanrı isə bəndələrinə hər işdə tələsməməyi, ümidsizliyə qapılmamağı, imanlı və səbrli olmağı tövsiyə edir.

***

**14.***Deyirlər dərdi, kədəri dostlarla, yaxınlarla paylaşdıqca azalır. Amma qürurlu insanlar öz dərdlərini kimlərləsə bölüşməyi şənlərinə sığışdırmazlar...

***

**15**.*Nakam eşqin sonunda göz yaşı varsa, ömrün sonunda da baş daşı var...

***

**16**.*Solub-saralan gülün qürub çağına baxmaq sevənlər üçün çox üzüntülü bir səhnədir.

***

**17**.*Həyatda hər kəsə öz sevgisi uğrunda dalğaların qayaya olan sevgisi qədər mübarizlik, əzmkarlıq və yorulmazlıq arzu edirəm.

***

**18**.*Hər gün etdiyiniz xeyirxah işlərlə Əməl Dəftərinizi zənginləşdirməyə çalışın!

***

**19**.*"Çaqqallar"ın var-dövləti, sarayı olmaz. Olsa-olsa onların hini olar.

***

**20**.*Ölüm bir körpüdür. Fani dünya ilə gerçək olan əbədi dünyanı birləşdirəcək bir körpü.

***

**21**.*Savaşmaq insanın fitrətindədir. Ən önəmlisi odur ki, nə üçün və nəyin uğrunda savaşdığını bilməkdir.

***

**22**.*Mən hər zaman dostlarımla yanaşı, könlümlə də ibadətdəyəm...

***

**23**.*Payız aylarında Tənha xanımlarımızın yaşamaq silahı onların göz yaşlarıdır. Allah-təala xanımlarımıza tənhalıq qismət etməsin! Amin!!!

***

**24**.*Şeirlər şair və şairələrin ümid, güvənc yeridir. Onlar hər yeni şeirlərini daimi yaşatmaq üçün insanların yaxasına tikməyə və qəlblərinə hopdurmağa çalışırlar...

***

**25**.*Həya libasınızı heç zaman soyunmayın!..

***

**26.***Bir aydan çox idi ki, işlə əlaqədar xarici ölkədəydim. Qayıdan kimi dostuma baş çəkdim. O məni çox soyuq qarşıladı. Məni soyuq və könülsüz qarşılamağının səbəbini soruşdum. Ondan heç gözləmədiyim bu cavabı aldım. O, dedi:

- İndi mənim yeni bir dostum var. Sən məni uzun müddətdir ki, arayıb-axtarmadığını görüb özümə yeni dost tapdım. O, sənin kimi vəfasız deyil, hər gün, hər saat, hər an mənim yanımdadır.

Təəccüblə dostumdan soruşdum:

- De görüm, mən onu tanıyırammı? Axı niyə görə mənə vəfasız deyirsən? Sən ki, mənim işlə bağlı xaricdə olduğumu bilirdin. İndi vəfasız mənəm, yoxsa sən. Bir ayın içində məni unudub, özünə təzə dost tapmısan. De görüm, təzə dostunun adı nədir?

Dostum könülsüz halda başını yırğalayıb dedi:

- Sən onu tanıya bilməzsən. Çünki o səninlə heç bir zaman qarşılaşmayıb.
- Bəs onun adı nədir?! - deyə maraqla yenidən dostumdan soruşdum.
- İndi ki, bu qədər təkid edirsən, o zaman söyləyirəm. Yeni dostumun adı "Tənhalıq"dır. İndi
rahat oldunmu?! - Dostum əsəbi halda dilləndi.

Mən dostuma qarşı səhvimi indi anladım. Gərəkdi ki, xaricdə olarkən ona zəng edəydim...

Harada olmağınızdan asılı olmayaraq, dostlarınızı tez-tez arayıb axtarın!..

***

**27**.*Bir gün dənizkənarı parkda qəmli oturmuş ahıl bir kişidən soruşdum:
- Əmican, niyə belə qəmli görünürsən? Yoxsa, özünü xoşbəxt sanmırsan?!

O, dərindən ah çəkib dedi:
- Oğul, hələ ki, xoşbəxt deyiləm. Bu günə qədər oturub xoşbəxtliyimi gözləyirəm. Çünki bu dünya mənə söz vermişdi ki, məni xoşbəxt etsin. Amma indi görürəm ki, deyəsən mən dünyanın yadından çıxmışam...

***

**28**.*Söz ilə "savaşanlar" bunu bilməlidir ki, həmişə sonda Söz qələbə çalır...

***

**29**.* Şair dostum Əlizadə Nuri deyir:

"Səhər açılsa da, oyanan deyiləm,
Açılsın dodaqların ki... oyanım
Dur Günəş kimi dayan başımın üstə,
Dünya kimi işığına boyanım...
Min baxış da baxsam, artıq sayma sən,-
Ay məni ilk baxışımdan duyanım...
Bu sevgi də içimdəki Vətəndi,-
Qoy könlümlə keşiyində dayanım...

***

**30**.*Biz hamımız "Ömür" adlı bir qəfəsin içində çabalayırıq...

***

**31**.*Ah-nalənin, qəm-kədərin də başına sığal çəkmək olarmı?!.

***

**32**.*Ehtiraslarınızın əsiri olmayın ki, sonradan qınaq hədəfinə çevrilməyəsiniz.

***

**33**.*Məhəbbətini məsləkinə qurban verən oğulları qınamayın siz allah! Çünki onlar üçün Vətən, Ana, Millət və Dövlət sevgisi hər şeydən öncə gəlir...

***

**34**.*Elə analar var ki, öz vəzifələrini dünyaya övlad gətirməklə bitmiş hesab edirlər. Amma dünyaya təşrif buyurmuş bu övladın sabah necə bir adam olacağına qərar verməkdə çətinlik çəkirlər. Bu qərarda onlar çox acizdirlər...

***

**35**.*Onsuz özümü suda olmayan balıq kimi hiss edirəm. Onsuz qanadsız quş kimiyəm... Qəlbi dayanmış bir insanam sanki...

***

**36**.*Dost tərəfindən arxadan vurulan bıçaqdan axan qan ləkələrinin izi sizi məlum bir ünvana aparıb çıxara bilər. Bu ünvanın adı: Xəyanət!!!

***

**37**.*Sənsizlik məni çox üzür, sanki "sonum yaxınlaşır" deyə düşünürəm. Sənsiz aldığım hər nəfəs tikan olub qəlbimə batır...

***

**38**.*İnsanları yalqız qalmağa qoymayın. Tənha adamların köməyinə yetişin! Azca da olsa, dərdlərini paylaşın, sevinclərinə sevinc qatmağa çalışın. O zaman Sizlər də daxilən rahat və məmnun olarsınız...

***

**39**.*Həyatda elə insanlar var ki, ömürlərinin çox az hissəsini özləri üçün yaşayır...

***

**40**.*Döyüşdə güclü olan tərəf deyil, Allah kimin yanındasa o, qələbə qazanar

***

**41**.*Türklər şəhadət şərbətini içmək üçün ona doğru yüyürərək gedərlər.

***

**42**.*Biz böyük acılarımızı hər zaman içimizdə yaşadırıq...

***

**43**.*Şəhidlik - gedənlər üçün toy-bayram, qalanlar üçün matəmdir.

***

**44.***Bir imanınızdan, bir də Haqq uğrunda mücadilədən əsla vaz keçməyin!..

***

**45**.*Gözəlliyi görüb onu doğru-dürüst qiymətləndirməyi hər kəs bacarmır. Çünki gözəlliyin özü tam dərk olunan deyil...

***

**46**.*Qəm, kədər şələsi daşımaqdan bezdi Xalqım! Nədən başqalarına firavan həyat, biz Türklərə isə həmişə acılar içində yaşamaq qismət oldu, ya Rəbbim?! Əgər bu Tanrımın imtahanıdırsa, bəs nə vaxt sona yetəcək bu imtahan?!

***

**47**.*Sənə qarşı olan inam itibsə, daha yaşamağa lüzum yoxdur.

***

**48**.*Bədxah insanlar maskalarını elə tez-tez dəyişirlər ki, axırda yazıq maska dözməyərək yırtılır. Belə insanların özləri də mənəvi cəhətdən yırtılmış adamlardır...

***

**49**.*Dostlar, bir-birinizə dəyər verməyə çalışın. Bunu bacarmırsınızsa, onda heç olmazsa könülləri qırmayın!

***

**50**.*Xanımlarımızın səhvlərini biz, kişilər düzəltməliyik. Onların səhvi bizim səhvimizdir. Bizim yetərincə ağıllı xanımlarımız var. Onları hər türlü iftira və böhtanlardan qorumağa çalışmalıyıq. Bir də kişilərimizə müraciət edirəm: "Gəlin, qadın zəifliyindən sui-istifadə etməyin!"

***

**51**.*Əsl kişilik gördüyü eyiblərin üstünü örtməkdir...

***

**52**.*Sənə ithaf etdiyim kitabı Sənin məzarın üstünə qoymaq nəsib oldu mənə…

***

**53**.*Bir oxucumun dilindən: “Yaxşı ki, Sən varsan. Səninlə həmsöhbətdən sonra çox rahatlanıram, daxilən məmnunluq hissi yaşayıram. Yaşamaq həvəsim artır. Çünki insan onu başa düşən, qəlbən anlayan birisiylə dərdini-sərini paylaşanda istər-istəməz özündə rahatlıq tapır. Mənə ümid verən, yaşamaq həvəsimi artıran elə Sənin xoş, səmimi və riyadan kənar sözlərin, bir də yazdığın kitablar oldu”.

***

**54**.*Bircə gün səsini eşitməyəndə, ürəyim çırpıntıdan az qalırdı ki, yerindən çıxsın. Amma indi ürəyimdə bir həsrət heykəli ucalıb. Bu həsrət heykəlini əritmək üçün indi sənin əvvəlki tək isti, yanar, odlu baxışların lazım deyil. Bu heykəli əritmək üçün indi sənin sadəcə soyuq baxışların da buna kifayət edər. Əzizim, mən səni indi yağışı gözləyən torpaq kimi gözləyirəm. Mən səni küləyi gözləyən yarpaqlar kimi əsirəm. Dodaqlarım sənin sevginə susamış dodaqlar kimi titrəyir. Səni dəlicəsinə gözləyirəm! Qayıt gəl, vəfalı eşqinə sahib çıx, Gülüm!

***

**55**.*Mənim səni dəlicəsinə sevdiyimdən kimsənin xəbəri yoxdu. Elə sənin özünün də. Bu bir gizli eşq idi. Amma bu eşq nə vaxtsa izhar edilməliydi. Və bir gün gizli eşqimi sənə söylədim. Sənsə qımışaraq dedin: "Bu mümkün deyil. Sən gecikmisən. Mən artıq başqasının yarıyam!” O zaman mən də təəssüflə: “Axı niyə bu qədər gec çıxdın qarşıma? Bəs indiyə kimi haradaydın?!” deyə əllərimlə başımı tutacağam. Mənmi gecikdim bu sevdaya, yoxsa sənmi tələsdin bu eşqə?!.

***

**56**.*Xoşbəxtlik axtarırdım, Sən çıxdın qarşıma. Dost-tanışlar, qohum-əqrəba hər dəfə məni qınayırdılar: “Daha bəsdir, bu qədər subay gəzib-dolaşdın! Evlənmək vaxtın ötüb keçir. At bu subaylığın daşını. Sevindir atanı, ananı, bacı-qardaşını. Sevindir səni sevənləri!” İndi mən onlara Səni sevdiyimi necə söyləyim?! Sevdiyim qızın həm ərdə, həm də iki övladı olduğunu onlara necə anladım?!

***

**57**.*Taleyə bir bax. Sevirəm, amma sevgimi deyə bilmirəm. Kövrək duyğularım ağladır məni. Getdiyin yollara həsrətlə baxıram. İnan ki, səni o yollara da qısqanıram. Dünənki tədbirdə yenə də qarşılaşdıq. Hamıya təbəssüm hədiyyə etdin. Mən isə başqalarına dostcasına ərmağan etdiyin bu təbəssümləri də onlara qısqandım...

***

**58**.*İndi həsrət yağışı yağır içimə. Sənin səsinə tamarzı qalmışam. Sənsizlik ürəyimi yandırıb-yaxır, içimdəki tufan sanki sal qayadan daşı qoparıb apardığı kimi, nəyisə alıb aparır. Bundan sonra içimdə bir boşluq yaranır.
Bu şaxtalı qış axşamı odlu baxışlarına həsrət qalmışam. Çünki bu soyuq axşamlarda ancaq o baxışlarla isinirdim həmişə. Heç bilmədim hardan yol alıb gəldi bu həsrət?!.

***

**59.*** Nakam bir eşqin ah-naləsi: "Əzizim, bundan sonra mən səni yazılarımda yaşadacağam. Növbəti yazım “Günaha batmış sevgi” olacaq...
Səndən mənə yalnız həsrət dolu baxışlar qaldı. Məndən sənə nə qaldı?! Bax, onu bilmədim!..

***

**60**.*Bir kəsi daha yaxından tanımaq, yəni həmin adamın iç dünyasına tam bələd olmaq istəyirsinizsə, həmin şəxsə çoxlu pul və bir vəzifə kreslosu ver. Sonra özün də kənarda durub ona tamaşa et və onun kim olduğunu bu zaman görəcəksiniz...

***

**61**.*Şəhidlərimizin ruhu sağ qalanların ruhuna qovuşmayınca, onlar heç cür rahatlıq tapa bilməzlər...

***

**62**.*Dünyanı yönəldən güc dövlətləri tərəfindən yürüdülən mürtəce və iyrənc siyasət bundan ibarətdir: bölgələrdə yeni müharibə ocaqları alovlandırmaqla həmin ölkələrə silahlarını sataraq qanlı savaş çıxarmaq, həmin bölgənin yeraltı və yerüstü sərvətlərini ələ keçirmək, bu bölgələrdən didərgin düşən qaçqınlara Avropada yeni həyat vəd edərək, onları ələ keçirib onlardan insan ticarəti və orqan satışı üçün istifadə etmək...

***

**63**.*Bu nadanlardan, riyakarlardan, məddahlardan, yaltaqlardan, namus və şərəfini heçə sayanlardan, mənən kasıblardan, qürursuz, ləyaqətsiz, mənliyini iki quruşa satanlardan, əqidəsi sürüşkənlərdən, eşqinə, torpağına, Vətəninə, ailəsinə, mənliyinə sahib çıxa bilməyənlərdən və ona xəyanət edənlərdən, rüşvəti özünün həyat amalına çevirənlərdən, özünü, axirətini unudanlardan, yarımçıq “insan”lardan, soy kökündən uzaq düşmüş, harınlaşmış məmurlardan, saxtakar, həmişə yalan danışanlardan, etibarsız və xəyanətkar dostlardan, dinsiz-imansızlardan, məsləki məlum olmayanlardan bizi hifz et, ya Rəbbim!..

***

**64**.*Bir gün süfrə başında atam hamımıza müraciət edərək dedi:“Balalarım, bir-birinizin qədrini bilin. Məndən sonra aranızda umu-küsülük olmasın, mehriban yaşayın, nahaqdan kimsənin qəlbini qırmayın, həmişə bir-birinizin hayına-harayına yetişin. Öz gücünüzə güvənin, öz zəhmətinizlə dolanın. Çalışın ki, evinizə haram tikə gətirməyin. Dedi-qodudan, qeybətdən, həmişə uzaq olun. Ailənizdə daim mehribançılıq, inam və səmimiyyət olsun. Çətin günlərinizdə və çətin anlarınızda ancaq Allahın dərgahına, mərhəmətinə sığının, Ona pənah aparın və Ondan kömək diləyin!”

***

**65**.*Ana, qəlbim həsrətindən param-parça oldu. Göz yaşlarım sel olub qəlbimə axdı. İndi hər yerdə gözüm səni arayır. Sənsiz günlərimiz çətindir, Ana! İndi o doğma çöhrənin, o məsum baxışının, o xoş sözlərinin həsrətindəyik.

Bilirəm, bizimçün çox darıxmısan. Artıq uca göylərdən baxırsan bizə. Kaş ki, yenidən qayıdıb bizə dönə biləydin! İnan ki, mənə bəxş edilən ömür payımı heç çəkinmədən sənə qurban edərdim. Bu həsrətə dözmək çox çətindir, Ana! Sən gedəni sanki dərdlərimiz də çoxaldı. İndi anladıq ki, hər bir evdə Ana təsəllisi bütün dərdlərin dərmanı imiş. Hər dərdimizə yananım, Ana! İndi biz ana südünə həsrət qalan quzular kimi, Sənin yoxluğuna mələr quzulara dönmüşük. Ana, sən gedəni sevincli günlərimiz, xoş günlərimiz yasa döndü. Sən gedəni neçə payız ötdü, neçə qış ötdü. Sənsizlik dərdi, həsrət dolu günlər qəlbimizdən daş olub sallandı. Sən gedəni ömrümüzdəki bahar gülləri daha çiçək açmadı. Sanki onlar da Sənin gedişinə yas saxlayır, həsrətindən boynu bükük qalıblar...

***

**66**.* Şəhid anaları - heç kəsin görə bilmədiyi, duymadığı şəhid oğullarına qəlblərində ağrı-acıdan, dərddən, kədərdən, iztirabdan, həsrətdən əbədi bir heykəl qoyarlar!..

***

**67**.*Ürəyimdə kök salan sevgin, nədən sənin qəlbində bir tikan oldu?! Mən səni qəlbimdə sevgi atəşi ilə isindirirdim. İndisə yad birisinin yanında soyuqdan üşüdüyünü bilirəm...

***

**68**.*Son dəfə məndən ayrılanda, nədənsə gözlərini gizlədirdin. İndi anlayıram ki, gözlərini məndən niyə gizlədirdin. Sən ondan qorxurdun ki, gözlərində başqa birisinin gizləndiyini görə bilərəm. Bundan bildim ki, niyə son

vaxtlar gözlərin gözümə baxmaqdan utanır. Çünki günahkar sən idin. O günah yükü kirpiyindən sallanaraq göz qapaqlarını aşağı dartırdı...

***

**69**.*Sən demə, çiçəkləri, gülləri də təravətləndirən eşq, sevgi imiş...

***

**70**.* Pəncərə önündə indi sənsiz dayanmışam. Amma əvvəllər bu pəncərədən ikimiz baxardıq yağan payız yağışına...

İndi son yükünü daşıyır ömür qatarı. Sənsizəm...

Çəkdiyim ah-naləm qayalardan qaya qoparır...

Mən indi yelkənsiz qayığa bənzəyirəm. Səmtini itirmiş yolçuyam sanki.

Artıq bulud ötüb, yağış dayanıb. Yerdəki gölməçələr ayna tutubdur mənə. Mən ona baxıram. “Ayna”da tək mən görünürəm. Sənsizəm yenə!..

***

**71**.* Bundan sonra ömrüm bir şam kimi ərisə belə, qəm, kədər içimdə yerisə belə, mən səni yenə də gözləyəcəyəm!..

Sən məni tərk edib getməmişdən iki gün öncə məndən soruşmuşdun:“Axı, məhəbbət nədir ki, insanlar onun üçün bu qədər yanıb-yaxılırlar?”

Dedim: “Məhəbbət oddur, atəşdir. Qəlbi daim yandırıb-yaxar.”

Soruşdun: “Bəs, onda bu atəşə necə dözmək olar?”

Dedim: “Əgər bu eşq, bu məhəbbət qarşılıqlıdırsa, onda bu atəş sevən könüllərə sərinlik verər...”

İndi bayırda qar yağır. Hava soyuqdur. Bilirəm ki, üşüyürsən. Mən yenə də qəlbimlə bacara bilmirəm, sənin üşüməyinə heç cür dözə bilmirəm. Darıxma, mən səni heç vaxt üşüməyə qoymayacağam! Hər zaman qəlbimdəki sənin eşq atəşinlə soyuq gecələrdə yuxuna gələcəyəm. Və səni eşqimin oduyla isindirəcəyəm!..

***

**72. ***Mənim eşqim ancaq Vətənimdir. Bundan başqa bir eşq mənimçün yoxdur həyatda...

***

**73**.*Rəbbim ən çox sevdiklərini şəhidliklə şərəfləndirir...

***

**74**.*Mənimçün həyatda eşq, ancaq Yaradana, Anama və Vətənimə olan eşqdir...

***

**75**.*Xalqın sevgisi insana həmişə güc verər...

***

**76**.*İnsanı zahiri deyil, batini gözəlliyinə görə qiymətləndirmək lazımdır. Çünki bəzi hallarda zahiri gözəllik aldadıcı olur...

*******

**77.***Nəfsinə sahib çıxa bilməyən adam, yanlış yolda olar...

***

**78.***Özünü daha çox sevən insan qəhrəman olaraq ölmək istər...

*******

**79.*** Analar övladlarını gözləriylə deyil, könülləriylə görərlər...

*******

**80.***Türk igidi qılıncı əliylə deyil, ürəyiylə tutar...

*******

**81.***Ana südü içənlər heç bir zaman Vətəninə xəyanət etməzlər!..

***

**82.** *İgidin baxışı qorxağın qılıncından daha kəsərlidir...

*******

**83.***Həssas və mərhəmətli insanın buraxdığı səhvə görə özünə olan nifrəti başqasına olan nifrətdən daha güclü olur...

***

**84.***Yaşadığı həyatdan gileyli olan insanlar həmişə belə söyləyərlər: “Biz həyatın həmişə silləsini yedik...”

*******

**85.*** Sükut duyğuların dəfn olunduğu məkandır...

***

**86.***Həyatda necə sevməyi və eşqi pərvanədən öyrənmək lazımdır...

***

**87.*** Millətin dili Vətən torpağı qədər şərəfli və müqəddəsdir.

# *Mündəricat*

**Ön söz.....................................................................3**

*Hekayələr*

**Baş tutmayan intihar............................................5**
**Tində dayanmış qadın........................................12**
**Quru çörək..........................................................21**
**Qonşu tikəsi........................................................30**

**Tövbə......................................................................32**
**Haram tikə..............................................................41**
**Xəcalət təri.............................................................46**
**Paxıllıq.....................................................................49**
**Snayperçi qız.........................................................71**
**O müdhiş gecə.......................................................92**
**Mühasirə..............................................................104**
**Qanlı məktub........................................................111**
**Qəndəharda "ov" əməliyyatı...............................122**

***Esselər***

**Aqil yanğısı...........................................................128**
**O gecə ölüm mələyi enmişdi yerə........................139**
**Dərdim dağlar əridər...............................................142**
**Gizli eşq..................................................................148**
**Sevgi və hikmət dolu sətirlər..................................153**

**Camal Zeynaloğlu: "Baş tutmayan intihar"**
(Azərbaycan dilində)

**Bakı, "Print - S" nəşriyyatı - 2015, - 174 səh.**

Nəşriyyatın direktoru: **Bəxtiyar Əlili**
Rəssam: **Süleyman Mustafaoğlu**
Operator: **Ruhiyyə Mirəli**

Korrektor: **Sevinc Quliyeva**

---

Çapa imzalanmışdır: 16.11.2015
Kağız formatı: 60 x84 1/16
Şərti çap vərəqi: 10.8
Sayı: 500 nüsxə
Sifariş: 47
Qiyməti: **4.00 AZN**

---

**“Nərgiz”** mətbəəsində çap edilmişdir.